RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 131 (10151) 25 iyul 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Cənubi Qafqazın aparıcı dövləti, qlobal siyasətin mühüm aktoru

Son onilliklərdə Prezident İlham Əliyev beynəlxalq siyasətin ən möhtəşəm tribunalarında çıxış edən, qlobal proseslərə dair mövqeyi diqqətlə izlənilən dövlət başçısı kimi böyük nüfuz qazanıb. Azərbaycan Liderinin BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı və digər mötəbər platformalarda səsləndirdiyi fikirlər beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.

Prezident İlham Əliyevin diplomatiyasının əsas xüsusiyyəti prinsipiallıq, ardıcıllıq və beynəlxalq hüquqa söykənən yanaşmadır. Dövlətimizin başçısı bütün çıxışlarında dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq hüququn aliliyi prinsiplərinin qorunmasının vacibliyini vurğulayır. Bu siyasət Azərbaycanın beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınmasına və nüfuzunun əhəmiyyətli dərəcədə artmasına səbəb olub.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tam bərpa olunması müasir tariximizdə yeni mərhələnin əsasını qoydu. Azərbaycan beynəlxalq hüququn tələb etdiyi, lakin uzun illər ərzində həyata keçirilməyən prinsipləri öz gücü ilə təmin etdi. Bununla ölkəmiz təkcə ərazi bütövlüyünü bərpa etmədi, həm də regionda tamamilə yeni geosiyasi reallıqlar yaratdı. Həmin reallıq da ondan ibarətdir ki, bu gün Cənubi Qafqazda formalaşan siyasi və iqtisadi gündəliyin əsas müəllifi məhz Azərbaycandır. Regionda kommunikasiya xətlərinin açılması, iqtisadi inteqrasiya, nəqliyyat əlaqələrinin genişləndirilməsi və uzunmüddətli sülhün təmin olunması istiqamətində irəli sürülən təşəbbüslərin mərkəzində məhz Azərbaycan durur.

Ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsində enerji diplomatiyası da xüsusi rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, "Cənub qaz dəhlizi", TANAP və TAP layihələri Avrasiyanın enerji xəritəsini dəyişdirən strateji layihələr kimi tarixə düşüb. Bu layihələr sayəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas tərəfdaşlardan birinə çevrilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz artıq ənənəvi enerji ixracatçısından "yaşıl enerji" istehsalçısına doğru transformasiya istiqamətində də mühüm addımlar atmaqdadır. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji zonası" elan olunduğu üçün regionda günəş və külək enerjisi layihələri həyata keçirilir, Xəzər dənizinin böyük bərpaolunan enerji potensialının beynəlxalq bazarlara çıxarılması istiqamətində mühüm işlər görülür. Bu siyasət Azərbaycanın gələcəyin enerji təhlükəsizliyi sistemində də aparıcı mövqelərdən birini tutacağını göstərir. Dövlətimizin başçısı çıxışlarında xüsusi qeyd edir ki, enerji təhlükəsizliyi bundan sonra da qlobal gündəliyin əsas mövzularından biri olaraq qalacaq: "Ölkəmizdə bu sahədə artıq böyük işlər görülüb və işlər yekunlaşıb. Lakin qeyd etdiyim kimi, həm ənənəvi enerji resurslarımıza, həm də bərpaolunan enerji mənbələrinə tələbat artmaqda davam edəcək. Bizim bərpaolunan enerji sahəsində çox böyük potensialımız var. Təkcə Qarabağda ümumi gücü 340 meqavat olan su-elektrik stansiyaları artıq istifadəyə verilib. Bundan əlavə, növbəti bir il ərzində 340 meqavat gücündə günəş-elektrik stansiyalarının tikintisi də başa çatdırılacaq. Buna görə elektrik enerjisinin Avropa bazarına ixracı gündəliyimizin əsas istiqamətlərindən biridir. Çünki Avropa bazarının əlavə enerji resurslarına ehtiyacı var və bizim əlavə imkanlarımız var".

7

## İlham Əliyev Şavkat Mirziyoyevi doğum günü münasibətilə təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.

Dövlətimizin başçısı Şavkat Mirziyoyevi doğum günü münasibətilə ürəkdən təbrik edib, ona uzun ömür, cansağlığı, qardaş Özbəkistan xalqının xoşbəxt gələcəyi və firavanlığı naminə həyata keçirdiyi şərəfli ali dövləti fəaliyyətində yeni-yeni uğurlar və nailiyyətlər arzulayıb.

Prezident Şavkat Mirziyoyev səmimi təbrikə və xoş sözlərə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək, öz növbəsində Azərbaycan xalqına firavanlıq və rifah arzulayıb.

Telefon söhbəti zamanı Azərbaycan-Özbəkistan strateji müttəfiqlik münasibətlərinin əhəmiyyətinə toxunulub, əlaqələrin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub.

Dövlət başçıları, həmçinin gələcək təmaslar barədə razılıqlarını ifadə edərək, qarşılıqlı maraq doğuran məsələlərə və ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Yüksələn beynəlxalq nüfuz, möhkəmlənən geostrateji mövqe

### Azərbaycan qlobal tərəfdaşları sülh, iqtisadiyyat və tərəqqi naminə bir araya gətirən mərkəz kimi çıxış edir



Azərbaycan-Avropa İttifaqı münasibətlərinin bu gün tamamilə yeni, strateji mərhələyə qədəm qoymasını Aİ-nin ali nümayəndələrinin bu il ölkəmizə həyata keçirdikləri ardıcıl səfərləri də bir daha təsdiqləyir.

Martın 11-də Aİ Şurasının prezidenti Antonio Koştanın ölkəmizə səfəri Brüsselin Bakı ilə münasibətlərə yüksək qiymətinin göstəricisi oldu. Prezident İlham Əliyevlə Aİ Şurasının prezidenti Antonio Koştanın birgə mətbuat bəyanatında prezidentlər Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayaraq, təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqliklərini ifadə ediblər. Liderlər uzunmüddətli vacib enerji tərəfdaşlığını xatırladaraq, Avropanın enerji təchizatının şaxələndirilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın rolunu etiraf ediblər və 2022-ci ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun davamlı icrasına sadiqliklərini bildiriblər.

Yüklərin sürətli və təhlükəsiz daşınması, həmçinin logistik şaxələndirmə baxımından Aİ-nin Azərbaycana olan ehtiyacı qaçılmazdır. Bu gerçəklik mayın 5-də Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın Bakıya səfəri zamanı da etiraf olunub. Kaya Kallas Prezident İlham Əliyevlə görüşündə Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirərək, münasibətləri yeni səviyyəyə qaldırmaqda maraqlı olduqlarını bəyan edib.

8

## Azərbaycan-Almaniya Biznes Şurası uzunmüddətli iqtisadi tərəfdaşlığın güclənməsinə xidmət edəcək



Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması iş adamlarının bir masa arxasında toplanmasına, ortaq maraqların müəyyənləşdirilməsinə və yeni biznes əlaqələrinin qurulmasına xidmət edəcək. Belə platformalar sahibkarların bir-birini daha yaxından tanımasına, bazarın tələblərini öyrənməsinə və uzunmüddətli tərəfdaşlıqların formalaşmasına mühüm töhfə verir.

Azərbaycanla Almaniya arasında iqtisadi münasibətlərin uzun illərdir davam etdiyini qeyd edən deputat bildirib ki, bu əməkdaşlıq getdikcə daha geniş sahələri əhatə edir. Qarşıda duran əsas vəzifə mövcud potensialı konkret iqtisadi nəticələrə çevirməkdir. Biznes Şurası bu istiqamətdə görülən işlərin daha çevik və səmərəli təşkilinə dəstək verəcək. Sahibkarlar burada qarşılıqlı maraq doğuran məsələləri müzakirə edəcək, yeni əməkdaşlıq istiqamətlərini müəyyənləşdirəcək və birgə layihələrin icrasını sürətləndirəcəklər.

9

## Dövlət Neft Fondu yarım ilin hesabatını açıqlayıb

### Fondun 72,6 milyard dollar aktivləri var

ARDNF-nin fəaliyyəti xeyirxah, məqsədyönlü və uzaqgörən siyasət əsasında qurulub. Qurumun qarşısında çox mühüm vəzifələr dayanır ki, onlardan da ölkədə makroiqtisadi sabitliyin qorunması, neft gəlirlərindən asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və s. xüsusilə əhəmiyyətli yer tutur. Fondun fəaliyyəti eləcə də ölkənin sosial-iqtisadi tərəqqisi naminə nəhəng ümummilli layihələrin maliyyələşdirilməsinə yönəldilib.

Neft ehtiyatlarının bərpa olunmadığı, yəni hasil edildikcə tükəndiyi hamıya yaxşı məlumdur. Ona görə neft fondunun ən başlıca vəzifələrindən biri gəlirlərin nəsillər arasında bərabər bölüşdürülməsi, gələcək üçün ehtiyat vəsaitlərin toplanmasıdır.

Azərbaycan Respublikası Dövlət Neft Fondu yüksək reytinqə malik bir qurumdur. Belə ki, bu fond beynəlxalq tədqiqatlara əsasən, dünyanın ən şəffaf suveren fondları arasında lider mövqelərdə, o cümlədən ilk beşlikdə qərarlaşıb.

10



azerbaijan-news.az

## R.E.Məmmədovun Azərbaycan Respublikasının Özbəkistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Eynəddin oğlu Məmmədov Azərbaycan Respublikasının Özbəkistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2026-cı il*

## R.E.Məmmədovun Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Eynəddin oğlu Məmmədov Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2026-cı il*

## R.F.Aslanovun Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Fəxrəddin oğlu Aslanov Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2026-cı il*

## R.F.Aslanovun Azərbaycan Respublikasının İtaliya Respublikasında, eyni zamanda Malta Respublikasında, San Marino Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondu yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Fəxrəddin oğlu Aslanov Azərbaycan Respublikasının İtaliya Respublikasında, eyni zamanda Malta Respublikasında, San Marino Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondu yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2026-cı il*

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxsin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 545 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1954 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529; 2025, № 2, maddə 119) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.0.100-cü yarımbəndə "qurumların və" sözlərindən sonra "Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən hallar istisna olmaqla" sözləri əlavə edilsin.

2. 5.5.5-ci yarımbəndə "qurumlar" sözündən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən hallar" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2026-cı il*

## "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114 (Cild I); 2024, № 4, maddə 365; 2025, № 1, maddə 1, № 2, maddə 100, № 4 (I kitab), maddələr 315, 322, № 5, maddə 440, № 6, maddələr 526, 536, № 7, maddələr 610, 617, № 8, maddələr 743, 744; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 389-VIIQD nömrəli və 30 iyun tarixli 429-VIIQD nömrəli qanunları) 27.4-cü maddəsinin ikinci cümləsində "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya" sözləri "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

## "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 469-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 469-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "İcra haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 mart tarixli 672 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 122 (Cild I); 2025, № 6, maddə 544, № 7, maddə 648, № 8, maddə 747) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddən "27.4-cü maddəsinin ikinci cümləsində," sözləri çıxarılsın;

1.2. 2.2-1-ci bənd ləğv edilsin.

2. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 196-VIIQD nömrəli Qanununun tətbiqi və "İcra haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 mart tarixli 672 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 iyun tarixli 406 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 6, maddə 544) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2026-cı il*

## "Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4 (Cild I); 2024, № 11, maddə 1182, № 12 (II kitab), maddələr 1332,1348; 2025, № 1, maddə 16, № 3, maddə 218, № 8, maddə 743, № 11, maddə 1008, № 12 (I kitab), maddə 1118; 2026, № 3, maddə 205) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1.17-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.1.18-ci maddə əlavə edilsin:

"1.1.18. **icbari tibbi sığorta fondu** - dövlətin mülkiyyətində olan, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarəçiliyi həyata keçirilən və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondu.";

1.2. 15-3.5-ci maddədə "icbari tibbi sığorta üzrə məlumat bazasına (elektron informasiya ehtiyatına)" sözləri "bu Qanunun 15-27-ci maddəsində nəzərdə tutulan informasiya sisteminə" sözləri ilə əvəz edilsin;

1.3. 15-13.1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron" sözləri "bu Qanunun 15-27-ci maddəsində nəzərdə tutulan" sözləri ilə əvəz edilsin;

1.4. 15-27-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 15-27. **İcbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların elektron qaydada həyata keçirilməsi**

İcbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.".

**Maddə 2.** "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386 (Cild I); 2024, № 5 (I kitab), maddələr 501, 503; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322, № 12 (I kitab), maddə 1118; 2026, № 1, maddələr 8,16) 1.0.17-ci maddəsindən "və reabilitasiya imkanlarının" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

## "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 572 (Cild I); 2025, № 1, maddə 16, № 11, maddə 1007, № 12 (I kitab), maddə 1118) aşağıdakı dəyişikliklər edilsin:

1. 14-cü maddə üzrə:

1.1. 14.2-ci maddəyə "tərəfindən" sözündən sonra ", bu Qanunun 14.2-2-ci maddəsi nəzərə alınmaqla," sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 14.2-2-ci maddə əlavə edilsin:

"14.2-2. Bu Qanunun 2-1.1-ci maddəsində nəzərdə tutulan könüllü fəaliyyətin iştirakçısı olan könüllülərə münasibətdə sığorta haqqı onlarla bağlanılmış müqavilənin qüvvəyə mindiyi, istehsalat təcrübəsi (təlimi) keçən tələbə və şagirdlərə münasibətdə isə istehsalat təcrübəsinin başlandığı tarixdən 15 (on beş) iş günü müddətində ödənilir.";

1.3. 14.3-cü maddəyə "olunanların" sözündən sonra "sayında," sözü əlavə edilsin;

1.4. 14.3-1-ci maddə 14.3-2-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 14.3-1-ci maddə əlavə edilsin:

"14.3-1. Büdcə ili ərzində bu Qanunun 2-1.1-ci maddəsində nəzərdə tutulmuş sığorta olunanlar üçün sığorta haqqı ödəyən yeni sığortalı yarandıqda müvafiq büdcə ilinin başa çatmasına qədər qalmış vaxta mütənasib şəkildə hesablanmış sığorta haqları, habelə bu Qanunun 2-1.1-ci maddəsində nəzərdə tutulan sığorta olunanlara münasibətdə bu Qanunun 14.3-cü maddəsinə uyğun olaraq yenidən hesablanmış sığorta haqları hesablanmaya əsas olan halın yarandığı tarixdən 15 (on beş) iş günü müddətində ödənilir.".

2. 16-cı maddə üzrə:

2.1. 16.2-ci maddədə "ilə bağlı" sözləri "dərəcəsi növbəti müayinə müddəti göstərilməklə müəyyən edildikdə" sözləri ilə əvəz edilsin;

2.2. 16.3.1-ci maddədə "əlilliyi" sözü "peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 17.4-1-ci maddə əlavə edilsin:

"17.4-1. Bu Qanunun 2-1.1-ci maddəsində nəzərdə tutulmuş sığorta olunanlara münasibətdə birdəfəlik sığorta ödənişinin məbləği sığorta hadisəsinin baş verdiyi tarixə ölkə üzrə müəyyən edilmiş minimum aylıq əməkhaqqının min mislindən artıq olmamaqla, bu Qanunun 16.4-1-ci maddəsi ilə müəyyən edilmiş qaydada hesablanır.".

4. 20-1-ci maddə üzrə:

4.1. 20-1.1.2-ci maddəyə birinci halda "edilən" sözündən sonra "və son 24 ayda bu Qanunun 2-1.1-ci maddəsi ilə müəyyən edilmiş sığortaçıya gecikdirilmiş gəlir faizi ödənişi olmayan" sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 20-1.2.5-1-ci maddə əlavə edilsin:

"20-1.2.5-1. risklərin sığortalanmasına;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

## "Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 464-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 464-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.18-ci və 15-27-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 15-27-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 1.1.18-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində "İcbari tibbi sığorta" altsistemi yaradılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-21.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, icbari tibbi sığorta fondunun vəsaitlərinin sərbəst vəsaitlərə aid edilməsi və həmin vəsaitlərlə investisiya əməliyyatlarının aparılması qaydasının layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. "Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 464-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmanın 2-ci hissəsi ilə yaradılan altsistemin formalaşdırılmasını 2027-ci il yanvarın 1-dək təmin etsin.

5. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanunun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 92 (Cild I); 2024, № 12 (II kitab), maddə 1361; 2025, № 11, maddə 1021, № 12 (I kitab), maddə 1154) 6-cı hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 6.1-ci bəndə "1.1.14-cü," sözlərindən sonra "1.1.18-ci," sözləri əlavə olunsun, həmin bənddən "15-13.1-ci" sözləri çıxarılsın və həmin bənddə "15-27.1-ci, 15-27.2-ci" sözləri "15-27-ci" sözləri ilə əvəz edilsin;

5.2. 6.3-cü bənddən "15-27.2-ci," sözləri çıxarılsın;

5.3. 6.4-cü bənddə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin" sözləri ilə əvəz edilsin;

5.4. 6.5-ci bəndə "Qanunun" sözündən sonra "15-27-ci maddəsində və" sözləri əlavə olunsun və həmin bənddə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin;

5.5. 6.6-cı bənddə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin;

5.6. 6.7-ci bənddə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin" sözləri ilə əvəz edilsin;

5.7. 6.12-ci bəndə "1.1.13-1-ci," sözlərindən sonra "1.1.18-ci," sözləri əlavə olunsun, həmin bənddən "15-13.1-ci," və "15-27.1-ci," sözləri çıxarılsın və həmin bənddə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin;

5.8. 6.15-ci bənddə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin;

5.9. 6.17.1-ci və 6.17.2-ci yarımbəndlərin 2-ci abzaslarında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin" sözləri ilə, "Agentliyin" sözü "Nazirliyin" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634 (Cild I); 2024, № 4, maddə 385, № 6 (I kitab), maddə 654, № 8, maddə 943, № 10, maddə 1140, № 12 (II kitab), maddə 1383; 2025, № 6, maddə 541, № 11, maddə 1022, № 12 (I kitab), maddə 1154; 2026, № 2, maddə 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 iyul tarixli 711 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2-ci hissə üzrə:

6.1.1. aşağıdakı məzmunda 2.1.6-2-ci və 2.3.6-2-ci yarımbəndlər əlavə edilsin:

"2.1.6-2. "İcbari tibbi sığorta" altsistemi;";

"2.3.6-2. "İcbari tibbi sığorta" altsistemi vasitəsilə icbari tibbi sığorta sahəsində xidmətlərin elektronlaşdırılması, sənədlər üzrə məlumatların toplanılması və sistemləşdirilməsi;";

6.1.2. 2.7-2-ci bənddə "Tibbi-Sosial Ekspertiza və Reabilitasiya" sözləri "Tibbi Sığorta və Ekspertiza" sözləri ilə əvəz edilsin;

6.2. 4.1.16-1-ci yarımbənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2026-cı il*

# Kraudfandinq haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10 -13-cü və 15-ci bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında səhm və borc əsaslı kraudfandinqin həyata keçirilməsinin hüquqi, təşkilati və iqtisadi əsaslarını, kraudfandinq platforması operatorunun fəaliyyətinə dair tələbləri, habelə onların fəaliyyəti üzərində dövlət tənzimləməsi və nəzarəti məsələlərini tənzimləyir. Bu Qanunun məqsədi iqtisadi fəaliyyət subyektlərinə, xüsusilə də startaplara, mikro, kiçik və orta sahibkarlara onların biznes aktivliyinin artırılması məqsədilə informasiya ehtiyatlarından və sistemlərindən, habelə kapital bazarının imkanlarından istifadə etməklə operativ və davamlı alternativ maliyyələşmə kanallarına əlverişli çıxış imkanlarının yaradılması və maliyyələşmədə iştirak edən investorların hüquqlarının müdafiəsini təmin etməkdir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunun məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **borc əsaslı kraudfandinq** - bu Qanunla müəyyən olunmuş şərtlər daxilində kraudfandinq layihəsinin maliyyələşdirilməsi məqsədilə layihə sahibinin buraxdığı borc investisiya qiymətli kağızının investorlar tərəfindən alınması qarşılığında pul vəsaitlərinin cəlb olunmasını nəzərdə tutan kraudfandinq;

1.1.2. **düşünmə dövrü** - fərdi investor tərəfindən bu Qanunun 16.3-cü maddəsində nəzərdə tutulan müddət ərzində investisiya ilə bağlı təklifinin heç bir səbəb göstərmədən və hər hansı cərimə ödəmədən geri çağırılması müddəti;

1.1.3**. əsas məlumat vərəqəsi** - bu Qanunun 9.3.1-ci maddəsində göstərilən məlumatları əks etdirən və kraudfandinq platformasında açıqlanan məlumatların məcmusu;

1.1.4. **fərdi investor** - peşəkar investor meyarlarına cavab verməyən və investisiyanın riskli olmasını yazılı şəkildə qəbul edən investor;

1.1.5. **idarəetmə funksiyalarını yerinə yetirən şəxslər** - hüquqi şəxsin müşahidə şurasının (direktorlar şurasının) (olduqda) və icra orqanının rəhbəri və üzvləri;

1.1.6. **kraudfandinq** - investorlardan pul vəsaitlərinin cəlb edilməsi məqsədilə hər hansı kraudfandinq layihəsinin kraudfandinq platforması vasitəsilə kütləvi maliyyələşdirilməsi;

1.1.7. **kraudfandinq kampaniyası** - kraudfandinq layihəsinin maliyyələşdirilməsi üçün tələb olunan pul vəsaitlərinin toplanması məqsədilə kraudfandinq platformasının internet informasiya ehtiyatında yerləşdirilən elan;

1.1.8. **kraudfandinq layihəsi** - bu Qanunla müəyyən edilmiş qaydadapul vəsaitlərinin cəlb edilməsi məqsədilə kraudfandinq platformasında yerləşdirilən təklif;

1.1.9. **kraudfandinq müqaviləsi** - kraudfandinq platforması vasitəsilə investorlarla layihə sahibi arasında bağlanılan yazılı müqavilə;

1.1.10. **kraudfandinq platforması(bundan sonra - platforma)** - operator tərəfindən idarə olunan, investorların layihə sahibləri ilə əlaqələndirilməsi yolu ilə kraudfandinqin həyata keçirildiyi və ictimaiyyət üçün açıq olan informasiya sistemi;

1.1.11. **layihə sahibi** - platforma vasitəsiləpul vəsaitlərini cəlb etmək istəyən Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçmiş kommersiya hüquqi şəxsi;

1.1.12. **məcmu kapital** - operatorun davamlı fəaliyyətinin təmin edilməsi məqsədilə bu Qanuna uyğun olaraq müəyyən olunmuş kapital;

1.1.13. **mühüm iştirak payı -** nizamnamə kapitalının 10 (on) və ya daha çox faizini təşkil edən və ya müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblik;

1.1.14. **operator -** bu Qanunun tələblərinə uyğun olaraq platformanı idarə edən hüquqi şəxs;

1.1.15. **peşəkar investor -** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.7-2-ci maddəsi ilə müəyyən edilmiş investorlar;

1.1.16. **səhm əsaslı kraudfandinq** - bu Qanunla müəyyən olunmuş şərtlər daxilində kraudfandinq layihəsinin maliyyələşdirilməsi məqsədilə layihə sahibinin səhmlərinin investorlar tərəfindən alınması qarşılığında pul vəsaitlərinin cəlb edilməsini nəzərdə tutan kraudfandinq;

1.1.17. **vətəndaş qüsursuzluğu -** operatorun və layihə sahibinin benefisiar mülkiyyətçilərinin, idarəetmə funksiyalarını yerinə yetirən şəxslərinin, mühüm iştirak pay sahiblərinin (həmin sahib hüquqi şəxs olduqda onun icra orqanının rəhbərinin (üzvlərinin) qəsdən törədilmiş cinayətə görə məhkumluğunun olmaması, iqtisadi sahədə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan müəyyən müddətə məhrum edilmə barədə məhkəmə qərarının olmaması, operatora münasibətdə, həmçinin həmin şəxslərin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 17.3-cü maddəsinin tələblərinə uyğun olması faktı.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**Maddə 2. Kraudfandinq fəaliyyəti haqqında qanunvericilik**

2.1. Kraudfandinq fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, bu Qanun, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunları, bu sahədə münasibətləri tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktları, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) bunlara uyğun olaraq qəbul etdiyi normativ xarakterli aktları ilə tənzimlənir.

2.2. Bu Qanun dövlətin investisiya siyasətini həyata keçirmək məqsədilə dövlət tərəfindən yaradılmış hüquqi şəxslər və onların təsis etdiyi qurumlara şamil olunmur.

2.3. Ələt azad iqtisadi zonasında kraudfandinqlə bağlı münasibətlər "Ələt Azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

### 2-ci fəsil
### OPERATORUN YARADILMASI, FƏALİYYƏTİNƏ DAİR TƏLƏBLƏR VƏ REYESTRƏ DAXİL EDİLMƏSİ

**Maddə 3. Operatorun yaradılması və fəaliyyətinin təşkili**

3.1. Operator məhdud məsuliyyətli cəmiyyət və səhmdar cəmiyyəti formasında yaradılır.

3.2. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.5-ci maddəsində göstərilən siyahıya daxil olan dövlətlərin (ərazilərin) vətəndaşları və ya həmin dövlətlərdə (ərazilərdə) qeydiyyata alınmış hüquqi şəxslər, habelə "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.1-ci maddəsində göstərilən fiziki şəxslər və qurumlar, siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən ofşor zonalarda qeydiyyata alınmış və ya təsisçiləri, mühüm iştirak payının sahibləri və benefisiar mülkiyyətçiləri belə zonalarda qeydiyyata alınmış şəxslər operatorun təsisçisi (iştirakçısı), mühüm iştirak payının sahibi və benefisiar mülkiyyətçisi ola bilməz.

3.3. Operatorun fəaliyyətinin müstəsna predmeti səhm və borc əsaslı kraudfandinqin həyata keçirildiyi platformanın idarə edilməsidir.

3.4. Operator Mərkəzi Bank tərəfindən aparılan kraudfandinq platformalarını idarə edən operatorların reyestrinə (bundan sonra - reyestr) daxil edildikdən sonra platformanın idarə edilməsi üzrə fəaliyyəti həyata keçirə bilər.

3.5. Operatorun nizamnamə kapitalı və məcmu kapitalı Mərkəzi Bankın müəyyən etdiyi minimum miqdardan az olmamalıdır. Nizamnamə kapitalının formalaşdırılması və məcmu kapitalın hesablanması qaydası, habelə strukturu və tərkibi Mərkəzi Bank tərəfindən müəyyən edilir.

3.6. Operatorun adında "kraudfandinq platformasının operatoru" sözləri olmalıdır.

3.7. Operatorun adında "dövlət", "milli", "mərkəzi", "hökumət", "zəmanətli" və ya "sığortalı" sözlərindən istifadə edilməsinə yol verilmir. Operatorun adı cəlb edilən pul vəsaitlərinin təminatlıolması, habelə investorların məruz qala biləcəyi risklər haqqında yanlış təəssürat yarada biləcək digər sözləri özündə əks etdirməməlidir.

3.8. Operator fəaliyyətinin effektiv idarə olunmasına, o cümlədən vəzifə bölgüsünə, fəaliyyətinin davamlılığına, habelə maraqlar münaqişəsinin qarşısının alınmasına dair daxili siyasət və prosedurları qəbul etməli və onların həyata keçirilməsi üzrə daxili nəzarət mexanizmlərinə malik olmalıdır.

3.9. Operatorun əməliyyat funksiyaları başqa şəxslər tərəfindən həyata keçirilə bilər, bu şərtlə ki, onların fəaliyyəti operatorun daxili nəzarətinin keyfiyyətinə və operatorun bu Qanunla müəyyən edilmiş tələblərə əməl etməsinə Mərkəzi Bankın nəzarət etmək imkanlarına xələl gətirməsin. Operatorun əməliyyat funksiyalarının başqa şəxslər tərəfindən həyata keçirilməsindən asılı olmayaraq həmin funksiyaların həyata keçirilməsinə görə tam məsuliyyəti operator daşıyır.

3.10. Operatorun idarəetmə funksiyalarının yerinə yetirilməsi səlahiyyəti kənar idarəçiyə verilə bilməz.

**Maddə 4. Mühüm iştirak payı**

4.1. Operatorun mühüm iştirak payının sahibi bu Qanunun 4.4-cü maddəsində nəzərdə tutulmuş tələblərə uyğun olmalıdır. Hər hansı şəxs operatorun nizamnamə kapitalında mühüm iştirak payını, o cümlədən mövcud payını mühüm iştirak payına çatdıran əlavə payı, habelə mühüm iştirak payını artıraraq nizamnamə kapitalının 20 (iyirmi), 33 (otuz üç) və ya 50 (əlli) faizinə çatmasına, yaxud bu miqdarı keçməsinə gətirib çıxaran iştirak payını bu Qanunla müəyyən edilmiş qaydada Mərkəzi Bankın razılığı əsasında əldə edə bilər.

4.2. Bu Qanunun 4.1-ci maddəsində qeyd olunan payın əldə edilməsindən əvvəl operator icazə almaq üçün Mərkəzi Banka ərizə təqdim etməlidir.

4.3. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

4.3.1. mühüm iştirak payının sahibi fiziki şəxs olduqda:

4.3.1.1. şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq təsdiq edilmiş surəti;

4.3.1.2. bu Qanunun 4.4.1-ci və 4.4.2-ci maddələri ilə müəyyənləşdirilən şərtlərə uyğunluğu barədə məlumatlar;

4.3.2. mühüm iştirak payının sahibi hüquqi şəxs olduqda:

4.3.2.1. hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının və nizamnaməsinin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq təsdiq edilmiş surəti;

4.3.2.2. hüquqi şəxsin icra orqanının rəhbərinin (üzvlərinin) vətəndaş qüsursuzluğuna dair məlumat;

4.3.3. mühüm iştirak pay sahibi tərəfindən payın əldə edilməsinə yönəldilən vəsaitin mənbəyini təsdiq edən məlumatlar və sənədlər;

4.3.4. bu Qanunun 4.4.2-ci maddəsində nəzərdə tutulan şərtlərə uyğunluğunu təsdiq edən məlumat.

4.4. Mühüm iştirak payının əldə edilməsinə icazənin verilməsi üçün şərtlər aşağıdakılardır:

4.4.1. mühüm iştirak payını əldə edəcək fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin (üzvlərinin) vətəndaş qüsursuzluğu tələbinə cavab verməsi;

4.4.2. mühüm iştirak payını əldə edəcək şəxs barədə cinayət-hüquqi tədbirlərin görülməsi, iflas prosedurunun başlanılması və ya müflis elan olunması faktının olmaması (hüquqi şəxs olduqda onun icra orqanlarının rəhbərlərinin);

4.4.3. mühüm iştirak payının əldə edilməsinə yönəldilən vəsaitin mənbəyinin məlum olması, habelə mühüm iştirak pay sahibinin operatora təsirinin onun etibarlı və prudensial idarə olunması üçün təhlükə törədəcəyinə əsas verən faktların olmaması;

4.4.4. bu Qanunun 3.2-ci maddəsinin tələblərinin pozulması faktının olmaması;

4.4.5. bu Qanunun 8.2-ci maddəsinin tələblərinə uyğun olaraq kraudfandinq kampaniyası başa çatmamış layihənin sahibi və ya benefisiar mülkiyyətçisi olmaması.

4.5. Bu Qanunun 4.3-cü maddəsində göstərilən məlumatlar Mərkəzi Bankın müəyyən etdiyi formada təqdim edilir.

4.6. Ərizəyə və ona əlavə edilmiş sənədlərə təqdim edildiyi tarixdən 60 (altmış) təqvim günü ərzində bu Qanunun 7.2-ci və 7.3-cü maddələri ilə müəyyən edilmiş qaydada baxılır. Həmin müddətdə Mərkəzi Bank ərizəyə dair münasibətini yazılı surətdə bildirmədikdə ərizəyə müsbət baxılmış hesab edilir.

4.7. İcazənin verilməsi və ya verilməsindən imtina haqqında qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü ərzində operatora təqdim edilir və ya elektron üsulla, yaxud sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Mərkəzi Bankın verdiyi icazədə iştirak payının əldə edilməsinin başa çatmalı olduğu maksimum müddət göstərilir.

4.8. Bu Qanunun 4.3-cü maddəsində nəzərdə tutulan sənədlər və məlumatlar tam təqdim edilmədikdə və ya bu Qanunun 4.4-cü maddəsində müəyyənləşdirilən şərtlərə uyğunluq olmadıqda icazənin verilməsindən imtina haqqında əsaslandırılmış qərar qəbul edilir. Operator həmin qərardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

4.9. Mühüm iştirak payının ödənilməsi üçün bu Qanunun 4.7-ci maddəsinə uyğun olaraq nəzərdə tutulmuş son müddət başa çatdığı gündən 5 (beş) iş günü ərzində payın alınması barədə Mərkəzi Banka yazılı məlumat təqdim edilməlidir.

4.10. Mühüm iştirak payını əldə etmək istəyən şəxs payın ödənilməsi üçün müəyyən edilmiş son müddətədək həmin payı almadıqda və ya tam almadıqda Mərkəzi Bank bu Qanunun 4.9-cu maddəsində məlumatlandırma üçün nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra 5 (beş) iş günü ərzində icazəni tam və ya əldə edilməmiş hissəyə münasibətdə ləğv edir və bu barədə şəxsə yazılı bildirişi təqdim edir və ya elektron üsulla, yaxud sifarişli poçt göndərişi vasitəsilə göndərir.

4.11. Hər hansı bir şəxs mühüm iştirak payını əvvəlcədən icazəsi olmadan və ya bu Qanunun 4.7-ci maddəsinə uyğun olaraq nəzərdə tutulmuş son müddət başa çatdıqdan sonra əldə etdikdə, Mərkəzi Bank həmin şəxsin operatordakı payının icazəsiz alınan hissəsinin müəyyən etdiyi tarixədək ləğv edilməsi barədə yazılı göstəriş verir. Həmin şəxsin ləğv olunmalı hissədə səsvermə hüququ operatorun qərarlarının qəbul edilməsində nəzərə alınmır.

4.12. Bu Qanunun 4.3-cü maddəsində nəzərdə tutulan sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

**Maddə 5. İdarəetmə funksiyalarını yerinə yetirən şəxslərə dair tələblər**

5.1. Operatorun idarəetmə funksiyalarını yerinə yetirən şəxsləri aşağıdakı tələblərə cavab verməlidir:

5.1.1. ali təhsilli olmalı;

5.1.2. azı biri Mərkəzi Bank tərəfindən tənzimlənən və nəzarət olunan maliyyə xidmətlərinin göstərildiyi fəaliyyət sahələrində 3 (üç) illik iş təcrübəsinə malik olmalı;

5.1.3. vətəndaş qüsursuzluğuna malik olmalı.

5.2. Bu Qanunun 19.1.2 - 19.1.5-ci maddələrində nəzərdə tutulan əsaslar üzrə operatorun reyestrdən çıxarılması barədə qərarın qəbul edildiyi tarixdən, yaxud operatorun və ya maliyyə bazarlarında fəaliyyət göstərən Mərkəzi Bankın digər nəzarət subyektlərinin maliyyə vəziyyətinin pisləşməsi və prudensial tələbləri pozmaqla əlaqədar onların məcburi ləğv edilməsi, müflis elan edilməsi barədə qərarın qəbul edildiyi tarixdən əvvəlki bir ildən az olmayan müddətdə həmin operatorun və ya nəzarət subyektinin fəaliyyət strategiyasının müəyyən edilməsi və qərarların qəbul edilməsi proseslərində iştirak etmiş idarəetmə funksiyalarını yerinə yetirmiş şəxs müvafiq qərarın qəbul edildiyi tarixdən etibarən 3 (üç) il ərzində operatorun idarəetmə funksiyalarını yerinə yetirən şəxs ola bilməz. Operatorun idarəetmə funksiyalarını yerinə yetirən şəxs, həmçinin 3 (üç) ildən az olmayan müddət ərzində Mərkəzi Bankın tələbi ilə hər hansı digər nəzarət subyektində vəzifəsindən azad edilmiş şəxs (barəsində işə bərpa olunması haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olan şəxslər istisna olmaqla) ola bilməz.

5.3. Operatorun idarəetmə funksiyalarını yerinə yetirən şəxslərbarədə reyestrdə dəyişikliklər edilməsi üçün Mərkəzi Banka ünvanlanan müraciətə həmin şəxslərin bu Qanunun 5.1-ci maddəsinin tələblərinə uyğunluğunu təsdiq edən məlumatlar və sənədlər əlavə edilir.

**Maddə 6. Reyestrə daxil edilməsi üçün müraciət**

6.1. Reyestrə daxil olmaq üçün operator Mərkəzi Banka ərizə ilə müraciət edir.

6.2. Ərizəyə aşağıdakı məlumatlar və sənədlər əlavə edilir:

6.2.1. operatorun nizamnaməsinin və hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın notariat qaydasında və ya"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq təsdiqlənmiş surəti;

6.2.2. ödənilmiş nizamnamə kapitalının məbləğini təsdiq edən sənəd;

6.2.3. hər bir iştirakçı haqqında məlumatlar və sənədlər (fiziki şəxs olduqda - şəxsiyyətini təsdiq edən sənədin məlumatları, daimi yaşayış yerini və məşğuliyyət növünü göstərən məlumatlar və sənədlər, hüquqi şəxs olduqda - adını, ünvanını və kommersiya fəaliyyətinin növünü əks etdirən məlumatlar və sənədlər);

6.2.4. hər bir iştirakçının operatorun nizamnamə kapitalında payı (səhmi) və payın (səhmin) əldə edilməsinə yönəldilən vəsaitin mənbəyi haqqında məlumatlar və sənədlər;

6.2.5. pay sahibi xarici hüquqi təsisatın idarəçisi qismində çıxış edən şəxs olduqda - bunu təsdiq edən sənəd, özünün və digər idarəçilərin (olduğu təqdirdə), xarici hüquqi təsisat təsisçisinin, xarici hüquqi təsisat benefisiarının (benefisiarlar qrupunun), xarici hüquqi təsisat təminatçısının (olduğu təqdirdə), habelə xarici hüquqi təsisat üzərində effektiv nəzarəti həyata keçirən digər şəxsin soyadını, adını, atasının adını (olduğu təqdirdə), doğum tarixini, fərdi identifikasiya nömrəsini və ya şəxsiyyətini təsdiq edən sənədin nömrəsini, vətəndaşlığını, daimi yaşayış yerini (bu şəxslər hüquqi şəxs olduqda onların adını və VÖEN-i) təsdiq edən sənədlərin və xarici hüquqi təsisatın təsis sənədinin normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş surəti, həmin şəxslər "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun məqsədləri üçün siyasi nüfuzlu şəxslər, onların yaxın qohumları və ya yaxın münasibətdə olduqları şəxslər olduqda bu barədə məlumat;

6.2.6. mühüm iştirak payı sahiblərinin bu Qanunun 4.4-cü maddəsinin tələblərinə uyğunluğunu təsdiq edən məlumatlar və sənədlər;

6.2.7. müraciət edənin təşkilati strukturu, idarəetmə funksiyalarını yerinə yetirən şəxslərinin vətəndaş qüsursuzluğuna dair məlumat, o cümlədən həmin şəxslərin bu Qanunun 5.1-ci maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verməsini təsdiq edən sənədlərin notariat qaydasında və ya "İnzibati icraat haqqında"Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq təsdiq edilmiş surəti;

6.2.8. bu Qanunun 3.9-cu maddəsinə uyğun olaraq operatorun başqa şəxslər tərəfindən həyata keçirilən funksiyalarının təsviri (olduqda);

6.2.9. operatorun benefisiar mülkiyyətçiləri və payçıları arasındakı münasibətlər, o cümlədən onların bu Qanunla müəyyən edilmiş vətəndaş qüsursuzluğu haqqında məlumat, benefisiar mülkiyyətçi əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə arayış;

6.2.10. platformadan istifadə qaydası, habelə bu Qanunun 3.8-ci maddəsində nəzərdə tutulan digər daxili sənədlər (siyasətlər, qaydalar və s.);

6.2.11. kraudfandinqdə istifadə olunacaq platformanın texniki və təhlükəsizlik tələblərinə, habelə funksionallığına cavab verməsini təsdiq edən məlumatlar və sənədlər.

6.3. Bu Qanunun 6.2-ci maddəsində göstərilən məlumatlar Mərkəzi Bankın müəyyən etdiyi formada təqdim edilir.

6.4. Bu Qanunun 6.2-ci maddəsində nəzərdə tutulan sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

6.5. Bu Qanunda nəzərdə tutulmuş sənədlər əcnəbilər və xarici hüquqi şəxslər tərəfindən normativ hüquqi aktlarda müəyyən edilmiş qaydadaleqallaşdırılır və ya onlara apostil verilir və həmin sənədlər notariat qaydasında Azərbaycan dilinə tərcümə edilir.

**Maddə 7. Reyestrə daxil edilməsi üçün müraciətə baxılması**

7.1. Reyestrə daxil edilməsi üçün müraciətə təqdim edildiyi tarixdən 90 (doxsan) təqvim günü ərzində baxılır. Həmin müddətdə Mərkəzi Bank müraciətə dair münasibətini yazılı surətdə bildirmədikdə müraciətə müsbət baxılmış hesab edilir.

7.2. Mərkəzi Bank baxılmaq üçün təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar etdikdə (bu Qanunun 6.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla), bu barədə müraciət edənə 15 (on beş) iş günü ərzində həmin çatışmazlıqların aradan qaldırılması barədə yazılı bildiriş təqdim edir.

7.3. Müraciət edən çatışmazlıqları yazılı bildiriş alındığı tarixdən ən geci 15 (on beş) iş günü ərzində aradan qaldırmalıdır. Mərkəzi Bank tərəfindən yazılı bildirişin təqdim edilməsi bu Qanunun 7.1-ci maddəsində müraciətə baxılması üçün müəyyən edilmiş müddətin axımını dayandırır və dayandırılmış müddət müraciətə baxılması müddətinə daxil edilmir. Müraciət edən tərəfindən çatışmazlıqların aradan qaldırılması barədə Mərkəzi Banka yazılı məlumat daxil olduqdan sonra müddətin axımı bərpa olunur.

7.4. Müraciət edən tərəfindən təqdim olunan sənədlərdə və məlumatlarda çatışmazlıqlar olmadıqda istifadə olunacaq platformanın texniki və təhlükəsizlik tələblərinə, habelə funksionallığına uyğunluğunu yoxlamaq üçün Mərkəzi Bankın əməkdaşları tərəfindən platformaya baxış keçirilir. Baxışın vaxtı barədə müraciət edənə 3 (üç) iş günü əvvəlcədən yazılı bildiriş təqdim edilir.

7.5. Operatorun reyestrə daxil edilməsindən imtina üçün bu Qanunun 7.7-ci maddəsi ilə müəyyən edilmiş əsaslar aşkar edilmədikdə Mərkəzi Bank tərəfindən operatorun reyestrə daxil edilməsi barədə qərar qəbul edilir və 2 (iki) iş günü ərzində müraciət edənə dövlət rüsumunun ödənilməsi haqqında yazılı bildiriş təqdim edilir.

7.6. Dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd Mərkəzi Banka təqdim edildikdən sonra Mərkəzi Bank 2 (iki) iş günündən gec olmayaraq müraciət edəni reyestrə daxil edir, müraciət edənə bu barədə yazılı məlumat verir və həmin məlumat Mərkəzi Bankın rəsmi internet informasiya ehtiyatında yerləşdirilməklə ictimaiyyətə açıqlanır. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd 5 (beş) iş günü ərzində təqdim edilmədikdə, operatorun reyestrə daxil edilməsi barədə qərar Mərkəzi Bank tərəfindən ləğv edilir və bu barədə məlumat 2 (iki) iş günü ərzində müraciət edənə təqdim edilir.

7.7. Mərkəzi Bank operatorun reyestrə daxil edilməsindən aşağıdakı hallarda imtina edir:

7.7.1. təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar bu Qanunun 7.3-cü maddəsinə uyğun olaraq aradan qaldırılmadıqda və ya təqdim edilmiş məlumatların və sənədlərin yanlış olması aşkar edildikdə;

7.7.2. müraciət edənin idarəetmə funksiyalarını yerinə yetirən şəxsləri, mühüm iştirak pay sahibləri və ya benefisiar mülkiyyətçiləri bu Qanunda nəzərdə tutulmuş tələblərə cavab vermədikdə;

7.7.3. mühüm iştirak pay sahiblərinin və ya benefisiar mülkiyyətçilərin müraciət edənə təsirinin onun etibarlı və prudensial idarə olunması üçün təhlükə törədəcəyinə əsaslar verən faktlar olduqda və ya müraciət edənin nizamnamə kapitalının mənbəyi məlum olmadıqda;

7.7.4. ödənilmiş nizamnamə kapitalının məbləği operatorlar üçün müəyyən edilmiş minimum miqdardan az olduqda;

7.7.5. bu Qanunun 3.9-cu maddəsinə uyğun olaraq operatorun əməliyyat funksiyalarının başqa şəxslər tərəfindən həyata keçirilməsinin operatorun daxili nəzarətinin keyfiyyətinə və Mərkəzi Bankın nəzarət imkanlarına xələl gətirdiyi müəyyən edildikdə;

7.7.6. təqdim edilmiş digər məlumatlar və sənədlər bu Qanunun tələblərinə uyğun olmadıqda;

7.7.7. platforma bu Qanuna uyğun olaraq müəyyən edilmiş texniki və təhlükəsizlik tələblərinə cavab vermədikdə və ya funksionallığına uyğun olmadıqda.

7.8. Mərkəzi Bank operatorun reyestrə daxil edilməsindən imtina barədə qərar qəbul etdikdə, qərar qəbul edildiyi tarixdən 2 (iki) iş günü ərzində imtina səbəbləri göstərilməklə ərizəçiyə təqdim edilir və ya göndərilir.

7.9. Reyestrə daxil edilməsindən imtina qərarını alan şəxs reyestrə daxil edilməsi üçün təkrar ərizə ilə imtina barədə qərar qəbul edildiyi tarixdən 6 (altı) ay sonra Mərkəzi Banka müraciət edə bilər. Bu halda müraciətə bu Qanunun 7.1-ci maddəsinə uyğun olaraq yeni müraciət kimi baxılır.

7.10. Müraciət edən reyestrə daxil edilməsindən imtina haqqında qərardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

7.11. Mərkəzi Bank təqdim edilən məlumatların və sənədlərin yoxlanılması məqsədilə müstəqil və etibarlı mənbələrdən, habelə dövlət orqanlarından (qurumlarından) məlumat əldə edə bilər. Dövlət orqanları (qurumları) Mərkəzi Bankın sorğu etdiyi məlumatı 7 (yeddi) iş günü ərzində verməlidirlər. Dövlət orqanları (qurumları) sorğu edilən məlumatların dövlət sirri istisna olmaqla, kommersiya sirri, vergi sirri və ya qanunla mühafizə olunan digər konfidensial məlumatlara aid olmasına istinad etməklə həmin məlumatların verilməsindən imtina edə bilməz.

7.12. Bu Qanunun 7.11-ci maddəsi sonradan operatorda mühüm iştirak payı əldə etmək istəyən şəxslərə (hüquqi şəxs olduqda onun icra orqanlarının rəhbərlərinə), idarəetmə funksiyalarını yerinə yetirən və operatorun benefisiar mülkiyyətçisi olan şəxslərə münasibətdə də şamil edilir.

**Maddə 8. Operatorun fəaliyyətində maraqlar münaqişəsinin qarşısının alınması**

8.1. Operator platformanın idarə edilməsi və kraudfandinq kampaniyasının həyata keçirilməsi ilə bağlı fəaliyyətinə maraqlar münaqişəsinin təsir etməsinə yol verməməlidir. Operator mövcud və potensial maraqlar münaqişəsi hallarının aşkar edilməsi, qarşısının alınması, idarə edilməsi və bu cür hallar barədə məlumatın platformada açıqlanması üçün müvafiq siyasət və prosedurların sənədləşdirilməsini və onlara riayət olunmasını təmin etməlidir.

8.2. Operator, onun əməkdaşları, benefisiar mülkiyyətçiləri, nizamnamə kapitalında mühüm iştirak pay sahibləri və operatora aidiyyəti olan digər şəxslər həmin operatorun idarə etdiyi platformada yerləşdirilən layihələrin sahibi ola bilməzlər.

8.3. Operator öz kraudfandinq platforması vasitəsilə həyata keçirilən kraudfandinq kampaniyaları çərçivəsində hər bir kraudfandinq layihəsinin maliyyələşdirilməsi məqsədilə hədəflənmiş məbləğin 20 (iyirmi) faizindən çox olmayan həcmdə investisiya təklifi verə bilər. Belə investisiyalar digər investorlarlaeyni şərtlərlə həyata keçirilməli və bu barədə məlumat operatorun platformasında açıqlanmalıdır.

8.4. Operator investor sifarişlərini müəyyən kraudfandinq layihəsinə (öz platformasında və ya üçüncü tərəf platformasında) təşviq edə bilməz, habelə hər hansı kraudfandinq layihəsinin təşviqinə görə ödəniş, endirim, yaxud qeyri-maddi fayda ödəyə və ya qəbul edə bilməz.

### 3-cü fəsil
### PLATFORMANIN FƏALİYYƏTİ

**Maddə 9. Platformanın fəaliyyətinə dair tələblər**

9.1. Platforma Mərkəzi Bank tərəfindən müəyyən edilən texniki və təhlükəsizlik tələblərinə cavab verməli və funksionallığına uyğun olmalıdır.

9.2. Operator platformada azı aşağıdakı məlumatları açıqlamaqla platforma iştirakçılarını (layihə sahiblərini və investorları) operatorun və platformanın fəaliyyəti barədə məlumatlandırır:

9.2.1. operatorun adı, VÖEN-i və hüquqi ünvanı;

9.2.2. operatorun idarəetmə funksiyalarını yerinə yetirən şəxslərinin soyadı, adı, atasının adı (olduqda), vəzifəsi və əlaqə vasitələri;

9.2.3. operatorun təşkilati strukturu və işçilərinin sayı;

9.2.4. auditor rəyi ilə birlikdə son ilin illik maliyyə hesabatları (bu müddətdən az fəaliyyətdə olduqda faktiki fəaliyyət müddəti üzrə);

9.2.5. kraudfandinq çərçivəsində platforma vasitəsilə topladığı pul vəsaitlərinin ümumi məbləği;

9.2.6. kraudfandinq çərçivəsində platforma vasitəsilə yerləşdirilən kraudfandinq layihələrinin ümumi sayı;

9.2.7. hər təqvim ili ərzində kraudfandinq müqaviləsini imzalayan investorların sayı və fərdi investorlar üzrə toplanan pul vəsaitlərinin orta hesabla məbləği;

9.2.8. platformadan istifadə qaydası;

9.2.9. operatorun xidmət haqqı və platformadan istifadə ilə bağlı digər xərclər (olduqda) barədə məlumat;

9.2.10. kraudfandinq layihəsinin hər hansı dövlət orqanı (qurumu) tərəfindən yoxlanıb təsdiq edilməməsi, habelə investisiya nəticəsində yarana biləcək bütün risklərin, o cümlədən investisiya qoyulmuş vəsaitin tam və ya qismən itirilməsi riskinin investora məxsus olması barədə bəyanat;

9.2.11. kraudfandinq çərçivəsində edilən investisiyaların hər hansı sığorta və təminat mexanizmi ilə əhatə olunmaması, onlar üzrə hər hansı gəlirin əldə edilməməsinin mümkünlüyü barədə xəbərdarlıq;

9.2.12. investorların şikayətlərinə baxılması və kraudfandinq çərçivəsində yaranan mübahisələrin həlli qaydası.

*Ardı 4-cü səh.*

# Kraudfandinq haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 3-cü səh.*

9.3. Operator investorların kraudfandinq layihələri ilə tanış olması üçün platforma vasitəsilə aşağıdakı məlumatları açıqlayır:

9.3.1. əsas məlumat vərəqəsində qeyd edilən azı aşağıdakı məlumatları:

9.3.1.1. kraudfandinq layihəsinin təsviri, o cümlədən məqsədi və əsas xüsusiyyətləri;

9.3.1.2. kraudfandinq kampaniyasının müddəti;

9.3.1.3. hər bir kraudfandinq layihəsinin maliyyələşdirilməsi üçün hədəflənən pul vəsaitlərinin məbləği, kraudfandinq layihəsinin maliyyələşdirilməsinə layihə sahibinin yönəltdiyi öz vəsaitinin miqdarı (olduqda), habelə kraudfandinq kampaniyası ərzində vəsaitlərin toplanmamasının nəticələri barədə məlumat;

9.3.1.4. layihə sahibinin adı, VÖEN-i, hüquqi ünvanı, idarəetmə funksiyalarını həyata keçirən şəxsləri barədə məlumatlar (soyadı, adı, atasının adı (olduqda) və vəzifəsi), habelə mühüm iştirak pay sahibləri barədə məlumatlar (fiziki şəxs olduqda soyadı, adı, atasının adı (olduqda), hüquqi şəxs olduqda adı, VÖEN-i və hüquqi ünvanı);

9.3.1.5. layihə sahibinin əsas məlumat vərəqəsində əks olunan məlumatlar üçün məsuliyyət daşıyan səlahiyyətli şəxslərinin soyadı, adı, atasının adı (olduqda), vəzifəsi və əlaqə vasitələri;

9.3.1.6. əsas məlumat vərəqəsinin hazırlanması, o cümlədən orada əks olunan məlumatların tamlığı və doğruluğuna görə layihə sahibinin məsuliyyət daşıdığına dair bəyanat;

9.3.1.7. layihə sahibinin əsas fəaliyyət istiqamətləri və onun tərəfindən təqdim edilən məhsullar və xidmətlər;

9.3.1.8. kraudfandinq layihəsinin maliyyələşdirilməsi üçün hədəflənən pul vəsaitlərinin məbləği 50 (əlli) min manata qədər olduqda layihə sahibinin son maliyyə ili üzrə (bu müddətdən az fəaliyyətdə olduqda faktiki fəaliyyət müddəti üzrə) əsas maliyyə göstəriciləri (aktiv, öhdəlik, kapital (xalis aktivlər), gəlir, xərc);

9.3.1.9. kraudfandinq layihəsinin maliyyələşdirilməsi üçün hədəflənən pul vəsaitlərinin məbləği 50 (əlli) min manat və ya daha yüksək olduqda, habelə bir təqvim ili ərzində kraudfandinq layihələri üzrə hədəflənən pul vəsaitlərinin məbləğinin ümumi həcmi 2 (iki) yüz min manatdan çox olduqda layihə sahibinin auditor rəyi ilə birlikdə (məcburi audit subyektlərinə münasibətdə) son ilin illik maliyyə hesabatları (bu müddətdən az fəaliyyətdə olduqda faktiki fəaliyyət müddəti üzrə);

9.3.1.10. layihə sahibinin sonuncu maliyyə hesabatının dərc olunduğu mənbəyə istinad (olduqda);

9.3.1.11. kraudfandinq layihəsinin maliyyələşdirilməsi üçün buraxılan səhm və (və ya) istiqrazların sayı, nominal dəyəri, valyutası, gəlirliyin faiz dərəcəsi (müəyyən olunduqda),qiymətli kağızlarla təsbit edilən hüquqlar və məhdudiyyətlər, geri satınalınma şərtləri (olduqda), təminatın təsviri və şərtləri (olduqda);

9.3.1.12. kraudfandinq kampaniyasının müddətindən asılı olaraq bu Qanunun tələblərinə uyğun olaraq fərdi investorlar üçün müəyyən olunan düşünmə dövrü (dövrün son tarixi göstərilməklə);

9.3.1.13. investorların kraudfandinq layihəsi ilə bağlı bütün xərcləri (olduqda);

9.3.2. bu Qanunun 11.1.9-cu maddəsində nəzərdə tutulan məlumatlar.

9.4. Operator platformanın idarə edilməsi üzrə fəaliyyətini platformadan istifadə qaydaları əsasında həyata keçirir.

9.5. Platformadan istifadə qaydası azı aşağıdakıları özündə ehtiva etməlidir:

9.5.1. platformadan istifadə etmək üçün operatorun investorla və layihə sahibi ilə bağladığı müqavilələrin əsas şərtləri;

9.5.2. platformadan istifadə etməklə həyata keçirilən kraudfandinqin növləri;

9.5.3. operator tərəfindən açıqlanan məlumatların dairəsi, habelə həmin məlumatların açıqlanma qaydası;

9.5.4. platforma vasitəsilə mübadilə edilən məlumatlar;

9.5.5. müəyyən edildikdə platformada yerləşdirilən kraudfandinq layihələrinə dair operatorun tələbləri (məsələn, qadağan edilən fəaliyyət sahələri və s.);

9.5.6. Mərkəzi Bank tərəfindən operatorların platformadan istifadə qaydasına dair əlavə tələblər müəyyən edildikdə tələb olunan digər məlumatlar.

9.6. Reyestrə daxil edildikdən sonra operator platformadan istifadə qaydalarına dəyişiklik etdikdə Mərkəzi Bankla razılaşdırmalıdır. Dəyişikliklərlə bağlı operatorun müraciətinə Mərkəzi Bank tərəfindən 15 (on beş) iş günü ərzində baxılır.

9.7. Kraudfandinq platformasından istifadə qaydaları bu Qanunun 9.5-ci maddəsinə və (və ya)normativ hüquqi aktlara uyğun olmadıqda Mərkəzi Bank dəyişikliklərin edilməsinə razılıq verməkdən imtina edir və 2 (iki) iş günü ərzində bu barədə operatora yazılı bildiriş təqdim edir.

9.8. Bu Qanunun 10.1.5-ci maddəsində göstərilən məlumatlar və sənədlər tam təqdim olunmadıqda və ya yanlış olduqda, həmin maddədə göstərilən şəxslər vətəndaş qüsursuzluğu tələblərinə cavab vermədikdə,layihə sahibinin vergilər və digər məcburi ödənişlərlə bağlı borcu olduqda, layihə sahibinin özü, habelə onun mühüm iştirak pay sahibləri və benefisiar mülkiyyətçiləri barəsində cinayət-hüquqi tədbirlərin görülməsi, layihə sahibinin barəsində iflas prosedurunun başlanılması və ya müflis elan olunması faktları aşkar edildikdə, eləcə də təqdim edilən kraudfandinq layihəsi platformadan istifadə qaydalarında müəyyən edilən tələblərə uyğun olmadıqda operator səbəblərini göstərməklə kraudfandinq layihəsinin platformada yerləşdirilməsindən imtina edir.

9.9. Maliyyə bazarlarını tənzimləyən qanunlara əsasən Mərkəzi Bankın nəzarət etdiyi subyektlər, habelə lombardlar, faktorinq və maliyyə icarəsi xidmətləri göstərən şəxslər platformada kraudfandinq layihəsi yerləşdirə bilməzlər.

### 4-cü fəsil
### LAYİHƏ SAHİBİNİN VƏ OPERATORUN VƏZİFƏLƏRİ, İNVESTORLAR QARŞISINDA MƏSULİYYƏT

**Maddə 10. Layihə sahibinin vəzifələri və məsuliyyəti**

10.1. Layihə sahibinin vəzifələri aşağıdakılardır:

10.1.1. kraudfandinq layihəsinin maliyyələşdirilməsi üçün hədəflədiyi pul vəsaitinin maksimum məbləği Mərkəzi Bank tərəfindən müəyyən edilən həddən artıq olmamasını təmin etməlidir;

10.1.2. eyni kraudfandinq layihəsini birdən çox platformada yerləşdirməməlidir;

10.1.3. platformada yerləşdirilməsi nəzərdə tutulan bütün məlumatların tamlığını və doğruluğunu təmin etməlidir;

10.1.4. aşağıdakı hallarda dərhal operatoru məlumatlandırmalıdır:

10.1.4.1. əsas məlumat vərəqəsində göstərilən məlumatlarda hər hansı dəyişiklik olduqda;

10.1.4.2. kraudfandinq layihəsi geri çağırıldıqda;

10.1.5. tərtib etdiyi və bu Qanunun 9.3-cü maddəsində göstərilən məlumatları əks etdirən əsas məlumat vərəqəsi ilə birlikdə azı aşağıdakı məlumatları və sənədləri operatora təqdim etməlidir:

10.1.5.1. idarəetmə funksiyalarını yerinə yetirən şəxslərinin, mühüm iştirak pay sahiblərinin (hüquqi şəxs olduqda icra orqanının rəhbərinin) və benefisiar mülkiyyətçilərinin vətəndaş qüsursuzluğuna dair normativ hüquqi aktlara uyğun olaraq əldə etdiyi arayış (arayışlar);

10.1.5.2. vergilər və digər məcburi ödənişlərlə bağlı borcunun olmamasına dair məlumat;

10.1.5.3. özü, habelə onun mühüm iştirak pay sahibləri və benefisiar mülkiyyətçiləri barəsində cinayət-hüquqi tədbirlərin görülməməsi, layihə sahibi barəsində iflas prosedurunun başlanılması faktının olmaması və ya müflis elan olunmaması barədə məlumat;

10.1.5.4. bu Qanunun 10.2-ci maddəsinə uyğun olaraq platformada yerləşdirilməsi üçün müraciət edilən kraudfandinq layihəsinin digər platformada yerləşdirilməməsi və ya yerləşdirilməsi üçün müraciət edilməməsi barədə məlumat;

10.1.5.5. kraudfandinq layihəsi çərçivəsində yerləşdirilən səhmlərin və (və ya) istiqrazların buraxılışının normativ hüquqi aktlara uyğun olaraq dövlət qeydiyyatına alınmasını təsdiq edən sənəd.

10.1.6. bu Qanunun 10.1.5.1 - 10.1.5.3-cü maddələrində göstərilən faktlar müvafiq məlumatlar operatora təqdim edildikdən sonra da baş verdikdə bu barədə məlumatı dərhal operatora təqdim etməlidir.

10.2. Layihə sahibi əsas məlumat vərəqəsində göstərilən məlumatların düzgünlüyünə, habelə kraudfandinq layihəsinin həyata keçirilməsi ilə bağlı səhm və istiqrazların emitenti qismində normativ hüquqi aktlarla müəyyən edilmiş vəzifə və öhdəliklərin yerinə yetirilməsinə görə investorlar qarşısında cavabdehdir.

**Maddə 11. Operatorun vəzifələri və məsuliyyəti**

11.1. Operatorun vəzifələri aşağıdakılardır:

11.1.1. platformanın etibarlı, təhlükəsiz və davamlı fəaliyyətini təmin etməlidir;

11.1.2. kraudfandinq çərçivəsində investorların, həmçinin layihə sahiblərinin adından və ya onların xeyrinə aparılan əməliyyatlarla bağlı sui-istifadə hallarına yol verməməlidir;

11.1.3. kraudfandinq çərçivəsində investorlara və layihə sahiblərinə platformanın idarə edilməsindən başqa, hər hansı formada xidmət, o cümlədən məsləhət xidməti göstərməməlidir;

11.1.4. kraudfandinq çərçivəsində bu Qanunun 10.1.1-ci və 13-cü maddələrinə uyğun olaraq Mərkəzi Bank tərəfindən müəyyən edilmiş hədlərdən artıq miqdarda pul vəsaitlərini qəbul etməməli və investisiya limitlərinə nəzarət etməlidir;

11.1.5. platformada yaranmış texniki nasazlıqlar barədə (nasazlığın səbəblərini qeyd etməklə) ən geci 1 (bir) iş günü ərzində investorları, layihə sahibini və Mərkəzi Bankı yazılı qaydada məlumatlandırmalıdır;

11.1.6. kraudfandinq çərçivəsində bu Qanunun, platformadan istifadə qaydalarının və müvafiq müqavilə şərtlərinin pozulması halları aşkar edildikdə layihə sahibindən həmin pozuntuların aradan qaldırılmasını tələb etməli, pozuntular aradan qaldırılanadək kraudfandinq kampaniyasını dərhal dayandırmalı və ən geci 1 (bir) iş günü ərzində bu barədə layihə sahibinə və investorlara məlumat verməlidir;

11.1.7. kraudfandinq kampaniyasının keçirildiyi müddətdə bu Qanunun10.1.5.1 - 10.1.5.4-cü maddələrində göstərilən faktları aşkar etdikdə, dərhal kraudfandinq kampaniyasını ləğv etməli və ən geci 1 (bir) iş günü ərzində bu barədə layihə sahibinə və investorlara məlumat verməlidir;

11.1.8. qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla investorlara aid məlumatların məxfiliyini qorumalıdır;

11.1.9. əsas məlumat vərəqəsində, həmçinin kraudfandinq layihəsində hər hansı dəyişikliyin olması barədə məlumatı aldıqda dərhal bu məlumatı platformada açıqlamalıdır;

11.1.10. investorlarla müqavilə bağlanarkən fərdi investorlara kraudfandinq kampaniyasına müraciətini geri götürmə müddəti və qaydaları haqqında dəqiq və aydın məlumat verməlidir;

11.1.11. kraudfandinq çərçivəsində investorlar və layihə sahibləri ilə yazışmalarınplatforma vasitəsilə aparılmasını təmin etməlidir;

11.1.12. platformanın idarə edilməsi ilə əlaqədar məlumatların və sənədlərin, o cümlədən platforma iştirakçıları ilə yazışmaların, müqavilələrin və digər əlaqəli sənədlərin kraudfandinq kampaniyası müddətinin başa çatdığı vaxtdan azı 5 (beş) il ərzində saxlanılmasını təmin etməlidir.

11.2. Operator bu Qanunun 9-cu maddəsində göstərilən məlumatların platformada tam və aydın şəkildə yerləşdirilməsinə, operatorun fəaliyyəti ilə bağlı yaranmış hər hansı zərərə, itkiyə (o cümlədən, platformada məlumat itkisinə görə), məlumatların qanunsuz yayılmasına, verilməsinə və ya digər qanunsuz işlənməsinə görə investorlar qarşısında cavabdehdir.

11.3. Operator "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq investor və layihə sahibinə münasibətdə müştəri uyğunluğu tədbirləri tətbiq etməli, müvafiq məlumat və sənədlərin əldə edilməsini və saxlanılmasını təmin etməlidir.

**Maddə 12. İnvestorların pul vəsaitlərinin idarə edilməsi**

12.1. Operator kraudfandinq layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar investorlardan toplanan pul vəsaitlərinə dair aşağıdakı tələblərə əməl etməlidir:

12.1.1. kraudfandinq kampaniyası başlandığı vaxtdan investisiya ilə bağlı investorlardan daxil olan bütün təkliflərin və toplanan pul vəsaitlərinin hər bir kraudfandinq kampaniyası üzrə ayrıca uçotunu aparır (təkliflərin və vəsaitlərin daxilolma vaxtı qeyd edilməklə);

12.1.2. investorlardan toplanan pul vəsaitlərinin operatorun öz aktivlərindən ayrı saxlanılmasını təmin edir;

12.1.3. bu Qanunun 17.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla, qiymətli kağızların yerləşdirilməsi başa çatdıqdan sonra toplanan pul vəsaitlərinin layihə sahibinə köçürülməsini təmin edir.

12.2. Aşağıdakı hadisələrin baş verdiyi gündən sonrakı 5 (beş) iş günü ərzində operator investorların pul vəsaitlərini tam həcmdə geri qaytarmalıdır:

12.2.1.bu Qanunun 16.6-cı maddəsi nəzərə alınmaqla, kampaniya müddətinin sonunadək maliyyələşmə üçün hədəflənən pul vəsaitləri toplanmadıqda;

12.2.2. layihə sahibi tərəfindən layihə geri çağırıldıqda və ya təxirə salındıqda (bu Qanunun 16.10-cu maddəsində göstərilən halda);

12.2.3. kampaniya müddəti ərzində layihə sahibi tərəfindən kraudfandinq layihəsi ilə bağlı məlumatlarda edilən dəyişikliklə bağlı investor həmin dəyişikliklərə razılığının olmaması səbəbilə vəsaitlərin geri qaytarılması üçün müraciət etdikdə;

12.2.4. davam edən kampaniya müddəti çərçivəsində operator bu Qanuna uyğun olaraq reyestrdən çıxarıldıqda və bu Qanunun 19.3-cü maddəsinə uyğun olaraq fəaliyyətini dayandırdıqda;

12.2.5. eyni kraudfandinq layihəsi üzrə səhm və borc əsaslı kraudfandinq kampaniyası çərçivəsində hədəflənən pul vəsaitləri tam toplanmadığı halda, həmin kraudfandinq layihəsi üzrə digər kraudfandinq kampaniyası da ləğv edildikdə;

12.2.6. kraudfandinq kampaniyası dayandırıldıqda və investorun vəsaitlərin geri qaytarılması ilə bağlı müraciəti olduqda;

12.2.7. kraudfandinq kampaniyası ləğv edildikdə.

12.3. İnvestorlardan toplanan və bu Qanunun 16.2-ci maddəsinə uyğun olaraq saxlanılan pul vəsaitlərindən operatorun və üçüncü şəxslərin hər hansı marağı üçün istifadə edilə bilməz, habelə həmin pul vəsaitlərinə operatorun və üçüncü tərəflərin öhdəlikləri üzrə tələb yönəldilə və həbs qoyula bilməz.

### 5-ci fəsil
### SƏHM VƏ BORC ƏSASLI KRAUDFANDİNQ

**Maddə 13. İnvestisiya limitləri**

13.1. Fərdi investor tərəfindən bir kraudfandinq layihəsi və bir platforma üzrə qoyula bilən investisiyanın maksimum məbləğini Mərkəzi Bank müəyyən edir.

13.2. Mərkəzi Bank kraudfandinq layihələrinin maliyyələşdirilməsi üzrə hədəflənən məbləğlərin peşəkar investorlar tərəfindən təmin edilməsinin minimum həddini müəyyən edir.

**Maddə 14. Səhm əsaslı kraudfandinq**

14.1. Səhm əsaslı kraudfandinq üzrə layihə sahibi qismində yalnız səhmdar cəmiyyətləri çıxış edə bilər.

14.2. Layihə sahibi platformada səhm əsaslı kraudfandinq üzrə yalnız əlavə səhmlər buraxmaqla nizamnamə kapitalını artıra bilər.

14.3. Layihə sahibi son 12 (on iki) ay ərzində səhm əsaslı kraudfandinq üzrə maksimum2 (iki) kraudfandinq layihəsini maliyyələşdirə bilər.

**Maddə 15. Borc əsaslı kraudfandinq**

15.1. Borc əsaslı kraudfandinq yalnız istiqraz buraxılışı vasitəsilə həyata keçirilir.

15.2. İstiqrazların tədavül müddəti 5 (beş) ildən çox ola bilməz.

15.3. Layihə sahibi son 12 (on iki) ay ərzində borc əsaslı kraudfandinq üzrə maksimum iki kraudfandinq layihəsini maliyyələşdirə bilər.

**Maddə 16. Kraudfandinq kampaniyası**

16.1. Kraudfandinq kampaniyası çərçivəsində səhmlər və istiqrazlar kütləvi təklif üsulu ilə yerləşdirilir.

16.2. Kraudfandinq kampaniyası əsas məlumat vərəqəsinin platformada dərc edildiyi gündən başlayır və əsas məlumat vərəqəsində göstərilən müddətdən, lakin istənilən halda 90 (doxsan) gündən çox olmayaraq davam edir. Kampaniya müddətində investorlar kraudfandinq layihəsinə investisiya etmək üçün platformaya müraciət edə və bu Qanunun 16.3-cü maddəsi nəzərə alınmaqla qiymətli kağızların dəyərini ödəyə bilərlər. Qiymətli kağızların dəyəri yalnız nağdsız qaydada operatorun milli depozit mərkəzində açdığı pul hesabına və ya onun üzvü olan banklarda açdığı müvəqqəti cari hesaba köçürülür.

16.3. Fərdi investor investisiya təklifini verdiyi vaxtdan dərhal platforma vasitəsilədüşünmə dövrünün başlanması və bitmə tarixi barədə məlumatlandırılır. Düşünmə dövrü investisiya təklifinin verildiyi günün növbəti günündən başlayaraq 7 (yeddi) təqvim gününü əhatə edir. Düşünmə dövründə fərdi investorlardan səhm və ya istiqrazların alınması üçün pul vəsaiti toplanıla bilməz.

16.4. Əgər kraudfandinq layihəsi üzrə hədəflənən məbləğ kraudfandinq kampaniyasının müddəti başa çatanadək toplanmışdırsa, kampaniya vaxtından qabaq tamamlanır, bu şərtlə ki, investisiya təklifini verən fərdi investorlar üçün düşünmə dövrü başa çatmış olsun.

16.5. Kraudfandinq kampaniyası başa çatmadan eyni layihə sahibi platforma vasitəsilə yeni kraudfandinq layihəsi ilə əlaqədar kraudfandinq kampaniyasına başlaya bilməz.

16.6. Bir kraudfandinq layihəsi üzrə eyni vaxtda səhm və borc əsaslı kraudfandinq kampaniyası aparıla bilər, bu şərtlə ki, hədəflənən pul vəsaitlərinin məbləği müvafiq kraudfandinq kampaniyalarından birində Mərkəzi Bankın müəyyən etdiyi həddə toplanmadığı halda digər kampaniya da ləğv edilsin.

16.7. Platforma vasitəsilə eyni layihə üzrə səhm və (və ya) borc əsaslı kraudfandinq kampaniyası mövcud olduqda, müvafiq olaraq yeni səhm və (və ya) borc əsaslı kraudfandinq kampaniyasına başlanıla bilməz.

16.8. Operator layihə sahibinin müraciəti əsasında kraudfandinq kampaniyasını 1 (bir) aydan çox olmayan müddətə təxirə sala bilər. Bu zaman bu Qanunla kraudfandinq kampaniyası üçün nəzərdə tutulmuş müddətin axımı dayanır. Kraudfandinq kampaniyasının təxirə salınmasına səbəb olan şərait aradan qalxdıqdan sonra layihə sahibinin operatora etdiyi müraciət əsasında kraudfandinq kampaniyası bərpa edilir və dayandırılmış kampaniya müddətinin axımı davam edir. Kraudfandinq kampaniyası təxirə salındığı təqdirdə pul vəsaitlərini geri almaq istəyən investorlara həmin vəsaitlərin geri qaytarılması bu Qanunun 12.2-ci maddəsinə uyğun olaraq həyata keçirilir;

16.9. Bu Qanunun 11.1.6-cı maddəsinə uyğun olaraq kraudfandinq kampaniyası dayandırıldıqda layihə sahibi 10 (on) iş günü ərzində dayandırılmaya səbəb olan halları aradan qaldırmalıdır. Həmin hallar aradan qalxdıqda layihə sahibi sonrakı 3 (üç) iş günü ərzində kraudfandinq kampaniyasının bərpa edilməsi üçün operatora müraciət edir. Operator tərəfindən bu müraciətə 5 (beş) iş günü ərzində baxılır və kraudfandinq kampaniyasının dayandırılmasına səbəb olan halların aradan qaldırıldığı müəyyənedildikdə kraudfandinq kampaniyası platformada bərpa edilir. Operator tərəfindən kraudfandinq kampaniyasının dayandırılmasına səbəb olan halların aradan qaldırılmadığı müəyyən edildikdə, kraudfandinq kampaniyası ləğv edilir və bu barədə layihə sahibinə və investorlara 3 (üç) iş günü ərzində məlumat verilir.

16.10. Layihə sahibi tərəfindən kraudfandinq kampaniyası geri çağırıldıqda investorlardan toplanan pul vəsaitlərinin geri qaytarılması bu Qanunun 12.2-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

16.11. Kraudfandinq kampaniyası çərçivəsində hədəflənən məbləğin toplanıb-toplanmamasından asılı olmayaraq operator kampaniyanın nəticələri barədə məlumatı kraudfandinq kampaniyası müddətinin bitməsindən sonrakı iş günündən gec olmayaraq platformada yerləşdirməlidir.

**Maddə 17. Qiymətli kağızların yerləşdirilməsi**

17.1. Kraudfandinq kampaniyası başa çatdıqdan sonra 3 (üç) iş günü ərzində operator tərəfindən qiymətli kağızların yerləşdirilməsinə başlanmalıdır. Qiymətli kağızların yerləşdirilməsi müddəti başlanma tarixindən etibarən 3 (üç) iş günündən çox olmamalıdır.

17.2. Qiymətli kağızların yerləşdirilməsi "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.28-ci maddəsi ilə müəyyən edilmiş ödənişə qarşı çatdırılma prinsipi əsasında həyata keçirilir.

17.3. Qiymətli kağızların mülkiyyətçiləri depozitar sistemində depo hesabına malik olmalıdır. Kraudfandinq çərçivəsində depo hesabı milli depozit mərkəzinin üzvü olan operator və ya bu əməliyyat funksiyasını həyata keçirən milli depozit mərkəzinin digər üzvü tərəfindən açılır.

17.4. Müvafiq qiymətli kağızların yerləşdirilməsi başa çatdıqdan və normativ hüquqi aktlara uyğun olaraq qiymətli kağızların (istiqrazlar istisna olmaqla) emissiyasının və kütləvi təklifinin yekunları barədə təsdiq edilmiş hesabat layihə sahibi tərəfindən operatora təqdim edildikdən sonra operator 1 (bir) iş günü ərzində bu Qanunun 16.2-ci maddəsinə uyğun olaraq topladığı pul vəsaitini layihə sahibinin hesabına köçürür.

17.5. Səhmlərin və istiqrazların buraxılması, yerləşdirilməsi, səhmlərin emissiyasının və kütləvi təklifinin yekunları haqqında hesabatın təqdim və təsdiq edilməsi, hesabatlarda olan məlumatların açıqlanması, səhmlərin və istiqrazların tədavülü və bu qiymətli kağızlarla digər əməliyyatların həyata keçirilməsi ilə bağlı məsələlər bu Qanunla ayrı qayda nəzərdə tutulmadığı halda qiymətli kağızlar bazarı haqqında qanunvericiliklə tənzimlənir.

### 6-cı fəsil
### KRAUDFANDİNQ SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ NƏZARƏTİ

**Maddə 18. Kraudfandinq sahəsində dövlət tənzimlənməsi və nəzarətin həyata keçirilməsi**

18.1. Azərbaycan Respublikasında operatorların fəaliyyətinin tənzimlənməsi və onların fəaliyyətinə nəzarət Mərkəzi Bank tərəfindən həyata keçirilir.

18.2. Mərkəzi Bank kraudfandinq sahəsində tənzimləmə və nəzarət sahəsindəaşağıdakı səlahiyyətlərə malikdir:

18.2.1. operatorların reyestrini aparır, operatorları reyestrə daxil edir və reyestrdən çıxarır;

18.2.2. operatorların fəaliyyətinin tənzimlənməsi üzrə bu Qanuna uyğun olaraq normativ xarakterli aktları qəbul edir;

18.2.3. operatorun fəaliyyəti ilə bağlı istənilən sənədləri, məlumatları, o cümlədən daxili qaydaları əldə edir və onlara dair idarəetmə funksiyasını həyata keçirən şəxslərdən, əməkdaşlardan, habelə operatorda audit yoxlamasını həyata keçirən və ya həyata keçirmiş auditorlardan məlumat alır;

18.2.4. operatorda "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlamalar aparır;

18.2.5. operatorun fəaliyyətində pozuntuların və ya pozuntulara səbəb ola biləcək halların müəyyən müddətdə aradan qaldırılması barədə icrası məcburi olan göstəriş verir;

18.2.6. platformanın idarə edilməsinə dair qaydalarda dəyişiklik edilməsini operatordan tələb edir;

18.2.7. operatorun fəaliyyətində pozuntuların və ya pozuntulara səbəb ola biləcək halların xüsusiyyətindən asılı olaraq həmin hallar aradan qaldırılanadək platformanın fəaliyyətini dayandırır və (və ya) idarəetmə funksiyasını həyata keçirən şəxslərin vəzifədən kənarlaşdırılması və ya vəzifədən azad edilməsi barədə icrası məcburi olan göstəriş verir;

18.2.8. operator tərəfindən investorların və layihə sahiblərinin şikayətlərinə baxılmasına dair tələbləri müəyyən edir və operatorun fəaliyyəti ilə bağlı daxil olan şikayətlərə baxır;

18.2.9. bu Qanunda və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda maliyyə bazarlarının tənzimlənməsi və nəzarəti sahəsində nəzərdə tutulan digər səlahiyyətləri həyata keçirir.

18.3. Operatorun nizamnamə kapitalının və məcmu kapitalın minimum miqdarına aid tələblərdə dəyişikliklər barədə Mərkəzi Bankın qərarı fəaliyyətdə olan operatorlara münasibətdə 6 (altı) aydan tez olmayaraq tətbiq edilir.

18.4. Operator platformanın fəaliyyəti barədə hesabatları Mərkəzi Banka təqdim edir. Hesabatların (maliyyə hesabatları istisna olmaqla) forması, məzmunu və təqdim edilməsi qaydası Mərkəzi Bank tərəfindən müəyyən edilir.

18.5. Operator illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 12.1-ci maddəsinə uyğun olaraq müəyyən olunmuş müddətdə Mərkəzi Banka təqdim etməlidir.

18.6. Operator illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il müstəqil auditor cəlb etməlidir. Yoxlamanı aparan kənar auditor kraudfandinq sahəsində aşkar etdiyi qanun pozuntuları və çatışmazlıqlar haqqında Mərkəzi Banka yoxlama müddətində yazılı məlumat verir.

18.7. Mərkəzi Bankın tənzimləmə və nəzarət funksiyalarının icrası ilə əlaqədar qəbul etdiyi qərarlardan məhkəməyə şikayət verilə bilər. Şikayətin verilməsi həmin qərarın icrasını dayandırmır.

18.8. Bu Qanunun məqsədləri üçün müvafiq şəxslərin məhkumluğu Mərkəzi Bankın sorğusu ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi arayış əsasında müəyyən edilir. Həmin şəxslər əcnəbi olduqda, cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə rezidenti olduğu ölkənin aidiyyəti dövlət orqanlarından əldə edilmiş arayış təqdim edilir.

**Maddə 19. Operatorun reyestrdən çıxarılması**

19.1. Mərkəzi Bank aşağıdakı hallarda operatoru reyestrdən çıxarır:

19.1.1. operator müraciət etdikdə;

19.1.2. reyestrə daxil edilməsi üçün təqdim edilmiş sənədlərdə həqiqətə uyğun olmayan və ya təhrif olunmuş məlumatlar sonradan aşkar edildikdə;

19.1.3. Mərkəzi Banka bilərəkdən yanlış hesabat və (və ya) məlumat təqdim edildikdə və ya ardıcıl olaraq sonuncu iki hesabat tarixinə hesabat təqdim edilmədikdə;

19.1.4. operator nəzarət tədbirləri çərçivəsində Mərkəzi Bankın verdiyi icrası məcburi olan göstərişlərə əməl etmədikdə;

19.1.5. operatorun bu Qanunla nəzərdə tutulmayan fəaliyyətlə məşğul olması müəyyən edildikdə;

19.1.6. reyestrə daxil edildiyi gündən 12 (on iki) ay ərzində operator fəaliyyətə başlamadıqda və ya fəaliyyət dövrü ərzində ardıcıl olaraq 2 (iki) il ərzində operator fəaliyyətini göstərmədiyi müəyyən edildikdə;

19.1.7. mühüm iştirak pay sahiblərinin və ya benefisiar mülkiyyətçilərin operatora təsirinin onun etibarlı və prudensial idarə olunması üçün təhlükə törədəcəyinə əsaslar verən faktlar olduqda;

19.1.8. operator ləğv edildikdə və ya müflis elan edildikdə;

19.1.9. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinin pozulmasına görə operatora 1 (bir) il ərzində 2 (iki) dəfədən artıq inzibati tənbeh tətbiq edildikdə.

19.2. Mərkəzi Bank operatorun reyestrdən çıxarılması qərarı barədə məlumatı həmin qərar qəbul edildiyi tarixdən sonrakı iş günündən gec olmayaraq öz rəsmi internet saytında yerləşdirməli və operatora təqdim etməlidir.

19.3. Operatora reyestrdən çıxarılması barədə qərar təqdim edildiyi gündən operator qərarda göstərildiyi tarixdən platformanın idarə edilməsi üzrə fəaliyyətini dayandırmalı və dərhal investorlara və layihə sahiblərinə bu barədə məlumat verməlidir.

19.4. Reyestrdən çıxarılması haqqında Mərkəzi Bankın qərarından inzibati qaydada və məhkəməyə şikayət verilə bilər. Şikayətin verilməsi Mərkəzi Bankın qərarının icrasını dayandırmır.

19.5. Reyestrdən çıxarılmış operator reyestrdən çıxarılması barədə qərarı aldığı tarixdən 2 (iki) ay ərzində öz adında müvafiq dəyişiklik etməli və həmin dəyişikliyi dövlət qeydiyyatına aldırmalıdır.

19.6. Bu Qanunun 19.5-ci maddəsində nəzərdə tutulmuş tələbə riayət edilmədikdə Mərkəzi Bank məhkəmə qaydasında hüquqi şəxsin adında müvafiq dəyişikliyin edilməsi üçün tədbirlər görür.

19.7. Bu Qanunun 19.1.1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, reyestrdən çıxarılmış hüquqi şəxs müvafiq qərarın qəbul edildiyi tarixdən 1 (bir) il ərzində operatorların reyestrinə yenidən daxil edilmək üçün müraciət edə bilməz.

**Maddə 20. Reyestr**

20.1. Mərkəzi Bank operatorların ictimaiyyət üçün açıq olan reyestrini tərtib edir. Reyestrə operatorun adı, hüquqi ünvanı, idarəetmə funksiyalarını yerinə yetirən şəxslərinin adları, reyestrə daxil edilmə nömrəsi və tarixi, platformanın fəaliyyətinin dayandırılması, habelə reyestrdən çıxarılmış operatorlar barədə məlumatlar daxil edilir.

20.2. Operator reyestrə daxil edilmiş məlumatlarda dəyişiklik baş verdiyi tarixdən 5 (beş) iş günü ərzində Mərkəzi Banka yazılı məlumat verməlidir. Məlumatda baş vermiş dəyişiklik qeyd olunmalı və həmin dəyişikliyi təsdiq edən sənədlər təqdim edilməlidir. Təqdim edilən sənədlərdə çatışmazlıqlar olmadıqda Mərkəzi Bank 2 (iki) iş günü ərzində reyestrdə müvafiq dəyişikliklər edir, çatışmazlıqlar aşkar etdikdə isə bu barədə 2 (iki) iş günü ərzində müraciət edənə yazılı məlumat verir. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra həmin dəyişikliklər 2 (iki) iş günü ərzində reyestrə daxil edilir.

### 7-ci fəsil
### YEKUN MÜDDƏALAR

**Maddə 21. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər qanunda nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 22. Operatorun yenidən təşkili və ləğvi**

Operatorun yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 23. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc olunduğu gündən 6 (altı) ay sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 15-ci bəndlərini rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626, № 12 (I kitab), maddələr 1118, 1129; 2026, № 1, maddələr 8, 13, 20; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 18.59-cu maddəsi ləğv edilsin.

**Maddə 2.** "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1593 (Cild I); 2025, № 2, maddə 101, № 4 (I kitab), maddə 318) 4.2-ci maddəsinə ikinci halda "və" sözündən sonra "yeraltı" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Kraudfandinq haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 450-VIIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Kraudfandinq haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 450-VIIQ nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Kraudfandinq haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində və 18.8-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 18.8-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının "Kraudfandinq haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 450-VIIQ nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanunun 3.2-ci maddəsinə uyğun olaraq, ofşor zonaların siyahısını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

3.1. aşağıdakı normativ xarakterli aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. "Kraudfandinq haqqında" Azərbaycan Respublikası Qanununun 3.5-ci maddəsinə uyğun olaraq, operatorun nizamnamə kapitalı və məcmu kapitalının minimum miqdarını, nizamnamə kapitalının formalaşdırılması və məcmu kapitalın hesablanması qaydasını, habelə strukturu və tərkibini;

3.1.2. həmin Qanunun 4.5-ci maddəsinə uyğun olaraq, mühüm iştirak payının əldə edilməsi üçün tələb olunan məlumatların təqdim edilməsi formasını;

3.1.3. həmin Qanunun 6.3-cü maddəsinə uyğun olaraq, operatorun reyestrə daxil edilməsi üçün tələb olunan məlumatların təqdim edilməsi formasını;

3.1.4. həmin Qanunun 9.1-ci maddəsinə uyğun olaraq, kraudfandinq platformasına dair texniki, təhlükəsizlik və funksionallıq tələblərini;

3.1.5. həmin Qanunun 10.1.1-ci, 13.1-ci, 13.2-ci və 16.6-cı maddələrinə uyğun olaraq, kraudfandinq layihəsinin maliyyələşdirilməsi üçün hədəflənən pul vəsaitinin, fərdi investor tərəfindən bir kraudfandinq layihəsi və bir platforma üzrə qoyula bilən investisiyanın maksimum məbləğini, habelə kraudfandinq layihələrinin maliyyələşdirilməsi üzrə hədəflənən məbləğlərin peşəkar investorlar tərəfindən təmin edilməsinin minimum həddini;

3.1.6. həmin Qanunun 18.2.8-ci maddəsinə uyğun olaraq, operator tərəfindən investorların və layihə sahiblərinin şikayətlərinə baxılmasına dair tələbləri;

3.1.7. həmin Qanunun 18.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, maliyyə hesabatları istisna olmaqla, operator tərəfindən təqdim edilən hesabatların formasını, məzmununu və təqdim edilməsi qaydasını;

3.2. həmin Qanundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Bu Fərmanın 1-ci hissəsi "Kraudfandinq haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 450-VIIQ nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2026-cı il*

# "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 364-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 235** **Bakı şəhəri, 24 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 364-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 iyul tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 633 (Cild I); 2024, № 9, maddə 1083) ilə təsdiq edilmiş "Filmlərin yayımı və nümayişi Qaydaları"nın 1-ci hissəsində "müştərək" sözü "birgə istehsal edilən" sözləri ilə əvəz edilsin.

2. "Filmlərin istehsalı üçün çəkilmiş xərclərin qismən geri ödənilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 iyul tarixli 196 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 7, maddə 700) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və ikinci abzasda "Filmlərin" sözü "Xarici və birgə istehsal filmlərinin" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Filmlərin istehsalı üçün çəkilmiş xərclərin qismən geri ödənilməsi Qaydaları" üzrə:

2.2.1. adında "Filmlərin" sözü "Xarici və birgə istehsal filmlərinin" sözləri ilə əvəz edilsin;

2.2.2. 1.1-ci bənddə "filmlərin" sözü "xarici və birgə istehsal filmlərinin" sözləri ilə əvəz edilsin;

2.2.3. 2.2-ci bəndin birinci cümləsində, 7.3-cü bənddə və 4.10.4-cü yarımbənddə ismin müvafiq hallarında "istehsalçısı" sözü ismin müvafiq hallarında "prodüseri" sözü ilə əvəz edilsin;

2.2.4. 2.3.1-ci yarımbənddə "istehsalçı" sözü "prodüser" sözü ilə əvəz edilsin;

2.2.5. 2.5-ci bənddə "istehsalçısının" sözü "prodüserinin" sözü ilə və "birgə istehsalçısı" sözləri "prodüseri" sözü ilə əvəz edilsin;

2.2.6. 2.7.1-ci yarımbənddə "istehsalçısının" sözü "prodüserinin" sözü ilə və "istehsalçının" sözü "prodüserin" sözü ilə əvəz edilsin;

2.2.7. mətn üzrə ismin müvafiq hallarında "xarici film istehsalçısı" sözləri ismin müvafiq hallarında "xarici prodüser" sözləri ilə əvəz edilsin;

2.2.8. 3.2-ci bənddə "Xarici film istehsalçısına" sözləri "Xarici prodüserə" sözləri ilə əvəz edilsin;

2.2.9. 5.7-ci bənddə "istehsalçısı" sözü "prodüseri" sözü ilə və "istehsalçıları" sözü "prodüserləri" sözü ilə əvəz edilsin;

2.3. həmin Qaydaların 1, 2 və 3 nömrəli əlavələrinin yuxarı sağ küncündə"Filmlərin" sözü "Xarici və birgə istehsal filmlərinin" sözləri ilə əvəz edilsin;

2.4. 3 nömrəli əlavə üzrə:

2.4.1. 1.1-ci bənddə "xarici film istehsalçısı" sözləri "xarici prodüser" sözləri ilə və "Filmlərin" sözü "Xarici və birgə istehsal filmlərinin" sözləri ilə əvəz edilsin;

2.4.2. 7.1.4-cü yarımbənddə "istehsalçısı" sözü "prodüseri" sözü ilə əvəz edilsin;

2.4.3. 11-ci hissədə "yerli film istehsalçısı" sözləri "yerli prodüser" sözləri ilə, "xarici film istehsalçısı" sözləri "xarici prodüser" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 237** **Bakı şəhəri, 24 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 331-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 aprel tarixli 96 nömrəli, 29 aprel tarixli 123 nömrəli, 12 may tarixli 141 nömrəli, 14 may tarixli 145 nömrəli, 15 may tarixli 149 nömrəli, 3 iyun tarixli 165 nömrəli, 9 iyun tarixli 173 nömrəli və 25 iyun tarixli 200 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "279100. "Dövlət qulluqçularına ödənişlər" paraqrafında "könüllü işdən çıxdıqda, hesablanmış aylıq pensiyanın müəyyən olunmuş məbləğində" sözləri "öz arzusu ilə və ya dövlət qulluğunda olmanın yaş həddinə çatdığı üçün dövlət qulluğuna xitam verilməsi ilə əlaqədar verilən" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 310 nömrəli Qərarı ilə təsdiq edilmiş "Enerji menecment sisteminə dair Tələblər"də və 2023-cü il 18 aprel tarixli 123 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi istehsalı və təbii qazın emalı üzrə effektivlik potensialının qiymətləndirilməsi qaydası və qiymətləndirmə meyarları"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 232** **Bakı şəhəri, 23 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 322-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 582 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 310 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 997 (Cild I); 2024, № 1, maddə 105) ilə təsdiq edilmiş "Enerji menecment sisteminə dair Tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.4-cü bəndə "məlumatı" sözündən sonra "enerji effektivliyi informasiya sistemi (bundan sonra - EEİS) vasitəsilə" sözləri əlavə edilsin;

1.2. 3.7.9-cu yarımbəndə "qədər" sözündən sonra "EEİS vasitəsilə" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 aprel tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 4, maddə 594 (Cild I) ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi istehsalı və təbii qazın emalı üzrə effektivlik potensialının qiymətləndirilməsi qaydası və qiymətləndirmə meyarları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bəndə (birinci halda) "qiymətləndirilməsi" sözündən sonra "enerji effektivliyi informasiya sistemi (bundan sonra - EEİS) vasitəsilə" sözləri əlavə edilsin;

2.2. 2.3-cü bənddə "yazılı və ya elektron qaydada" sözləri "EEİS vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.3. 2.4-cü və 2.5-ci bəndlərə "rəsmiləşdirilir" sözündən sonra "və qəbul edildiyi tarixdən 5 (beş) iş günü müddətində qərarın surəti həmin təsərrüfat subyektinin EEİS-dəki elektron kabinetində yerləşdirilir" sözləri əlavə edilsin;

2.4. 2.7-ci bəndin birinci cümləsinə və 5.2-ci bəndə "tərəfindən" sözündən sonra "EEİS vasitəsilə" sözləri əlavə edilsin;

2.5. 5.1-ci bəndə "edir" sözündən sonra "və 5 (beş) iş günü müddətində həmin təsərrüfat subyektinin EEİS-dəki elektron kabinetində yerləşdirir" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" 2014-cü il 1 may tarixli 118 nömrəli və "Elektron informasiya ehtiyatlarının (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri"nin təsdiq edilməsi barədə" 2022-ci il 29 yanvar tarixli 38 nömrəli qərarlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 233** **Bakı şəhəri, 24 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" 2013-cü il 5 fevral tarixli 813 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" 2018-ci il 14 mart tarixli 1885 nömrəli, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli, "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli fərmanlarında və "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" 2014-cü il 13 fevral tarixli 268 nömrəli, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2022-ci il 4 aprel tarixli 3199 nömrəli, "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il12 avqust tarixli 474 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547 (Cild I); 2024, № 1, maddə 87, № 4, maddə 470, № 11, maddə 1263; 2025, № 7, maddə 715, № 12 (II kitab), maddə 1248) ləğv edilsin.

2. "Elektron informasiya ehtiyatlarının (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 yanvar tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 1, maddə 87 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və əsas (baza ali) tibb təhsili səviyyələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı"nda və 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 234** **Bakı şəhəri, 24 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 564 (Cild I); 2024, № 8, maddə 990, № 9, maddə 1068; 2025, № 5, maddə 496) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və əsas (baza ali) tibb təhsili səviyyələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı"na aşağıdakı məzmunda 177-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 177. | Daşınmaz əmlakın idarə olunması | 2300 |

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 292 (Cild I); 2024, № 5 (II kitab), maddə 611; 2025, № 5, maddə 495, № 12 (II kitab), maddə 1216) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na 1 nömrəli əlavə - "İxtisas qrupları və ixtisaslar"ın "Riyaziyyat-kimya (RK) altqrupu" sütununa aşağıdakı məzmunda 57-ci hissə əlavə edilsin:

"57. Daşınmaz əmlakın idarə olunması".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İşğaldan azad edilmiş ərazilərdə bərpa, tikinti və idarəetmə xidmətlərini həyata keçirən müəssisələrin nümunəvi strukturunun və ştat vahidlərinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 236** **Bakı şəhəri, 24 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət adından yaradılan bir sıra publik hüquqi şəxslərin fəaliyyətinin yenidən təşkili ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli 700 nömrəli Fərmanının 6.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. İşğaldan azad edilmiş 1 inzibati ərazi vahidi üzrə ("Şuşa şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxs istisna olmaqla) bərpa, tikinti və idarəetmə xidmətlərini həyata keçirən müəssisələrin nümunəvi strukturu və ştat vahidləri təsdiq edilsin *(əlavə olunur)*.

2. İşğaldan azad edilmiş 3 inzibati ərazi vahidi üzrə bərpa, tikinti və idarəetmə xidmətlərini həyata keçirən müəssisələrin nümunəvi strukturu və ştat vahidləri təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin avqust ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 5,19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 6 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 7, 18, 28 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi**<br>Səttarov Orxan Rəcəb oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 18 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 20 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 21 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 21 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 24 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | 25 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 28 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 27 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin avqust ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**<br>Ramin Məmmədov | **Kəlbəcər** | Kəlbəcər, Laçın | 03 |
| 2. | **Dövlət Gömrük Komitəsinin sədri**<br>Şahin Bağırov | **Qusar** | Qusar, Quba, Xaçmaz, Şabran | 04 |
| 3. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri**<br>Rəşad Nəbiyev | **Zəngilan** | Zəngilan, Cəbrayıl, Qubadlı | 06 |
| 4. | **Baş prokuror**<br>Kamran Əliyev | **Laçın** | Laçın, Cəbrayıl, Zəngilan, Qubadlı | 07 |
| 5. | **Ədliyyə naziri**<br>Fərid Əhmədov | **Lerik** | Lerik, Lənkəran, Astara, Masallı, Cəlilabad, Yardımlı | 07 |
| 6. | **Gənclər və idman naziri**<br>Fərid Qayıbov | **Xankəndi** | Xankəndi, Xocalı, Ağdərə | 07 |
| 7. | **Ekologiya və təbii sərvətlər naziri**<br>Rəşad İsmayılov | **İsmayıllı** | İsmayıllı, Qəbələ, Oğuz, Ağsu, Şamaxı | 10 |
| 8. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri**<br>Zaur Mikayılov | **Lənkəran** | Lənkəran, Astara, Lerik | 14 |
| 9. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri**<br>Qoşqar Təhməzli | **Göyçay** | Göyçay, Mingəçevir, Yevlax, Ağdaş, Ucar, Kürdəmir, Zərdab | 14 |
| 10. | **Baş prokuror**<br>Kamran Əliyev | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı | 18 |
| 11. | **Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru**<br>Anar Bayramov | **Şirvan** | Şirvan, Hacıqabul | 20 |
| 12. | **Energetika naziri**<br>Pərviz Şahbazov | **Oğuz** | Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ, İsmayıllı | 21 |
| 13. | **İqtisadiyyat naziri**<br>Mikayıl Cabbarov | **Qazax** | Qazax, Ağstafa | 21 |
| 14. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri**<br>Anar Quliyev | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar | 21 |
| 15. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri**<br>Rövşən Rzayev | **Şuşa** | Şuşa, Xankəndi, Xocalı, Ağdərə | 24 |
| 16. | **Baş prokuror**<br>Kamran Əliyev | **Şəki** | Şəki, Oğuz, Qəbələ, Mingəçevir | 25 |
| 17. | **Mədəniyyət naziri**<br>Adil Kərimli | **Laçın** | Laçın, Kəlbəcər | 27 |
| 18. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri**<br>Vüsal Nəsirli | **Qəbələ** | Qəbələ, Oğuz | 27 |
| 19. | **Elm və təhsil naziri**<br>Emin Əmrullayev | **Xankəndi** | Xankəndi, Xocalı, Ağdərə | 28 |
| 20. | **Əmək və əhalinin sosial müdafiəsi naziri**<br>Anar Əliyev | **Qəbələ** | Qəbələ, Oğuz | 28 |
| 21. | **Fövqəladə hallar naziri**<br>Kəmaləddin Heydərov | **Kəlbəcər** | Kəlbəcər, Laçın | 28 |
| 22. | **Kənd təsərrüfatı naziri**<br>Məcnun Məmmədov | **Qobustan** | Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Abşeron | 28 |
| 23. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi**<br>Mürsəl İbrahimov | **Şəmkir** | Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax | 28 |
| 24. | **“Azəristiliktəchizat” ASC-nin sədri**<br>İlham Mirzəliyev | **Daşkəsən** | Daşkəsən, Göygöl | 28 |
| 25. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru**<br>Azər Məmmədov | **Qax** | Qax, Şəki | 28 |
| 26. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**<br>Bahar Muradova | **İsmayıllı** | İsmayıllı, Ağsu | 31 |
| 27. | **“Azərişıq” ASC-nin sədri**<br>Vüqar Əhmədov | **Göyçay** | Göyçay, Ucar, Zərdab | 31 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsində müzakirəyə çıxarılmış qanun layihəsinə

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN MÜNASİBƏTİ

Azərbaycan Respublikasının Milli Məclisi ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsində H.R. 9087 saylı qanun layihəsinin müzakirəsi zamanı 2026-cı il iyulun 22-də ölkəmiz əleyhinə irəli sürülmüş düzəlişləri və əsassız ittihamları qətiyyətlə rədd edir. Beynəlxalq hüquq normalarına və prinsiplərinə kobud etinasızlığın bariz nümunəsi olan bu təşəbbüs Birləşmiş Ştatların Konqresindən erməni lobbisinin maraqları naminə Azərbaycan əleyhinə siyasi təzyiq aləti kimi istifadə etmək üçün göstərilən növbəti cəhddir.

Düzəlişin müəllifi, sabiq konqresmen Robert Menendesin siyasi xəttinin davamçısı konqresmen Bred Şerman erməni lobbi qrupları ilə bağlı olan və ardıcıl surətdə onların siyasi gündəliyini həyata keçirməyə çalışan bir şəxs kimi tanınır. Aydın məsələdir ki, ABŞ Konqresinə növbəti seçkilər ərəfəsində irəli sürülən bu cür təşəbbüslər heç də Birləşmiş Ştatların milli maraqlarını təmin etmək niyyəti ilə bağlı deyil və nüfuzlu lobbi dairələrinin siyasi və maliyyə dəstəyini qazanmaq məqsədi güdür. Qəbul olunan qərarların obyektivliyini şübhə altına alan bu cür praktika Birləşmiş Ştatların hüquq-mühafizə orqanları tərəfindən ciddi surətdə araşdırılmalı və lazımi hüquqi qiymətini almalıdır.

Sözügedən təşəbbüsün erməni lobbisinin Azərbaycanı gözdən salmaq üçün çoxdan bəri həyata keçirdiyi kampaniya çərçivəsində irəli sürüldüyü aşkardır. Eynilə belə bir çirkin missiyanı Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Luis Moreno Okampo yerinə yetirir. Onun Rusiyanın erməni mənşəli oliqarxı Samvel Karapetyan da daxil olmaqla, erməni şovinist dairələri ilə bağlı şəxslərin maliyyə yardımı ilə siyasi motivli rəylər hazırladığı beynəlxalq ictimaiyyətə məlumdur. Eyni siyasi xətt Avropanın bir sıra parlament qurumlarının, o cümlədən Avropa Şurası Parlament Assambleyasının fəaliyyətində də görünür. Bu qurumun ayrı-ayrı deputatları, xüsusən Frank Şvabe kimi şəxslər uzun müddətdən bəri Azərbaycan barəsində qeyri-obyektiv və qərəzli təşəbbüslərlə çıxış edirlər. Bütün bu hərəkətlər erməni lobbisinin müxtəlif beynəlxalq parlament platformalarında həyata keçirdiyi dəqiq əlaqələndirilmiş kampaniyanın tərkib hissələridir.

Narahatlıq doğuran hal budur ki, bu cür addımlar Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin ardıcıl surətdə irəli aparıldığı bir dövrdə atılır. Möhkəm və uzunmüddətli sülhün bərqərar edilməsinə yönələn beynəlxalq səylər, xüsusən Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın vasitəçilik təşəbbüsü və birbaşa dəstəyi iki dövlət arasında münasibətlərin nizama salınması üçün real imkanlar açmışdır. Belə bir şəraitdə ayrı-ayrı konqresmenlərin siyasi motivli birtərəfli qərarları qəbul etdirmək cəhdləri nəinki etimad mühitini pozur, həm də sülh prosesinə əngəl törədir.

Bu cür hərəkətlər yalnız erməni lobbisinin radikal şovinist dairələrinin maraqlarına xidmət edir. Onilliklər ərzində bu dairələr Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına mane olmuş və qarşıdurmanı qoruyub saxlamağa çalışmışlar, indi isə regional gərginlikdən öz siyasi və maliyyə hədəflərinə nail olmaq üçün istifadə edirlər.

Qeyd olunan düzəlişdə Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum edilmiş şəxslər barəsində "hərbi əsirlər" və "siyasi məhbuslar" kimi terminlərin işlədilməsi xüsusilə hiddət doğurur. Bu şəxslər hərbi əsirlər və ya siyasi məhbuslar deyildir. Onlar Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq hüquq normaları ilə nəzərdə tutulan hərbi təcavüz, müharibə cinayətləri, zorakılıqla yoxa çıxarma, işgəncə vermə, terrorçuluq və digər cinayətlər törətdiklərinə görə cinayət məsuliyyətinə cəlb edilmişlər. Onları siyasi təqibin qurbanları kimi qələmə vermək cəhdləri faktların bilərəkdən təhrif edilməsidir və müstəqil dövlət tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsinə birbaşa müdaxilədir.

Azərbaycan Respublikasının Milli Məclisi Amerika Birləşmiş Ştatlarının konqresmenlərini mütəşəkkil erməni lobbi qruplarının təsiri altında qərarlar qəbul etmək praktikasından əl çəkməyə, beynəlxalq hüquqa və Azərbaycan Respublikasının suverenliyinə hörmət göstərməyə, eləcə də Cənubi Qafqazda sülh prosesinin pozulmasında və qarşıdurmanın qalmasında marağı olan qüvvələrin əlində alətə çevrilməməyə çağırır.

# Qarabağ və Şərqi Zəngəzura 38 mindən çox keçmiş məcburi köçkün dönüb





**Hər bir dövlətin inkişafını müəyyən edən əsas amillərdən biri insanların təhlükəsiz və firavan yaşayışının təmin edilməsidir. Azərbaycanın həyata keçirdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" da məhz buna xidmət edərək keçmiş məcburi köçkünlərin mərhələli şəkildə doğma yurdlarına qayıdışını təmin edir.**

2022-2026-cı illəri əhatə edən I Dövlət Proqramının icrası istiqamətində işğaldan azad olunmuş ərazilərimizdə müasir yaşayış məntəqələri qurulub, dayanıqlı infrastruktur yaradılıb, əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə yeni iş yerləri açılıb və digər ictimai-sosial obyektlər tikilərək istifadəyə verilib.

Bu gün işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 90 mindən çox insan yaşayır, təhsil alır və müxtəlif sahələrdə çalışır. Bölgənin sürətli inkişafı nəticəsində müasir yaşayış və iş mühiti formalaşıb, qurulan yeni infrastruktur layihələri regionun cəlbediciliyini artırıb. Görülən işlər nəticəsində bölgənin turizm potensialı artıb və bu ərazilər mühüm iqtisadi inkişaf mərkəzinə çevrilib.

Sürətli yenidənqurma və bərpa işləri sayəsində Ağalıdan başlayan köç prosesi bu gün də uğurla davam edir. Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası ilə bağlı bu günədək Qarabağ və Şərqi Zəngəzura ümumilikdə 9500-ə yaxın ailə olmaqla, 38 mindən çox keçmiş məcburi köçkün dönüb.

Ötən gün isə daha bir qrup insan dədə-baba yurduna qayıdıb. Bu mərhələdə Xocalı rayonunun Xanabad kəndinə 10 ailə - 31 nəfər, Təzəbinə kəndinə 9 ailə - 39 nəfər, Badara kəndinə 6 ailə - 24 nəfər, Daşbulaq kəndinə 2 ailə - 7 nəfər, Seyidbəyli kəndinə 1 ailə - 5 nəfər, Ağdərə rayonunun Aşağı Oratağ kəndinə 10 ailə - 34 nəfər, Vəngli kəndinə 6 ailə - 26 nəfər, Həsənriz kəndinə 6 ailə - 17 nəfər, Kolatağ kəndinə 3 ailə - 19 nəfər, Cəbrayıl rayonunun Şükürbəyli kəndinə isə 12 ailə - 55 nəfər köçüb. Doğma yurdlarına köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

İşğaldan azad olunmuş ərazilərə köç prosesi təkcə insanların doğma yurdlarına qayıdışını deyil, həm də gələcəyin ağıllı və müasir yaşayış modelinin formalaşdırılmasını ifadə edir. Azərbaycan Qarabağ və Şərqi Zəngəzur nümunəsində bu gün yeni urbanizasiya modeli formalaşdırır, bu ərazilərdə sıfırdan yeni şəhər və kəndlər qurur. Regionda həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları ekoloji davamlılıq, müasir infrastruktur və rəqəmsal həlləri özündə birləşdirən yeni urbanizasiya yanaşmasını əks etdirir. Yeni şəhərsalma prinsiplərinə əsasən burada həyata keçirilən quruculuq işləri müasir nəqliyyat, "yaşıl enerji", sosial infrastruktur və rahat yaşayış mühitinin kompleks şəkildə qurulmasını hədəfləyir. Bu yanaşma Böyük qayıdış prosesinin davamlılığını dəstəkləyir, doğma yurdlarına qayıdan insanların müasir standartlara cavab verən yaşayış və fəaliyyət imkanları ilə təmin olunmasına şərait yaradır. Ümumilikdə isə Qarabağ və Şərqi Zəngəzur müasir şəhərsalma yanaşmalarının tətbiq olunduğu, innovativ regiona çevrilir.

Prezident İlham Əliyev artıq "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında da sərəncam imzalayıb. 2027-2030-cu illəri əhatə edəcək bu proqram Böyük qayıdışın davamlılığını təmin edəcək. Proqram çərçivəsində məskunlaşma prosesinin növbəti mərhələsinin həyata keçirilməsi, yaşayış məntəqələrinin inkişafının sürətləndirilməsi, müasir infrastrukturun genişləndirilməsi, iqtisadi fəallığın artırılması, məşğulluq imkanlarının əlçatanlığının təmin edilməsi və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi prioritet olacaq. Beləliklə, növbəti mərhələdə də yeni yaşayış məntəqələrinə köç karvanları yola salınacaq, daha çox keçmiş məcburi köçkünün yurd həsrətinə son qoyulacaq. Onlar da öz isti ocaqlarında əvvəlki, amma indi daha rahat, müasir, yüksək həyat şəraitində yaşayacaqlar.

Ümumilikdə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" qayıdış prosesini yeni inkişaf mərhələsinə daşıyaraq, regionun tam inteqrasiyasını və uzunmüddətli inkişafını təmin edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# Cənubi Qafqazın aparıcı dövləti, qlobal siyasətin mühüm aktoru

**XXI əsr dünya siyasi gündəmində mühüm dəyişikliklərlə, yeni geosiyasi reallıqlarla və beynəlxalq münasibətlər sisteminin yenidən formalaşması prosesi ilə xarakterizə olunur. Belə mürəkkəb və ziddiyyətli şəraitdə dövlətlərin iqtisadi imkanları, beynəlxalq nüfuzu, diplomatik məharəti, etibarlı tərəfdaş imici və qlobal proseslərə təsir imkanları son dərəcə əhəmiyyətli rol oynayır. Bu baxımdan Azərbaycan son onilliklər ərzində keçdiyi inkişaf yolu ilə diqqətçəkən ölkələrdəndir.**

Müstəqilliyini bərpa etdikdən sonra mürəkkəb siyasi və iqtisadi çətinliklərlə üzləşən Azərbaycan bu gün Cənubi Qafqazın aparıcı dövləti, Avrasiyanın mühüm geosiyasi aktoru və beynəlxalq münasibətlər sistemində öz sözünü deyən nüfuzlu ölkə kimi tanınır. Bu uğurların əsasında isə Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursunu əzmlə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən xarici siyasət durur.

## Güclü dövlətçilikdən regional liderliyə

Azərbaycanın bugünkü mövqeyi təsadüfi deyil. Müstəqilliyin ilk illərində ölkədə hökm sürən siyasi böhran, iqtisadi tənəzzül və xarici təhdidlər dövlətçiliyin mövcudluğunu sual altına qoyurdu. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə sabitlik təmin edildi, dövlət institutları formalaşdırıldı, iqtisadi islahatlara başlanıldı və Azərbaycanın gələcək inkişafının möhkəm təməlləri qoyuldu.

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasında dönüş nöqtəsi oldu. Sonrakı illərdə həyata keçirilən enerji layihələri ölkəni regionun iqtisadi mərkəzinə çevirdi. Prezident İlham Əliyevin rəhbərliyi dövründə isə bu inkişaf yeni mərhələyə qədəm qoydu və Azərbaycan regional liderlikdən qlobal əhəmiyyət daşıyan dövlət statusuna yüksəldi.

Bu gün Azərbaycan Cənubi Qafqazın ən böyük iqtisadiyyatına malikdir. Regionun iqtisadi potensialının əsas hissəsi məhz Azərbaycana məxsusdur. Ölkənin strateji valyuta ehtiyatları, müasir infrastrukturu, inkişaf etmiş nəqliyyat şəbəkəsi və enerji potensialı onun regional liderliyini təmin edən əsas amillərdir.

Ölkəmizin beynəlxalq nüfuzunun əsas sütunlarından biri müstəqil xarici siyasət kursudur. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycanın xarici siyasətinin mərkəzində yalnız milli maraqlar dayanır. Dövlətimiz hər hansı güc mərkəzinin təsiri altında deyil və qərarlarını öz milli maraqlarına uyğun qəbul edir.

Bu siyasət Azərbaycanın həm Şərq, həm də Qərb ölkələri ilə qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmasına imkan verir. Azərbaycan Avropa İttifaqı, ABŞ, Çin, Türkiyə, Rusiya, Mərkəzi Asiya və Yaxın Şərq dövlətləri ilə eyni vaxtda uğurlu əməkdaşlıq modeli formalaşdırmağı bacarıb. Müasir dünyada geosiyasi qarşıdurmaların artdığı bir dövrdə belə balanslaşdırılmış siyasətin həyata keçirilməsi Azərbaycanın diplomatik uğurlarının ən mühüm göstəricilərindən hesab olunur.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda jurnalistlərin və politoloqların suallarını cavablandırarkən bildirdi ki, gündəlik fəaliyyətimizin mühüm istiqamətlərindən biri ölkəmizin beynəlxalq səviyyədə tanıdılmasıdır. Bu işi fasiləsiz davam etdirməli, qazandığımız nailiyyətləri, qarşımızda duran çağırışları və həyata keçirdiyimiz işləri dünya ictimaiyyətinə təqdim etməliyik. Mövcud şəraitdə isə birnömrəli prioritet təhlükəsizlik və müdafiə qabiliyyətinin daha da gücləndirilməsidir. Amma əsas məsələlərdən biri milli maraqlarımızı qorumaq və mümkün qədər çox ölkə ilə praktik və səmərəli əməkdaşlıq münasibətləri qurmaqdır: "Bir çox ölkələr öz strateji baxışlarına uyğun siyasət yürüdürlər. Azərbaycana gəldikdə isə bizim yeganə istəyimiz sərhədlərimiz boyu sülhün hökm sürməsidir. Çünki ölkə daxilində sülh şəraitində yaşadığınız halda sərhədləriniz boyunca döyüşlər gedirsə, siz heç vaxt özünüzü təhlükəsiz hiss etmirsiniz... Cəmi bir ildən azdır ki, sülh şəraitində yaşayırıq və bunun inkişaf, investisiyalar, insanların psixoloji durumu və cəmiyyətdə hökm sürən ab-hava baxımından verdiyi faydaları görürük. Bunun çoxsaylı müsbət təsirləri var. Əlbəttə, biz istərdik ki, cənubumuzda da, şimalımızda da mümkün qədər tez sülh bərqərar olsun. Lakin bu sülh ədalətli olmalı, beynəlxalq hüquqa əsaslanmalı, hər hansı bir tərəfin ambisiyaları və ya gündəliyi üzərində qurulmamalıdır. Beynəlxalq hüquq istənilən sülh üçün universal platformadır".

## Diplomatik liderlik

Son onilliklərdə Prezident İlham Əliyev beynəlxalq siyasətin ən möhtəşəm tribunalarında çıxış edən, qlobal proseslərə dair mövqeyi diqqətlə izlənilən dövlət başçısı kimi böyük nüfuz qazanıb. Azərbaycan Liderinin BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı və digər mötəbər platformalarda səsləndirdiyi fikirlər beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.

Prezident İlham Əliyevin diplomatiyasının əsas xüsusiyyəti prinsipiallıq, ardıcıllıq və beynəlxalq hüquqa söykənən yanaşmadır. Dövlətimizin başçısı bütün çıxışlarında dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq hüququn aliliyi prinsiplərinin qorunmasının vacibliyini vurğulayır. Bu siyasət Azərbaycanın beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınmasına və nüfuzunun əhəmiyyətli dərəcədə artmasına səbəb olub.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tam bərpa olunması müasir tariximizdə yeni mərhələnin əsasını qoydu. Azərbaycan beynəlxalq hüququn tələb etdiyi, lakin uzun illər ərzində həyata keçirilməyən prinsipləri öz gücü ilə təmin etdi. Bununla ölkəmiz təkcə ərazi bütövlüyünü bərpa etmədi, həm də regionda tamamilə yeni geosiyasi reallıqlar yaratdı. Həmin reallıq da ondan ibarətdir ki, bu gün Cənubi Qafqazda formalaşan siyasi və iqtisadi gündəliyin əsas müəllifi məhz Azərbaycandır. Regionda kommunikasiya xətlərinin açılması, iqtisadi inteqrasiya, nəqliyyat əlaqələrinin genişləndirilməsi və uzunmüddətli sülhün təmin olunması istiqamətində irəli sürülən təşəbbüslərin mərkəzində məhz Azərbaycan durur.

Ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsində enerji diplomatiyası da xüsusi rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, "Cənub qaz dəhlizi", TANAP və TAP layihələri Avrasiyanın enerji xəritəsini dəyişdirən strateji layihələr kimi tarixə düşüb. Bu layihələr sayəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas tərəfdaşlardan birinə çevrilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz artıq ənənəvi enerji ixracatçısından "yaşıl enerji" istehsalçısına doğru transformasiya istiqamətində də mühüm addımlar atmaqdadır. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji zonası" elan olunduğu üçün regionda günəş və külək enerjisi layihələri həyata keçirilir, Xəzər dənizinin böyük bərpaolunan enerji potensialının beynəlxalq bazarlara çıxarılması istiqamətində mühüm işlər görülür. Bu siyasət Azərbaycanın gələcəyin enerji təhlükəsizliyi sistemində də aparıcı mövqelərdən birini tutacağını göstərir. Dövlətimizin başçısı çıxışlarında xüsusi qeyd edir ki, enerji təhlükəsizliyi bundan sonra da qlobal gündəliyin əsas mövzularından biri olaraq qalacaq: "Ölkəmizdə bu sahədə artıq böyük işlər görülüb və işlər yekunlaşıb. Lakin qeyd etdiyim kimi, həm ənənəvi enerji resurslarımıza, həm də bərpaolunan enerji mənbələrinə tələbat artmaqda davam edəcək. Bizim bərpaolunan enerji sahəsində çox böyük potensialımız var. Təkcə Qarabağda ümumi gücü 340 meqavat olan su-elektrik stansiyaları artıq istifadəyə verilib. Bundan əlavə, növbəti bir il ərzində 340 meqavat gücündə günəş-elektrik stansiyalarının tikintisi də başa çatdırılacaq. Buna görə elektrik enerjisinin Avropa bazarına ixracı gündəliyimizin əsas istiqamətlərindən biridir. Çünki Avropa bazarının əlavə enerji resurslarına ehtiyacı var və bizim əlavə imkanlarımız var".

## Qlobal nəqliyyat və logistika mərkəzi

Azərbaycanın geostrateji əhəmiyyətini artıran mühüm amillərdən biri də nəqliyyat və logistika imkanlarıdır. Şərqlə Qərbin, Şimalla Cənubun birləşdiyi beynəlxalq marşrutların kəsişməsində yerləşən Azərbaycan Avrasiyanın əsas tranzit qovşaqlarından birinə çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, "Şimal-Cənub" və Orta dəhliz layihələri ölkəmizin beynəlxalq əhəmiyyətini daha da artırıb. Qlobal ticarət marşrutlarının yenidən formalaşdığı bir dövrdə Azərbaycanın bu layihələrdə oynadığı rol getdikcə artır və ölkənin strateji əhəmiyyətini daha da yüksəldir.

Azərbaycan artıq yalnız regional problemlərin həlli ilə məşğul olan dövlət deyil, son illər ölkəmiz enerji təhlükəsizliyi, iqlim dəyişiklikləri, humanitar əməkdaşlıq, rəqəmsal inkişaf, multikulturalizm və beynəlxalq həmrəylik sahələrində mühüm təşəbbüslərlə çıxış edir. Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövründə Azərbaycan inkişaf etməkdə olan ölkələrin maraqlarının müdafiəsində mühüm rol oynadı. COVID-19 pandemiyası dövründə onlarca ölkəyə göstərilən humanitar yardım isə beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirildi. Azərbaycanın təşkil və evsahibliyi etdiyi beynəlxalq forumlar, qlobal konfranslar və nüfuzlu tədbirlər isə ölkəmizin beynəlxalq dialoq platforması kimi rolunu gücləndirib.

Bu gün bütün dünyanı maraqlandıran məsələlərdən biri də Azərbaycana güvənli münasibət və etibardır. Azərbaycan rəhbərliyində mövcud olan nədir ki, mürəkkəb məsələlərin həlli ölkəmizə etibar edilir və bu, bizlərə beynəlxalq mərkəzə çevrilmək gücü verir? Azərbaycan Prezidenti çıxışlarında bu məsələyə xüsusi münasibət bildirərək deyir: "Düşünürəm ki, etimadı birinci yerə qoyardım. Həm də Azərbaycanın səmimiyyətinə etimadı. Çünki qeyd etdiyiniz bütün hallarda və onların bir çoxunda normallaşdırma səylərində iştirak üçün bizə müraciət edən hər kəs inanırdı və başa düşürdü ki, bizim heç bir gizli niyyətimiz yoxdur. Bu, həqiqətən də belədir, heç vaxt olmayıb. Biz həmişə bacardığımız yerdə səmimiyyətlə kömək etmək istəmişik. Bu, bir növ dövlətimizin davranış xəttidir və kifayət qədər dayanıqlı olub... İkincisi, öz aralarında ortaq dil tapa bilməyənlərin hamısı ilə dürüst olacağımıza səmimi bir inamdır. Bu cür hallar həm keçmişdə, həm də yaxın tarixdə çox olub. Əlbəttə ki, bu, çox sevindiricidir. Bu göstərir, o dərəcədə etibarlı münasibətlər qurmuşuq ki, bu münasibətlər, sadəcə, vacib məsələləri müzakirə etməklə və gərginliyi azaltmaqla bəzi ölkələr üçün faydalı olmağımıza imkan verir. Həm də bu, regional siyasət amilinə çevrilir. Buna görə də bu gün Azərbaycanın regional məsələlərdə, minimum regional məsələlərdə rolu təbii olaraq artır. Bu rol müsbətdir, konstruktivdir və mümkün olan yerlərdə kömək göstərmək üçün imkan daxilində yardımlara davam edəcəyik".

## Yüksələn nüfuzun mənbəyi

Azərbaycanın beynəlxalq nüfuzu bir neçə mühüm amilə əsaslanır: güclü iqtisadiyyat, hərbi qüdrət, müstəqil xarici siyasət, etibarlı tərəfdaşlıq, strateji coğrafi mövqe və Prezident İlham Əliyevin praqmatik diplomatik fəaliyyəti.

Müasir Azərbaycan artıq beynəlxalq münasibətlər sistemində passiv müşahidəçi sayılmır. Ölkəmiz qlobal gündəliyin formalaşmasına təsir göstərən, mühüm təşəbbüslər irəli sürən və beynəlxalq əməkdaşlığın inkişafına real töhfələr verən dövlət kimi tanınır.

Bütün bunlar Azərbaycanın yalnız Cənubi Qafqazın lider dövləti deyil, eyni zamanda Avrasiya məkanının ən mühüm siyasi və iqtisadi aktorlarından biri olduğunu göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutur və bu mövqeyini ildən-ilə daha da möhkəmləndirir. Azərbaycanın artan beynəlxalq nüfuzu, təşəbbüskar diplomatiyası və strateji əhəmiyyətə malik layihələri göstərir ki, ölkəmiz gələcək illərdə də qlobal proseslərin fəal aktoru və mühüm istiqamətverici qüvvələrindən biri olacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Prokurorluğu orqanlarında 2026-cı ilin birinci yarısında görülmüş işlərin yekunlarına dair Geniş Kollegiya iclası keçirilib

**İyulun 24-də baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Prokurorluğu orqanları tərəfindən 2026-cı ilin birinci yarımilində qanunla prokurorluq orqanlarının səlahiyyətlərinə aid edilmiş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin, əldə edilmiş nəticələrin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş videokonfrans rejimində Geniş Kollegiya iclası keçirilmişdir.**



Giriş nitqi ilə çıxış edən baş prokuror cari ilin birinci yarımilində ölkəmizdə ictimai-siyasi, iqtisadi, hüquqi və beynəlxalq münasibətlər müstəvisində baş vermiş mühüm hadisələrə toxunaraq bildirib ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə təsadüf edən 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan islahatların və dayanıqlı inkişaf strategiyasının mühüm istiqamətlərindən biridir. May ayında Bakıda 58 mindən çox iştirakçının qatıldığı 13-cü Ümumdünya Şəhərsalma Forumunun keçirilməsi də bu siyasətin uğurunu, Azərbaycanın qlobal urbanizasiya sahəsindəki fəal rolunu və etibarlı tərəfdaş nüfuzunu bir daha sübut edir.

Çıxış zamanı bildirilib ki, regionda və dünyada müşahidə olunan mürəkkəb geosiyasi gərginliklər fonunda cari ilin birinci yarımilində də ölkəmizdə iqtisadi və hazırda dünyanın aparıcı, strateji məsələlərindən biri olan enerji təhlükəsizliyi, xüsusən də, aktuallıq kəsb edən "yaşıl enerji" sahələri diqqətdə saxlanılmaqla yeniliklərə imza atılmış, bu sahələrdə tərəfdaşlıq münasibətləri daha da inkişaf etdirilmişdir.

Qeyd edilib ki, 2026-cı ilin birinci yarımilində də ölkə rəhbəri və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa, yenidənqurma və məskunlaşma siyasəti ardıcıl şəkildə davam etdirilib, həmin ərazilərin sosial-iqtisadi inkişafı və "Böyük qayıdış" proqramının uğurla icrası daim diqqət mərkəzində saxlanılmışdır.

Ölkədə həyata keçirilən məqsədyönlü dövlət siyasəti, hüquq qaydasının möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə sahəsində görülən sistemli tədbirlərin nəticəsi olaraq, hesabat dövründə qeydə alınmış cinayətlərin sayında azalma müşahidə edilmişdir.

Daha sonra baş prokuror prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd etmişdir.

Bildirilib ki, cari ilin birinci yarımilində ölkə ərazisində 15420 cinayət qeydə alınmaqla onların 90,7 faizinin açılması təmin edilmiş, ümumilikdə ölkə üzrə cəmi 7893 cinayət işinin istintaqı tamamlanmışdır ki, onlardan da 470-i prokurorluq orqanlarında istintaq edilmişdir. Prokurorluq orqanları tərəfindən 269, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 5511 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmişdir.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri və tamamlanmış araşdırma materialları üzrə müəyyən edilmiş maddi ziyandan istintaq tədbirləri ilə 27 milyon 152 min manatın ödənilməsi təmin edilmiş, 3 milyon 485 min manat məbləğində əmlak üzərinə isə həbs qoyulmuş və müəyyən edilən ziyanın tam ödənilməsi üçün hazırda tədbirlər davam etdirilir.

Qeyd olunub ki, "Elektron prokurorluq" informasiya sistemi hesabat dövründə daha da təkmilləşdirilmiş, aidiyyəti modulların funksionallığı məhkəməyədək icraatın elektron qaydada aparılmasına uyğunlaşdırılmış, EPİS-də yeni modullar yaradılmış və bu sistemin inteqrasiya imkanları genişləndirilmiş, süni intellektin imkanlarından yararlanmaq məqsədilə yüksək səmərəlilik göstəricilərinə malik bir neçə süni intellekt modeli hazırlanaraq əməkdaşların istifadəsinə verilmişdir.

Hesabat dövründə ölkə rəhbərinin siyasi fəaliyyətinin əsas prioritet istiqamətlərindən biri olan korrupsiyaya və rüşvətxorluğa qarşı barışmaz mübarizə xətti əvvəlki illərdə olduğu kimi ardıcıl şəkildə davam etdirilmişdir. Bu çərçivədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən vətəndaşları ciddi narahat edən korrupsiya xarakterli cinayətlərin və hüquqpozmaların daha geniş yayıldığı idarəetmə və xidmət sahələri müəyyən edilmiş, həmin əməlləri törətmiş vəzifəli şəxslər ifşa olunaraq məhkəmə məsuliyyətinə verilmişdir.

Cari ilin birinci yarımilində ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 6 qəsdən adam öldürmə cinayətindən 2-nin Baş Prokurorluğun İstintaq idarəsi, 4-nün isə tabe rayon və şəhər prokurorluqları tərəfindən açılmasını bildirən baş prokuror həmin cinayətlərin açılmasında prokurorluq orqanları ilə daxili işlər orqanları arasında səmərəli və koordinasiyalı fəaliyyəti xüsusi qeyd etmişdir.

Prokurorluq orqanları tərəfindən 563 apellyasiya və 155 kassasiya protestləri verilmiş, 355 apellyasiya və 55 kassasiya protestləri təmin olunmaqla nəticədə məhkəmələr tərəfindən yol verilmiş hüquqi xarakterli uyğunsuzluqlar aradan qaldırılmışdır.

Hesabat dövründə Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci ildə qəbul etdiyi "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Qərarın uğurla icra olunduğu, amnistiya aktının ümumilikdə 22935 şəxsə şamil edilməsinin cəza siyasətinin humanist prinsiplərinin həyata keçirilməsinə, məhkumların islah olunmasına mühüm töhfə verdiyi qeyd edilmişdir.

Təəssüf hissi ilə qeyd edilmişdir ki, Ermənistan tərəfinin apardığı mina terroru nəticəsində 2026-cı ilin birinci yarımilində mina və partlamamış hərbi sursat partlayışları nəticəsində 2 nəfər həlak olmuş, 11 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. 2020-ci ilin noyabr ayından hazırkı vaxtadək isə ümumilikdə 430 şəxs bu terrorun qurbanı olmuş, onlardan 73 nəfəri həlak olmuş, 357 nəfəri müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Cari ilin birinci yarımilində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 355 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub.

2026-cı ilin birinci yarımili ərzində cinayət təqibindən kənar icraatlarla əlaqədar 916 inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilməklə, inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunub.

Qeyd edilib ki, Baş Prokurorluğun "961 Çağrı Mərkəzi"nə 2026-cı ilin birinci yarımilində daxil olmuş müraciətlərdən 13305-i üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilib, 2576 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılıb.

Kollegiya iclasında qeyd olunmuşdur ki, Baş Prokurorluqda aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif növ intizam xətalarına yol verdikləri üçün 8 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb olunmuş, onlardan 6-na töhmət və ya şiddətli töhmət elan edilmiş, 2 nəfər tutduğu vəzifədən azad olunmuşdur.

Həmçinin diqqətə çatdırılmışdır ki, hesabat dövründə kadr işinin düzgün təşkili və onun müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, nümunəvi fəaliyyətlərinə görə 110 prokurorluq işçisi həvəsləndirilmiş, eyni zamanda işə qəbul olunmaq istəyən şəxslər üçün ötən yarımildə 30 ştat vahidi üzrə 28-ci növbəti müsabiqə elan edilmişdir.

Eyni zamanda hesabat dövründə xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr daha da genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlər nəticəsində 33 təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası, həmçinin müvafiq məhkəmə qərarları əsasında xarici ölkələr tərəfindən beynəlxalq axtarışa verilmiş 13 şəxsin aidiyyəti üzrə təhvil verilməsi təmin edilmişdir.

Vurğulanıb ki, 2026-cı ilin birinci yarımilində də vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılmış, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq baş prokuror tərəfindən respublikanın 14 şəhər və rayonunda 400-dən artıq vətəndaşın qəbulu həyata keçirilmişdir.

Qeyd edilənlərlə yanaşı Kollegiya iclasında həmçinin hesabat dövründə əldə olunmuş müsbət nəticələrlə yanaşı, müvafiq dövr ərzində xidmət zamanı, habelə görülmüş işlərə dair nəticələrin yekun təhlilləri əsasında müəyyən olunmuş nöqsan və çatışmazlıqlara münasibət bildirilmiş, onların aradan qaldırılması, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyin və prokuror nəzarətinin təşkili, əvvəlki illərdən bağlı qalmış cinayət hadisələrinin açılması istiqamətində aidiyyəti hüquq mühafizə orqanları ilə birgə əməliyyat və istintaq hərəkətlərinin həyata keçirilməsi, fiziki və hüquqi şəxslərə dəymiş maddi ziyanın ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə bağlı fəaliyyətin təşkili keyfiyyətinin artırılması və təkmilləşdirilməsi istiqamətində icrası zəruri olan tapşırıqlar qarşıya mühüm vəzifə kimi qoyulmuşdur.

Bundan əlavə 2026-cı ilin oktyabr ayında keçirilməsi nəzərdə tutulan İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanları rəhbərlərinin üçüncü yüksəksəviyyəli görüşünün Bakı şəhərində keçiriləcəyi diqqətə çatdırılmaqla tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi istiqamətində görülən işlərin intensiv qaydada davam etdirilməsi tapşırılmışdır.

Daha sonra Azərbaycan Respublikası baş prokurorunun birinci müavini Elçin Məmmədov, müavinləri Elmar Camalov və Heydər Məmmədov, habelə baş prokurorun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru Bəhruz Əhmədov hesabat dövründə fəaliyyət, bu zaman yol verilmiş nöqsanlar və onların aradan qaldırılması istiqamətində görülməli tədbirlər barədə, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi haqqında Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi Natiq Hüseynov, habelə Qobustan, Xocalı rayon və Ağdam hərbi prokuroru hesabat dövründə görülmüş işlərlə bağlı məruzələrlə çıxış edib, müzakirələr ətrafında fikir mübadiləsi aparılmaqla qarşıda duran vəzifələrə dair tapşırıqlar verilmişdir.

Kollegiya iclasına yekun vuran baş prokuror Kamran Əliyev Azərbaycan Respublikası Prokurorluğu orqanları və əməkdaşlarının hər zaman olduğu kimi bundan sonra da dövlətimiz və xalqımızın mənafeyi, eləcə də maraqları naminə qanunla müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə öz üzərlərinə düşən vəzifələri bütün bilik və peşə bacarıqlarını səfərbər etməklə, əzmlə və layiqincə icra edəcəklərinə, bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət siyasətinin uğurla icrasına öz xidmətləri ilə dəstək olacaqlarına əminliyini ifadə edib.

# Yüksələn beynəlxalq nüfuz, möhkəmlənən geostrateji mövqe

## Azərbaycan qlobal tərəfdaşları sülh, iqtisadiyyat və tərəqqi naminə bir araya gətirən mərkəz kimi çıxış edir

**Cənubi Qafqazın coğrafi taleyi gözlərimiz qarşısında yenidən yazılır. Dünənə qədər münaqişə və gərginlik xəritələrində "qırmızı zona" kimi qeyd olunan bu məkan, bu gün qlobal ticarət və diplomatiyanın ən vacib hissəsinə çevrilib. Köhnə stereotiplərin dağılması və regional problemlərin tarixin arxivinə gömülməsinin arxasında isə Azərbaycanın milli maraqlara söykənən müstəqil xarici siyasəti dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs, Cənubi Qafqazı böhran zonasından çıxararaq qlobal miqyasda qitələri birləşdirən etibarlı bağlantı ünvanına çevirib, ölkəmizin beynəlxalq arenadakı nüfuzunu zirvəyə yüksəldib.**



Azərbaycanın geostrateji mövqeyi hər zaman əlverişli olub, lakin bu coğrafi üstünlüyü real iqtisadi və siyasi gücə çevirmək məhz Bakının atdığı düşünülmüş addımların nəticəsidir. Bu gün ölkəmiz Asiya ilə Avropanı, Şərqlə Qərbi ən qısa və təhlükəsiz yolla birləşdirən əsas nöqtədir. Azərbaycanın qlobal infrastruktur şəbəkəsindəki rolu yalnız ənənəvi yollarla məhdudlaşmır, çoxşaxəli şəkildə inkişaf etdirilir. Bu mənada Orta dəhlizin təkcə nəqliyyat marşrutu deyil, qlobal ticarətin yeni onurğa sütunu olduğunu desək, yanılmarıq. Azərbaycan dəniz və dəmir yollarını modernləşdirməklə yanaşı, Xəzər dənizində qurulan külək və günəş stansiyalarından alınan təmiz enerjini Avropaya ötürəcək "yaşıl enerji" dəhlizini formalaşdırır. Regionu qlobal internet şəbəkəsinə bağlayan nəhəng fiber-optik xətlər məhz ölkəmizdən keçir. Ələt Azad İqtisadi Zonası xarici investorlar üçün böyük istehsal sahələri və azad ticarət imkanları təklif edən mühüm logistik habdır.

Vaşinqtonda əldə olunmuş razılaşmaya əsasən açılması planlaşdırılan Zəngəzur dəhlizi (TRIPP) Şərqlə Qərbi, eləcə də Şimalla Cənubu birləşdirən strateji nöqtə olacaq. Bu marşrut regionun iqtisadi potensialını dəfələrlə artıraraq ölkələri bir-birinə bağlayacaq və hərbi riskləri minimuma endirəcək.

Bərpaolunan Qarabağ və Şərqi Zəngəzurda sıfırdan tikilən beynəlxalq hava limanları, yeni yollar və tunellər bu böyük nəqliyyat şəbəkəsinin sürətini qat-qat artırır.

### Müstəqil və balanslaşdırılmış xətt

Azərbaycanın yaratdığı yeni reallığın ən böyük uğurlarından biri də dünya nəhənglərinin ölkəmizə olan xüsusi diqqətidir. Beynəlxalq müstəvidə geopolitik rəqabətdə olan Çin, ABŞ, Avropa İttifaqı (Aİ) kimi güclərin eyni zamanda Bakı ilə əməkdaşlığa can atması Azərbaycan diplomatiyasının təkrarsız uğurudur.

Yüksələn xətlə inkişaf edən Bakı-Pekin əlaqələri hərtərəfli məzmuna malikdir. Ötən ilin aprelində Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması da buna nümunədir.

Dövlət başçısının ötən ilin avqustunda Vaşinqtona səfəri çərçivəsində imzalanmış "Strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumu" Ağ Evin Bakıya olan strateji baxışının göstəricisi oldu.

Bu il fevralın 10-da Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanma mərasimi keçirilib. Sənədi Prezident İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vens imzalayıblar.

Azərbaycanın Avropa İttifaqı (Aİ) ilə yeni münasibətlər dinamikası da kifayət qədər diqqətçəkəndir. Məlum olduğu kimi, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısıdır. Hazırda Azərbaycan qazını idxal edən 16 ölkədən 10-u Aİ üzvüdür. Lakin Aİ üçün Bakı, sadəcə, etibarlı qaz tədarükçüsü deyil, həm də "yaşıl enerji", rəqəmsal transformasiya və Trans-Xəzər bağlantılarında əvəzolunmaz tərəfdaşdır.

Azərbaycanın Aİ və geniş Avropa coğrafiyası ilə münasibətlərində 2025-ci ilin mayında Tiranada, oktyabrında isə Kopenhagendə keçirilmiş "Avropa Siyasi Birliyi"nin Zirvə görüşləri xüsusi dönüş nöqtəsi oldu.

Rəsmi Bakının beynəlxalq nüfuzunun ən parlaq təsdiqi isə "Avropa Siyasi Birliyi"-nin 12-ci Zirvə görüşünə 2028-ci ildə Azərbaycanın evsahibliyi etməsi barədə qəbul edilən yekdil qərardır. Qitənin ən mötəbər siyasi platformasının Bakıya həvalə olunması ölkəmizin regionda və dünyada əvəzolunmaz mövqeyə sahib olmasının və ona olan beynəlxalq etimadın təzahürüdür.

Bu il iyunun 2-3-də Bakıda Azərbaycan ilə Avropa İttifaqının nümayəndə heyətləri arasında yeni hərtərəfli saziş layihəsi üzrə həlledici danışıqlar aparılıb. Konstruktiv ruhda keçən müzakirələrin mühüm nəticəsi olaraq, 2026-2030-cu illəri əhatə edən Avropa İttifaqı - Azərbaycan Tərəfdaşlıq Prioritetləri sənədinin layihəsi ilkin olaraq razılaşdırılıb.

### Etibarlı tərəfdaş

Azərbaycan-Avropa İttifaqı münasibətlərinin bu gün tamamilə yeni, strateji mərhələyə qədəm qoymasını Aİ-nin ali nümayəndələrinin bu il ölkəmizə həyata keçirdikləri ardıcıl səfərləri də bir daha təsdiqləyir.

Martın 11-də Aİ Şurasının prezidenti Antonio Koştanın ölkəmizə səfəri Brüsselin Bakı ilə münasibətlərə yüksək qiymətinin göstəricisi oldu. Prezident İlham Əliyevlə Aİ Şurasının prezidenti Antonio Koştanın birgə mətbuat bəyanatında prezidentlər Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayaraq, təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqliklərini ifadə ediblər. Liderlər uzunmüddətli vacib enerji tərəfdaşlığını xatırladaraq, Avropanın enerji təchizatının şaxələndirilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın rolunu etiraf ediblər və 2022-ci ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun davamlı icrasına sadiqliklərini bildiriblər.

Yüklərin sürətli və təhlükəsiz daşınması, həmçinin logistik şaxələndirmə baxımından Aİ-nin Azərbaycana olan ehtiyacı qaçılmazdır. Bu gerçəklik mayın 5-də Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın Bakıya səfəri zamanı da etiraf olunub. Kaya Kallas Prezident İlham Əliyevlə görüşündə Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirərək, münasibətləri yeni səviyyəyə qaldırmaqda maraqlı olduqlarını bəyan edib.

İyulun 1-də Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin ölkəmizə səfəri də Azərbaycan-Aİ əlaqələrinin dinamik inkişafına nümunə idi. Prezident İlham Əliyevlə geniş tərkibdə görüş zamanı Azərbaycanın bu gün Avropa İttifaqının strateji tərəfdaşı olduğunu deyən Ursula fon der Lyayen bildirib ki, Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlər möhkəm təməllər üzərində inkişaf edir.

Sərgilədiyi şəffaf xarici siyasət, milli maraqlara əsaslanan prinsipial mövqeyi və qlobal layihələrin mərkəzində durmaq bacarığı ölkəmizi "orta güc"ə çevirib. Xarici diktələrdən uzaq, tam müstəqil siyasi xəttə malik Azərbaycan qlobal tərəfdaşları sülh, iqtisadiyyat və tərəqqi naminə bir araya gətirən mərkəz kimi çıxış edir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# *Mixael HARMS:* "Almaniya-Azərbaycan Biznes Şurasının yaradılması iqtisadi əlaqələrin strateji səviyyəyə yüksəldilməsi istiqamətində mühüm addımdır"

**Azərbaycan ilə Almaniya arasında iqtisadi əməkdaşlığın inkişafında aparıcı rol oynayan qurumlardan biri də Almaniya İqtisadiyyatının Şərq Komitəsidir. Bu qurum iki ölkənin biznes dairələri arasında əlaqələrin genişlənməsinə mühüm töhfə verir. Komitənin sədri Mixael HARMS** AZƏRTAC**-a müsahibəsində Prezident İlham Əliyevin Berlinə səfərinin Azərbaycan-Almaniya iqtisadi tərəfdaşlığının inkişafına töhfələri, alman şirkətləri üçün yaranan imkanlar, enerji təhlükəsizliyi və Orta dəhlizin strateji əhəmiyyətindən danışıb. Müsahibəni təqdim edirik.**



*- Prezident İlham Əliyevin Almaniyaya səfəri çərçivəsində Almaniya-Azərbaycan Biznes Şurasının yaradılması barədə razılıq əldə olundu. Sizin fikrinizcə, bu yeni platforma iki ölkə arasında iqtisadi əməkdaşlığı praktik baxımdan necə dəyişəcək? Bu, alman şirkətləri üçün hansı yeni imkanlar yaradacaq?*

- Almaniya-Azərbaycan Biznes Şurasının yaradılması iki ölkə arasında iqtisadi əlaqələrin daha yeni, strateji səviyyəyə yüksəldilməsi istiqamətində mühüm addımdır. Xüsusilə əhəmiyyətli məqam ondan ibarətdir ki, artıq şirkətlər, assosiasiyalar və siyasi nümayəndələr arasında ikitərəfli görüşlər üçün daimi dialoq platforması yaradılır.

Biznes Şurası Almaniya şirkətləri üçün layihələri daha erkən mərhələdə müəyyənləşdirmək, tənzimləyici məsələləri birbaşa müzakirə etmək və yeni əməkdaşlıq sahələrini sistemli şəkildə inkişaf etdirmək imkanı yaradacaq. O, investisiyalar qarşısındakı maneələrin azaldılmasına, məlumat mübadiləsinin yaxşılaşdırılmasına və hər iki ölkənin şirkətləri arasında əlaqələrin genişləndirilməsinə töhfə verə bilər. Bu, xüsusilə enerji, infrastruktur, logistika, rəqəmsallaşma və sənaye kimi sahələrdə alman texnologiyaları və həllər təklif edən şirkətlər üçün əlavə imkanlar yaradacaq.

*- Siz Prezident İlham Əliyevlə uzun illər ərzində müxtəlif platformalarda görüşmüsünüz. Sonuncu görüşdə əvvəlki illərlə müqayisədə hansı yeni məqamlar diqqətinizi çəkdi? Alman biznes dairələrinin Azərbaycana münasibətində keyfiyyətcə dəyişiklik müşahidə edirsinizmi?*

- Bəli, mən Prezident İlham Əliyev ilə uzun illər ərzində müxtəlif səviyyəli formatlarda görüşlər keçirmişəm. Bakıda və Berlində keçirilən son görüşlərimizdə ənənəvi enerji sektorundan əlavə iqtisadiyyatın şaxələndirilməsi və Azərbaycan iqtisadiyyatı üçün yeni perspektivli sahələrin inkişafına xüsusi diqqət yetirildiyini müşahidə etdim.

Bizim üçün mühüm amillərdən biri Azərbaycan və Ermənistan arasında əldə olunan sülh razılaşmasıdır. Bu razılaşma bütövlükdə regiona yeni sabitlik gətirir və sərhədlərarası ticarəti asanlaşdırır. Bu razılaşmadan sonra Almaniya şirkətlərinin Azərbaycana marağının artdığını və maraq dairəsinin genişləndiyini müşahidə edirəm. Əvvəllər əsas diqqət enerji sahəsində əməkdaşlığa yönəlirdisə, hazırda bağlantılar, nəqliyyat dəhlizləri, sənayenin inkişafı, kənd təsərrüfatı, bərpaolunan enerji, rəqəmsallaşma və regional inteqrasiya kimi məsələlər də intensiv şəkildə müzakirə olunur.

Bu baxımdan keyfiyyətcə dəyişiklikdən danışmaq mümkündür: Azərbaycan getdikcə daha çox müxtəlif inkişaf perspektivlərinə malik iqtisadi tərəfdaş kimi qəbul edilir.

*- Azərbaycan son illər təkcə Avropanın enerji təhlükəsizliyi üçün mühüm tərəfdaşa deyil, həm də Avropa ilə Mərkəzi Asiya arasında Orta dəhlizin əsas mərkəzlərindən birinə çevrilir. Almaniya iqtisadiyyatı baxımından Azərbaycan artıq təkcə enerji tərəfdaşı deyil, həm də yeni Avrasiya təchizat zəncirlərinin mühüm elementi kimi qəbul olunurmu?*

- Bəli, bu inkişaf bir çox Almaniya şirkətinin baxışında aydın şəkildə müşahidə olunur. Orta dəhliz son illərdə əhəmiyyət qazanıb. Bunun əsas səbəbi şirkətlərin təchizat zəncirlərini şaxələndirmək və onları böhranlara qarşı daha dayanıqlı etmək istəyidir.

Azərbaycan coğrafi mövqeyinə görə bu prosesdə əsas rol oynayır. Ölkə Avropa, Mərkəzi Asiya və Çin arasında mühüm əlaqələndirici mərkəzdir. Limanlara, dəmir yolu bağlantılarına, logistika mərkəzlərinə və rəqəmsal infrastruktura yatırılan böyük investisiyalar bu mövqeyi daha da gücləndirir.

Bu səbəbdən Azərbaycan Almaniya tərəfindən getdikcə təkcə mühüm enerji tərəfdaşı deyil, həm də logistika qovşağı kimi qiymətləndirilir. Xüsusilə ixracyönümlü şirkətlər üçün Avropa ilə Asiya arasında daha səmərəli nəqliyyat əlaqələrinin gələcəkdə əhəmiyyətli iqtisadi əlavə dəyər yaratmaq potensialı var.

*- Strateji Gündəlikdə "yaşıl enerji", hidrogen, logistika, kənd təsərrüfatı və rəqəmsal iqtisadiyyat sahələrinə xüsusi diqqət yetirilir. Qarşıdakı illərdə Azərbaycanda Almaniya şirkətləri üçün ən böyük investisiya potensialını hansı sahələrdə görürsünüz?*

- Almaniya ilə Azərbaycan arasında Strateji Gündəlik çoxsaylı gələcək istiqamətləri əhatə edir. Mən xüsusilə beş sahədə böyük potensial görürəm:

1. Enerji təchizatı və bərpaolunan enerji. Almaniya şirkətləri külək və günəş enerjisi layihələrinin inkişafı, eləcə də hidrogen iqtisadiyyatı üçün texnologiyalar sahəsində geniş təcrübəyə malikdir.
2. Logistika və nəqliyyat infrastrukturu. Orta dəhlizin daha da inkişafı müasir logistika həllərinə, nəqliyyat proseslərinin rəqəmsallaşdırılmasına və səmərəli infrastrukturun yaradılmasına ehtiyac yaradır.
3. Sənaye və istehsal. İqtisadiyyatın şaxələndirilməsi məqsədi Almaniya maşınqayırma şirkətləri, sənaye avadanlığı istehsalçıları və avtomatlaşdırma texnologiyaları təklif edən şirkətlər üçün yeni imkanlar açır.
4. Kənd təsərrüfatı və qida emalı. Alman texnologiyaları bütün dəyər zənciri boyunca məhsuldarlığın, dayanıqlılığın və səmərəliliyin artırılmasına töhfə verə bilər.
5. Rəqəmsallaşma və "ağıllı infrastruktur". Elektron hökumət həllərindən "ağıllı şəhər" layihələrinə və kibertəhlükəsizliyə qədər Almaniya şirkətlərinin öz təcrübələrini tətbiq edə biləcəyi çoxlu sayda sahə mövcuddur.

Ümumilikdə, iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsi üçün yaxşı imkanlar görürəm. Əsas məsələ mövcud siyasi razılaşmaların indi konkret layihələrə və hər iki ölkənin şirkətləri arasında uzunmüddətli tərəfdaşlıqlara çevrilməsidir.

# "Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri iki ölkə arasında münasibətlərdə yeni səhifə açdı"

**"Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri iki ölkə arasında münasibətlərdə yeni səhifə açdı. Bunu bir neçə aspektdən əsaslandırmaq olar".**




Bu barədə **Berlində fəaliyyət göstərən tanınmış jurnalist Evald KÖNİQ** AZƏRTAC-a müsahibəsində bildirib.

Prezident İlham Əliyevin Berlində ən yüksək səviyyədə qarşılandığını vurğulayan E.Köniq qeyd edib ki, Birgə Bəyannamənin imzalanması təkcə simvolik jest deyil, həm də geniş əməkdaşlıq üçün möhkəm baza yaradır. Bu əməkdaşlıq əvvəlki kimi yalnız praqmatik xarakter daşımır, artıq strateji əsaslara söykənir.

"Bu, hər iki tərəfin maraqlarına uyğundur. Almaniya enerji idxalını şaxələndirməlidir və enerji təchizatçısı kimi Azərbaycana ehtiyac duyur. Bu çərçivədə Almaniya Azərbaycanın etibarlı tərəfdaş olduğunu təcrübədə görüb. Azərbaycan üçün isə etibarlı alıcıya malik olmaq, beynəlxalq enerji təchizatçısı kimi rolunu gücləndirmək və siyasi çəkisini artırmaq vacibdir. Enerji və xammaldan əlavə, Asiya ilə Avropa arasında daşımaların artıq Rusiya üzərindən həyata keçirilməsinin mümkün olmadığı bir şəraitdə Azərbaycan tranzit ölkə kimi də Almaniya üçün böyük əhəmiyyət qazanıb", - deyə tanınmış jurnalist bildirib.

Almaniya Kansleri Fridrix Mertsin Azərbaycanın Avropanın enerji təhlükəsizliyi və Avropa ilə Mərkəzi Asiyanı birləşdirən Orta dəhliz baxımından əhəmiyyəti barədə fikirlərinə də toxunan E.Köniq deyib: "Əvvəllər Azərbaycan əsasən enerji və xammal ölkəsi kimi önəmli idi və bu, belə də qalmaqdadır. Lakin hazırda ölkə Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiyanın kəsişməsində yerləşməsi və mühüm bağlantı nöqtəsi olması ilə siyasi baxımdan da daha böyük əhəmiyyət qazanıb.

Bununla yanaşı, Cənubi Qafqaz artıq sabitləşən bir bölgəyə çevrilir. Bu təhlükəsizlik siyasəti Almaniyanın maraqlarında möhkəm yer almaqdadır və Prezidentin Berlində yüksək səviyyədə qarşılanması, eləcə də Birgə Bəyannamənin imzalanması ilə bu yanaşmaya müvafiq qiymət verildi".

# Almaniya və Azərbaycan faktlara əsaslanaraq keçmişə deyil, gələcəyə baxırlar

**Almaniyanın Cənubi Qafqaza marağının artması yalnız enerji sahəsində əməkdaşlıqla məhdudlaşmır. Azərbaycan Avropaya qaz ixracını artırmaqla qitənin enerji təhlükəsizliyində böyük rol oynayır. Bununla yanaşı Almaniya Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq əlaqələrini daha da genişləndirməyə çalışır.**

AZƏRTAC xəbər verir ki, 2022-ci ildə başlanan Rusiya-Ukrayna müharibəsindən sonra Avropa İttifaqının (Aİ) lider dövləti olan Almaniya Rusiya vasitəsilə Şərq ilə əlaqələrinə birdəfəlik son qoymaq qərarına gəldi ki, bu da yalnız iqtisadi deyil, həm də siyasi xarakter daşıyır. Bu barədə **ABŞ, Çin, Belarus, Özbəkistan və digər postsovet ölkələrində səfir olmuş, diplomat Monfred HUTERER** hələ 2024-cü ildə dərc olunan "Epoxa dəyişikliyindən sonra Almaniyanın Mərkəzi Asiya siyasəti" məqaləsində yazırdı. Müəllif "epoxa dəyişikliyi" dedikdə, 2022-ci ilin fevral ayında Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən sonrakı dövrü nəzərdə tutur.

Səfir qeyd edir ki, Almaniya nəqliyyat, enerji, təbii sərvətlər sahəsində Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq əlaqələrini tez bir zamanda genişləndirməli, bununla yanaşı Cənubi Qafqaz və Türkiyəni də əməkdaşlıq halqasına daxil etməlidir. Onun fikrincə, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhlizi) ilə bağlı beynəlxalq konsorsium yaratmaq və alman firmalarını bu konsorsiuma daxil etmək lazımdır. O, Azərbaycanı Mərkəzi Asiya ilə əlaqələrdə əhəmiyyətli ölkə hesab edərək ona iqtisadi və siyasi dəstəyi əsirgəməməyi tövsiyə edir.

Bu tövsiyənin əsasında Rusiyadan enerji asılılığına son qoymaq istəyi dayanır. Mərkəzi Asiyanın zəngin təbii resurslarını Avropa bazarlarına çıxarmaq və enerji idxalını şaxələndirmək bu gün Avropanın əsas prioritetlərindən biridir. Qazaxısan, Özbəkistan və Azərbaycanın "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin reallaşması da Almaniya üçün mühüm xarakter daşıyır.

**Almaniya Xarici İşlər Nazirliyinin məsləhətçisi, Bonn Universitetinin politologiya üzrə professoru Andreas Hayneman QRYÜDER** Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfərini və səfər çərçivəsində imzalanan sənədləri qiymətləndirərək yerli mətbuata açıqlamasında deyib ki, Almaniya və Azərbaycan faktlara əsaslanaraq keçmişə deyil gələcəyə baxırlar. Onun fikrincə, bu gün əməkdaşlıq əlaqələrinin genişlənməsi üçün yaradılan əsaslar gələcək nəsillər üçün daha çox faydalı olacaq: "Prezident Əliyevin səfəri Almaniyanın resurslara çıxışını əks etdirir və Almaniya üçün milli maraqlar ümum-Avropa dəyərlərindən vacibdir".

Almaniya Avropada atom enerjisindən imtina edərək təmiz enerjiyə keçid edən ilk ölkədir. Bu günə kimi ölkə ərazisində 4 atom-elektrik stansiyasının fəaliyyəti dayandırılıb. Bu baxımdan Almaniya Mərkəzi Asiyanın alternativ və bərpaolunan enerji potensialından səmərəli istifadə etməyə çalışır. Bu məsələdə də Azərbaycan Almaniya üçün mühüm ölkədir. Ölkəmizin enerji tranziti imkanları və bunun üçün yaradılan infrastruktur da Almaniya üçün zəruridir. Bu infrastrukturdan Almaniya Mərkəzi Asiyadan elektrik enerjisi idxalında istifadə edəcək.

Almaniya ilə Azərbaycanın münasibətlərindəki yeni mərhələnin perspektivlərinə baxdıqda demək olar ki, hər iki dövlət praqmatik siyasi xəttin tərəfdarıdır. Bu isə maraqların uzlaşmasına əsaslanır. Azərbaycan etibarlı tərəfdaş olduğunu nümayiş etdirib və Almaniya ilə enerji, nəqliyyat və tranzit sahədə əlaqələrini davam etdirmək niyyətindədir.

Son dövrlər Azərbaycanın ABŞ, Çin, Almaniya kimi qlobal siyasətdə söz sahibi olan dövlətlərlə əlaqələrini inkişaf etdirməsi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin nəticəsidir. Bu siyasət sayəsində Azərbaycan regionda sabitlik adasını xatırladır. Cənubda və şimaldakı müharibələrin ölkəmizə sirayət etməməsi üçün dövlət başçımızın səyləri danılmazdır.

# "Qarabağın bərpası bütün türk dünyası üçün mühüm tarixi quruculuq prosesidir"

**"Qarabağın bərpası bu gün təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşıyan tarixi quruculuq prosesidir. Özbəkistan ilk gündən bu nəcib təşəbbüsü dəstəkləyib və azad olunmuş ərazilərin bərpası və inkişafına praktiki töhfə verir.**



Bu sözləri AZƏRTAC-a müsahibəsində **Qlobal Cənub QHT Platformasının üzvü, Özbəkistanın Qardaşlaşmış Şəhərlər Alyansının sədri Zakir ABİDOV** deyib. "Özbəkistanın iştirakı ilə Qarabağda müasir sosial infrastrukturun yaradılması, məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin və digər sosial obyektlərin tikintisi istiqamətində mühüm layihələr həyata keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağın bərpası prosesində ilk yardım əlini uzadan ölkə məhz Özbəkistan olub. Füzuli şəhərində inşa edilərək istifadəyə verilmiş müasir ümumtəhsil məktəbi xalqlarımız arasında qardaşlıq və dostluğun parlaq rəmzinə çevrilib", - deyə Z.Abidov bildirib.

Onun sözlərinə görə, Özbəkistan investisiyalarının iştirakı ilə Qarabağda yaradılan ilk yüngül sənaye müəssisəsi burada yeni iş yerlərinin açılmasına, regionun iqtisadiyyatının dirçəldilməsinə və yerli istehsalın inkişafına töhfə verəcək.

# Azərbaycan-Almaniya Biznes Şurası uzunmüddətli iqtisadi tərəfdaşlığın güclənməsinə xidmət edəcək

**Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri Azərbaycan ilə bu ölkə arasında münasibətlərin yeni məzmun qazandığını göstərən mühüm siyasi hadisələrdən biri oldu. Səfər çərçivəsində keçirilən görüşlərdə iqtisadi əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı investisiyaların artırılması, sənaye, "yaşıl enerji", nəqliyyat, logistika və rəqəmsal inkişaf sahələrində birgə fəaliyyətin gücləndirilməsi əsas müzakirə mövzularından idi. Dövlət rəhbərləri tərəfindən verilən bəyanatlar onu deməyə əsas verir ki, hər iki ölkə mövcud əməkdaşlığı daha konkret layihələrlə zənginləşdirmək niyyətindədir.**

**Milli Məclisin deputatı Aydın HÜSEYNOV** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli xarici siyasət Azərbaycanın Avropa ölkələri ilə münasibətlərinə yeni dinamika gətirib. Almaniya ilə əlaqələr də bu siyasətin vacib istiqamətlərindən biri kimi inkişaf edir. Qarşılıqlı hörmətə və ortaq maraqlara əsaslanan siyasi dialoq iqtisadi əməkdaşlığın da dərinləşməsi üçün möhkəm zəmin formalaşdırıb. Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması da məhz bu siyasi iradənin və qarşılıqlı etimadın praktik nəticəsi kimi dəyərləndirilməlidir. "Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması iş adamlarının bir masa arxasında toplanmasına, ortaq maraqların müəyyənləşdirilməsinə və yeni biznes əlaqələrinin qurulmasına xidmət edəcək. Belə platformalar sahibkarların bir-birini daha yaxından tanımasına, bazarın tələblərini öyrənməsinə və uzunmüddətli tərəfdaşlıqların formalaşmasına mühüm töhfə verir", - deyə o əlavə edib.



Azərbaycanla Almaniya arasında iqtisadi münasibətlərin uzun illərdir davam etdiyini qeyd edən deputat bildirib ki, bu əməkdaşlıq getdikcə daha geniş sahələri əhatə edir. Qarşıda duran əsas vəzifə mövcud potensialı konkret iqtisadi nəticələrə çevirməkdir. Biznes Şurası bu istiqamətdə görülən işlərin daha çevik və səmərəli təşkilinə dəstək verəcək. Sahibkarlar burada qarşılıqlı maraq doğuran məsələləri müzakirə edəcək, yeni əməkdaşlıq istiqamətlərini müəyyənləşdirəcək və birgə layihələrin icrasını sürətləndirəcəklər.

A.Hüseynov diqqətə çatdırıb ki, Almaniya sənaye, mühəndislik, innovasiya və yüksək texnologiyalar sahəsində dünyanın aparıcı ölkələrindən biridir: "Azərbaycan isə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, sənaye istehsalının artırılması və "yaşıl iqtisadiyyat"a keçid istiqamətində ardıcıl addımlar atır. Bu baxımdan iki ölkənin maraqları bir-birini tamamlayır. Xüsusilə bərpaolunan enerji, logistika, rəqəmsal texnologiyalar, kənd təsərrüfatı, peşə təhsili və sənaye kooperasiyası üzrə əməkdaşlığın daha da genişlənməsi üçün kifayət qədər böyük potensial mövcuddur. Beynəlxalq təcrübə göstərir ki, xarici investor üçün ən vacib amillərdən biri etibarlı tərəfdaş və sabit biznes mühitidir. Şirkətlər bazarı daha yaxından tanıdıqca, hüquqi çərçivə və iqtisadi imkanlar barədə daha dolğun məlumat əldə etdikcə yeni investisiya qərarlarının sayı da artır. Biznes Şurası sahibkarlar arasında birbaşa dialoqu gücləndirməklə bu etimadın möhkəmlənməsinə öz töhfəsini verəcək".

Bununla Azərbaycan şirkətləri üçün də yeni imkanlar açıldığını deyən deputat əlavə edib ki, Almaniya bazarına çıxışın genişlənməsi, birgə istehsal layihələrinin həyata keçirilməsi və müasir texnologiyaların tətbiqi yerli müəssisələrin rəqabət qabiliyyətini yüksəldə bilər. Bu əməkdaşlıq kiçik və orta sahibkarlıq subyektlərinin beynəlxalq bazarlara inteqrasiyasını da artıracaq.

A.Hüseynov hesab edir ki, Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri zamanı müəyyənləşdirilən iqtisadi hədəflərin həyata keçirilməsi baxımından mühüm mexanizmlərdən birinə çevriləcək: "Bu platforma qarşılıqlı ticarətin artmasına, investisiya layihələrinin sayının çoxalmasına və yeni biznes təşəbbüslərinin reallaşmasına müsbət təsir göstərə bilər. Ən başlıcası isə odur ki, siyasi dialoq nəticəsində formalaşan qarşılıqlı etimad işgüzar dairələr arasında da möhkəmlənəcək və bu, Azərbaycan ilə Almaniya arasında uzunmüddətli iqtisadi tərəfdaşlığın daha da güclənməsinə xidmət edəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın liderlik missiyası

## Ölkəmiz beynəlxalq təşkilatlara sədrlik etdiyi dönəmdə uğurlu fəaliyyəti, aktivliyi və xüsusi təşəbbüskarlığı ilə seçilir

**Hazırda dünyanın geosiyasi mənzərəsi qütbləşmə və ziddiyyətlərlə xarakterizə olunur. Müxtəlif maraqların, fərqli siyasi sistemlərin və strateji ambisiyaların toqquşduğu regionlarda ortaq dialoq mühiti yaratmaq, təşəbbüskarlığı ələ almaq və fəal əməkdaşlığı təmin etmək xüsusi diplomatik məharət və güclü liderlik iradəsi tələb edir. Məhz belə mürəkkəb bir şəraitdə uğurlu diplomatiyası və prinsipial mövqeyi ilə seçilən Azərbaycan qlobal arenada etibarlı körpü rolunu oynamaq bacarığını nümayiş etdirir.**



Azərbaycan öz xarici siyasətində çoxşaxəlilik və beynəlxalq hüquqa hörmət prinsiplərini əsas götürərək, üzvü olduğu və rəhbərlik etdiyi bütün beynəlxalq platformalarda səmərəli inteqrasiya layihələrini uğurla həyata keçirir. Ölkəmiz müxtəlif coğrafiyaları, siyasi baxışları və ideologiyaları vahid masa ətrafında birləşdirən etibarlı diplomatik mərkəz statusunu beynəlxalq qurumlara sədrlik etdiyi dövrlərdə daha da möhkəmləndirib. Azərbaycanın rəhbərlik etdiyi hər bir beynəlxalq təşkilat, sadəcə, müzakirə platforması olmayıb, eyni zamanda institusional baxımdan güclənən, qlobal nüfuzu və praktiki təsir imkanları artan dinamik bir mexanizmə çevrilib.

Bu uğurlu xarici siyasət kursunun məntiqi davamı olaraq, ölkəmiz 2024-cü ildən etibarən Asiyanın ən böyük dialoq platformalarından biri sayılan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) uğurla sədrlik edir. 28 üzv dövlətin yekdil konsensusu ilə rəhbərliyə seçilən Azərbaycan öz fəaliyyətini "Daha güclü AQEM: rəqəmsallaşma, bağlantılar və Asiyada dayanıqlı inkişaf" konseptual xətti üzərində qurub.

Cari il iyulun 22-də Astana şəhərində Azərbaycanın Sədrliyi altında AQEM Yüksək Səviyyəli Şəxslər Komitəsinin növbəti iclası keçirilib. İclasda üzv dövlətlər arasında etimadın gücləndirilməsi, bağlantıların artırılması və rəqəmsallaşma istiqamətində görülən işlər geniş müzakirə olunub. Eyni zamanda 2022-ci il Astana Bəyannaməsi ilə təməli qoyulmuş və AQEM-in məşvərətçi platformadan tamhüquqlu beynəlxalq təşkilata çevrilməsini nəzərdə tutan transformasiya prosesində əldə olunan irəliləyişlər gözlənilən nəticə kimi qiymətləndirilib. Azərbaycan bu institusional dəyişikliyə birbaşa liderlik edərək, bu ilin payızında Bakıda keçiriləcək AQEM Zirvə görüşünədək təşkilatın Nizamnaməsini yekunlaşdırmağı və institusiyalaşmanı tam başa çatdırmağı hədəfləyir.

Ölkəmiz AQEM daxilində təhlükəsiz və səmərəli nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi üzrə əlaqələndirici dövlətdir. Orta dəhliz və "Şimal-Cənub" nəqliyyat marşrutlarının strateji kəsişməsində yerləşən Azərbaycan Asiyanın nəqliyyat xəritəsinin rəqəmsallaşdırılmasına və limanlararası şəbəkənin gücləndirilməsinə rəhbərlik edir. Təsadüfi deyil ki, 2025-ci ildə reallaşdırılan 44 etimad-quruculuq tədbirinin 20-dən çoxu məhz rəsmi Bakının təşəbbüsü ilə irəli sürülüb. Bura rəqəmsal iqtisadiyyat, "yaşıl enerji"yə keçid və ekoloji təhlükəsizlik sahələrini əhatə edən layihələr daxildir.

Uzun illər daha çox müzakirə klubu təəssüratı bağışlayan AQEM-ə ölkəmiz tərəfindən nəqliyyat-logistika, rəqəmsallaşma və enerji təhlükəsizliyi kimi konkret layihələrin gətirilməsi təşkilatın əhəmiyyətini köklü surətdə artırıb. Təxminən 4 milyarda yaxın insanın məskunlaşdığı Asiya qitəsində təhlükəsizlik və inkişafın təmin olunması baxımından AQEM-in potensialı böyükdür. Ölkəmiz BMT, ŞƏT, Türk Dövlətləri Təşkilatı və Ərəb Dövlətləri Liqası kimi qlobal və regional strukturlarla AQEM arasında sıx tərəfdaşlıq körpüləri qurur. Payızda Bakıda təşkil olunacaq AQEM-in Zirvə görüşü də bu qurumun tarixində yeni dönüş nöqtəsi olacaq.

Azərbaycanın AQEM-də ortaya qoyduğu nümunəvi liderlik modeli ölkəmizin illər ərzində müxtəlif beynəlxalq qurumlara uğurlu rəhbərlik təcrübəsinə söykənir. Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi də təşkilatın tarixində institusionallaşma dövrü kimi xarakterizə edilir. Həmin dövrdə ölkəmiz pandemiya ilə mübarizədə "peyvənd millətçiliyi"nə qarşı çıxaraq, BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinə nail oldu. Azərbaycanın QH-yə sədrliyi dövründə qurumun Parlament Şəbəkəsi, Gənclər Təşkilatı və Qadınlar Platforması yaradıldı. Məhz dövlətimizin uğurlu fəaliyyəti nəticəsində üzv dövlətlərin yekdil qərarı ilə Azərbaycanın sədrlik müddəti daha bir il uzadıldı.

Azərbaycanın 2019-2021-ci illərdə Türk Dövlətləri Təşkilatına sədrlik dövrü də türk dünyasının birliyinin yeni mərhələyə keçməsini təmin etdi, türk dövlətlərinin iqtisadi, nəqliyyat və humanitar sahələrdə inteqrasiyası sürətləndi.

2012-2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu dövrdəki sədrlik fəaliyyəti ölkəmizin diplomatiyasının ən böyük uğurlarından biri sayılır. O dövrdə Azərbaycanın sədrliyi ilə terrorizmlə mübarizəyə dair yüksəksəviyyəli iclaslar keçirilmiş, qlobal sülh və təhlükəsizliyin qorunmasında hüququn aliliyi prinsipi müdafiə olunmuşdu.

2014-cü ildə ölkəmizin Avropa Şurası Nazirlər Komitəsinə altıaylıq sədrliyi dövründə də Azərbaycan Avropanın hüquqi və humanitar məkanında mühüm gündəlik formalaşdırdı. Korrupsiya ilə mübarizə, mədəniyyətlərarası dialoq və gənclər siyasəti ölkəmizin sədrliyinin əsas mövzuları idi.

Bakının beynəlxalq qurumlardakı fəallığı qlobal əməkdaşlığın qurulmasına mühüm töhfələr verir. Azərbaycanın humanitar təşəbbüsləri ölkəmizin mədəniyyətlərarası dialoq və inklüziv inkişafın mərkəzi olduğunu nümayiş etdirir. Xüsusi vurğulamaq lazımdır ki, coğrafi baxımdan Avropa ilə Asiyanın qovuşduğu strateji məkanda yerləşən Azərbaycan öz infrastrukturunu müasirləşdirərək qlobal ticarət yollarının aparıcı mərkəzinə çevrilib. Mövcud enerji və logistika layihələri, regional və qlobal bağlantılar AQEM və digər tərəfdaş dövlətlər üçün böyük iqtisadi imkanlar yaradır.

Nəticə etibarilə Azərbaycanın beynəlxalq platformalara uğurlu sədrliyi qlobal müzakirə mövzularına və əməkdaşlıq formatına yeni məzmun, dinamika və etimad mühiti gətirən strateji missiyadır. Bakı sədrlik etdiyi hər beynəlxalq təşkilatı qlobal həmrəyliyin və tərəfdaşlığın unikal platformasına çevirir. Bu yanaşma ölkəmizin yalnız regionda deyil, qlobal miqyasda sülhün, təhlükəsizliyin və çoxşaxəli əməkdaşlığın həlledici mərkəzi olduğunu bir daha təsdiqləyir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# *Bundestaqın deputatı:* "Azərbaycan-Almaniya tərəfdaşlığı yeni institusional mexanizmlərlə güclənir"

**Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri iki ölkə arasında münasibətlərdə yeni siyasi və iqtisadi dinamikanın formalaşdığı bir dövrə təsadüf edir. Səfər çərçivəsində aparılan müzakirələr, imzalanan strateji sənədlər əməkdaşlığın enerji ilə yanaşı, investisiya, texnologiya və nəqliyyat sahələrində də genişləndirilməsinə zəmin yaradır.**



**Almaniya parlamentinin deputatı, Bundestaqın Cənubi Qafqaz ölkələri ilə əlaqələr üzrə parlamentlərarası dostluq qrupunun üzvü Macit KARAAHMETOĞLU** AZƏRTAC-a müsahibəsində bu tarixi səfərin əhəmiyyətindən və Azərbaycan-Almaniya tərəfdaşlığının perspektivlərindən söz açıb.

*- Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri Azərbaycan-Almaniya əlaqələrində yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilə bilər. Bu səfərin iki ölkə arasında siyasi əlaqələrin inkişafı və yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətini necə dəyərləndirirsiniz?*

- Prezident İlham Əliyevin Berlinə rəsmi səfəri Almaniya-Azərbaycan əlaqələrinin daha institusional və strateji əsasda inkişaf etdirilməsi baxımından mühüm dönüş nöqtəsidir. İmzalanan İkitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə təkcə bu gün üçün deyil, qarşıdakı illərlə bağlı da əməkdaşlığın çərçivəsini müəyyənləşdirməkdədir. Almaniya üçün Azərbaycan Cənubi Qafqazda ən mühüm iqtisadi tərəfdaşlardan biridir. Almaniya Federal Xarici İşlər Nazirliyinin məlumatına görə, 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi təxminən 1,7 milyard avroya çatıb. Almaniyanın Azərbaycandan idxalının həcmi təxminən 1,1 milyard avro, ixracının səviyyəsi isə 620 milyon avro təşkil edib. Bu göstəricilər mövcud əməkdaşlığın güclü olduğunu, lakin potensialın hələ tam reallaşdırılmadığını nümayiş etdirir.

Sevindirici hal odur ki, münasibətlər artıq təkcə enerji sahəsi ilə məhdudlaşmır, sənaye, rəqəmsal transformasiya, nəqliyyat, elm, təhsil və "yaşıl iqtisadiyyat" kimi prioritet istiqamətləri də əhatə edir. Eyni zamanda Almaniya üçün iqtisadi tərəfdaşlıq hüququn aliliyi, beynəlxalq hüquq və insan hüquqları prinsiplərinə alternativ deyil, onları tamamlayan amildir.

Mən də Almaniya Bundestaqında Cənubi Qafqaz üzrə parlament qrupunun Sosial Demokrat Partiyasının (SPD) sözçüsü kimi Azərbaycan ilə Almaniya arasında münasibətləri yaxından izləyirəm. Bu vəzifəm çərçivəsində daha əvvəl Azərbaycana etdiyim səfər sayəsində ölkəni yaxından tanımaq imkanım oldu. Həmin səfərin Azərbaycandakı prosesləri daha ətraflı dəyərləndirməyimə və aktual prosesləri daha aydın təhlil etməyimə mühüm töhfə verməsindən məmnunam.

*- Səfər çərçivəsində Azərbaycan ilə Almaniya arasında İkitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə imzalandı və Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması qərara alındı. Bu addımları ikitərəfli münasibətlərin institusionallaşması və xüsusilə iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından necə dəyərləndirirsiniz? Bu mexanizmlər hansı konkret nəticələr verə bilər?*

- Azərbaycan ilə Almaniya arasında İkitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamənin imzalanmasını və Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması barədə qərarı olduqca mühüm addım hesab edirəm. Çünki güclü iqtisadi əlaqələrin inkişafı üçün möhkəm institusional mexanizmlərə ehtiyac var.

İmzalanmış bəyannamədə ticarət, investisiya, "yaşıl enerji", hidrogen, nəqliyyat, logistika, rəqəmsallaşma, kənd təsərrüfatı, sənayenin modernləşdirilməsi və texnologiya transferi kimi geniş istiqamətlər üzrə əməkdaşlıq çərçivəsi müəyyənləşdirilib. Bu isə münasibətlərin təkcə təbii qaz ticarəti ilə məhdudlaşmayacağını açıq şəkildə göstərir.

Hazırda Azərbaycanda 200-dən çox Almaniya şirkəti fəaliyyət göstərir. Yaradılacaq Biznes Şurasının əsas vəzifələrindən biri bu rəqəmi artırmaq, xüsusilə kiçik və orta biznesin investisiya imkanlarının asanlaşdırılması, birgə istehsal layihələrinin dəstəklənməsi və alman texnologiyaları ilə Azərbaycanın inkişaf edən bazarının daha sıx əlaqələndirilməsi olacaq.

Təxminən 1,7 milyard avroluq ticarət dövriyyəsi mühüm başlanğıcdır. Lakin əsas uğur yeni investisiyaların cəlb olunması, əlavə iş yerlərinin yaradılması və birgə sənaye layihələrinin həyata keçirilməsi ilə ölçüləcək. Hesab edirəm ki, bu əməkdaşlıq mexanizmləri hər iki ölkə üçün faydalı olacaq, konkret və uzunmüddətli nəticələrin əldə edilməsinə mühüm töhfə verəcək.

*- Hazırda Avropa enerji təhlükəsizliyi və təchizat zəncirlərinin şaxələndirilməsi baxımından mühüm mərhələdən keçir. Bu kontekstdə Almaniya Kansleri Fridrix Mertsin Azərbaycandan təbii qazın idxalının artırılmasına dair açıqlamasını necə dəyərləndirirsiniz? Həmçinin geosiyasi gərginliklərin artdığı bir dövrdə Azərbaycanın Orta dəhliz və nəqliyyat-logistika bağlantıları vasitəsilə Avropa, xüsusilə də Almaniya üçün daşıdığı strateji əhəmiyyəti necə qiymətləndirirsiniz?*

- Rusiya-Ukrayna müharibəsindən sonra Avropanın əsas hədəflərindən biri enerji mənbələrinin şaxələndirilməsi oldu. Bu baxımdan Almaniyanın Azərbaycan ilə enerji sahəsində əməkdaşlığı genişləndirməsini strateji baxımdan düzgün addım hesab edirəm.

Avropa Komissiyasının məlumatlarına görə, Azərbaycanın Avropa İttifaqına təbii qaz ixracı son üç il ərzində 40 faizdən çox artıb. 2024-cü ildə Avropa İttifaqı ölkələrinə təxminən 13 milyard kubmetr təbii qaz tədarük olunub. Almaniyanın da 2026-cı ildən Azərbaycan qazı almağa başlaması Avropanın enerji təchizatının şaxələndirilməsi siyasətinin mühüm hissəsidir.

Azərbaycanın əhəmiyyəti təkcə enerji ilə məhdudlaşmır. Orta dəhliz Çin və Mərkəzi Asiyanı Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropa ilə birləşdirən ən mühüm alternativ ticarət marşrutlarından birinə çevrilməkdədir. Dünya Bankının qiymətləndirmələrinə görə, zəruri investisiyaların həyata keçirildiyi təqdirdə bu dəhliz üzrə ticarət həcmi 2030-cu ilədək üç dəfə arta bilər. Bu dəhliz Almaniya üçün təkcə logistika xətti deyil, sənayemizin ehtiyac duyduğu kritik xammal, məhsul və təchizat zəncirlərinin təhlükəsizliyi baxımından da strateji əhəmiyyət daşıyır. Avropanın iqtisadi dayanıqlılığı artıq yalnız istehsal gücü ilə deyil, etibarlı nəqliyyat və enerji şəbəkələri qura bilməsi ilə də ölçüləcək.

Fikrimcə, Almaniya ilə Azərbaycan arasında əməkdaşlıq daha da gücləndirilməlidir. Lakin bu inkişaf hüququn aliliyi, davamlılıq, qarşılıqlı etimad və beynəlxalq hüquq prinsipləri əsasında həyata keçirildiyi halda həm iki ölkə, həm də bütövlükdə Avropa üçün əsl strateji üstünlüyə çevriləcək.

Buna görə də düzgün diplomatik münasibətlər və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq sayəsində Azərbaycanın Avropanın enerji təhlükəsizliyi, ticarət marşrutları və regional sabitliyi baxımından strateji əhəmiyyətinin qarşıdakı illərdə daha da artacağına inanıram.

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsi dövlət ittihamını müdafiə edən prokurorların çıxışları ilə davam etdirilib

İyulun 24-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların çıxışları ilə davam etdirilib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin törətdiyi çoxsaylı cinayət faktlarını məhkəmənin diqqətinə çatdırıb.

O həmçinin təqsirləndirilən Arayik Harutyunyanın Ermənistan tərəfindən yaradılan və himayə olunan cinayətkar birlikdəki roluna dair sübutlara istinad edərək, onun apellyasiya şikayətinin əsassız olduğunu bildirib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə prokuroru Anar Ələkbərov vaxtilə Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın suveren ərazilərində törədilən çoxsaylı cinayətlər üzrə toplanmış sübutları təqdim edib.

Anar Ələkbərov həmçinin Bako Sahakyanın cinayətkar fəaliyyətinə dair konkret sübutlara diqqət çəkərək təqsirləndirilən şəxsin apellyasiya şikayətinin əsassız olduğunu məhkəmənin diqqətinə çatdırıb.

Dövlət ittihamının müdafiəsi üzrə idarənin şöbə prokuroru Sevinc Qasımova isə Arkadi Qukasyanın ittiham olunduğu cinayətlərə dair sübutlara istinad edərək, onun apellyasiya şikayətinin əsassız olduğunu bildirib.

Dövlət ittihamını müdafiə edən prokurorlar, həmçinin bildiriblər ki, birinci instansiya məhkəməsində cinayət işi üzrə bütün sübutlar hərtərəfli, tam və obyektiv qaydada araşdırılıb, iş materiallarında əksini tapan hallar zərərçəkmiş şəxslərin və şahidlərin ifadələri, məhkəmə ekspertizalarının rəyləri, maddi sübutlar, sənədlər, hadisə yerinə baxış protokolları və digər sübutlarla təsdiq edilib.

İttiham tərəfi çıxışlarında təqsirləndirilən şəxslərin apellyasiya şikayətlərinin əsassız olduğunu bildirərək arqumentlərini səsləndiriblər.

Məhkəmənin növbəti iclası iyulun 27-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Dövlət Neft Fondu yarım ilin hesabatını açıqlayıb

### Fondun 72,6 milyard dollar aktivləri var

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) 2026-cı ilin yanvar-iyun ayları üzrə gəlir və xərclərinə dair məlumat yayıb.Məlumatda bildirilir ki, göstərilən dövrdə fondun aktivləri 72,6 milyard dollar (123 milyard manat) təşkil edib. Vəsaitlərin idarə edilməsi fəaliyyətindən əldə olunan gəlirlər 3,6 milyard manat, neft-qaz sazişləri üzrə karbohidrogenlərin satışından gəlirlər 4,9 milyard manat olub. Dövlət büdcəsinə ARDNF tərəfindən 6,4 milyard manat köçürülüb.**

Məlumatda eləcə də nəzərə çatdırılır ki, bu ilin əvvəlinə fondun aktivləri 73 milyard 542 milyon dollar (125 milyard 21 milyon manat), iyun ayının 30-na 72 milyard 596 milyon dollar (123 milyard 414 milyon manat) təşkil edib. Yanvar-iyun ayları ərzində ARDNF-nin ümumi gəlirləri 8 milyard 531,3 milyon manat, neft-qaz gəlirləri 4 milyard 953,4 milyon manat olub. Vəsaitlərin idarə edilməsi fəaliyyətindən əldə olunan toplam gəlirlər 3 milyard 577,9 milyon manat təşkil edib. Hesabat dövrü üzrə büdcə xərcləri də açıqlanıb: 6 milyard 449,7 milyon manat.

Neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı olan 4 milyard 953,4 milyon manat gəlirlərin 4 milyard 947,6 milyon manatı mənfəət neftinin və qazın satışındandır. Bonus ödənişləri və tranzit gəlirləri 0,9 milyon manat, akrhesabı ödənişləri 4,9 milyon manat təşkil edib. Sözügedən dövr ərzində ARDNF-yə "Azəri-Çıraq-Günəşli" yataqlarından 4 milyard 374,9 milyon manat, "Şahdəniz" yatağından (qaz və kondensat) isə 437,1 milyon manat məbləğində vəsait daxil olub.

Büdcə xərclərinə gəldikdə isə bildirilir ki, hesabat dövrü ərzində fondun 2026-cı il büdcəsinin icrası çərçivəsində 6 milyard 420 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Birinci yarımillikdə icrası davam edən layihələrə 14,3 milyon manat yönəldilib. O cümlədən "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 2,1 milyon manat, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nın maliyyələşməsinə 12,3 milyon manat.

Sözügedən dövrdə ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 15,4 milyon manat təşkil edib. Qızılın qiymətinin və valyuta məzənnələrinin dəyişməsindən 3 milyard 688,1 milyon manat büdcədənkənar xərc yaranıb.

Bəs maliyyə bazarlarının cari vəziyyəti və portfelə təsiri necə olub? Cari ilin birinci rübündə başlanan ABŞ-İran münaqişəsi nəticəsində qlobal maliyyə və enerji bazarlarında yüksək volatillik müşahidə olunub və müharibə bütün investisiya istiqamətlərinə mənfi təsir göstərib. İkinci rüb ərzində isə müxtəlif maliyyə alətləri üzrə qiymətlər bərpa olunub. Müsbət gəlirlilik əldə edilib, qızıl isə idarəetmədə olan ümumi vəsaitlərə mənfi töhfə verib.

Birinci rübün əvvəlində investorların etibarlı aktivlərə yönəlməsi dövlət istiqrazlarının qiymətlərini dəstəkləyib. Rübün sonlarından etibarən bu meyil əksinə dönüb, neft qiymətlərinin kəskin artımı inflyasiya gözləntilərini yenidən gücləndirib və inkişaf etmiş ölkələrin bazarlarında istiqrazların dəyər itirməsinə səbəb olub. Enerji qiymətlərindən qaynaqlanan inflyasiya təzyiqi ən çox Avropa bazarlarına təsir edib, ABŞ dolları istiqraz subportfeli isə dövr ərzində nisbi dayanıqlılıq nümayiş etdirib.

Qlobal səhm bazarları birinci rübün əvvəlində müsbət nəticələr göstərib, lakin İran münaqişəsinin kəskinləşməsi və geosiyasi risklərin artması səbəbindən birinci rübün qalan hissəsində geriləyib. İkinci rübdə bazarlarda bərpa müşahidə edilib, süni intellekt sahəsinə investisiya marağı və atəşkəs danışıqları fonunda neft qiymətlərinin ucuzlaşması hesabına bu rüb 2020-ci ildən bəri səhm bazarları üçün ən uğurlu rüb olub. İkinci rübün sonunda texnologiya şirkətlərinin yüksək qiymətləndirilməsi ilə bağlı narahatlıqlar yarımkeçirici sektorunun səhmlərinə mənfi təsir göstərib və volatillik yenidən artıb.

Qızılın qiymətinin birinci rübün əvvəlində kəskin artmasına ABŞ dollarının zəifləməsi və investorların dövlət istiqrazları və valyutalardan real aktivlərə yönəlməsi kimi struktur amillər səbəb olub. Birinci rübün sonunda isə qiymətlər kəskin azalıb və real faiz dərəcələrinin artımı fonunda bu eniş ikinci rüb ərzində davam edib.

Qeyd edək ki, ARDNF Azərbaycanın neft-qaz sərvətlərinin xalqa davamlı şəkildə xeyir-bərəkət gətirməsi məqsədilə yaradılıb. Bu barədə fərmanı Ümummilli Lider Heydər Əliyev 1999-cu il dekabrın 29-da imzalayıb. Bir il sonra - 2000-ci il dekabrın 29-da Ulu Öndərin növbəti fərmanı ilə ARDNF-nin Əsasnaməsi təsdiq olunub. Bundan yarım il sonra isə daha bir fərmanla fondun vəsaitlərinin yerləşdirilməsi qaydaları təsdiq edilib və qurum əməli fəaliyyətə başlayıb.

ARDNF-nin fəaliyyəti xeyirxah, məqsədyönlü və uzaqgörən siyasət əsasında qurulub. Qurumun qarşısında çox mühüm vəzifələr dayanır ki, onlardan da ölkədə makroiqtisadi sabitliyin qorunması, neft gəlirlərindən asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və s. xüsusilə əhəmiyyətli yer tutur. Fondun fəaliyyəti eləcə də ölkənin sosial-iqtisadi tərəqqisi naminə nəhəng ümummilli layihələrin maliyyələşdirilməsinə yönəldilib.

Neft ehtiyatlarının bərpa olunmadığı, yəni hasil edildikcə tükəndiyi hamıya yaxşı məlumdur. Ona görə neft fondunun ən başlıca vəzifələrindən biri gəlirlərin nəsillər arasında bərabər bölüşdürülməsi, gələcək üçün ehtiyat vəsaitlərin toplanmasıdır.

Azərbaycan Respublikası Dövlət Neft Fondu yüksək reytinqə malik bir qurumdur. Belə ki, bu fond beynəlxalq tədqiqatlara əsasən, dünyanın ən şəffaf suveren fondları arasında lider mövqelərdə, o cümlədən ilk beşlikdə qərarlaşıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan Rumıniya üçün alternativ neft tədarükçülərindən biri kimi nəzərdən keçirilir

**Qazaxıstandan Xəzər Boru Kəməri Konsorsiumu (CPC) vasitəsilə neft tədarükünün dayandırılması Rumıniyada enerji təhlükəsizliyi ilə bağlı narahatlığı artırıb.**

Bununla əlaqədar Rumıniya Energetika Nazirliyində əsas neft və yanacaq bazarı iştirakçılarının iştirakı ilə təcili texniki iclas keçirilib. AZƏRTAC xəbər verir ki, bu barədə Rumıniyanın "Digi24" televiziya kanalı məlumat yayıb.

İclas zamanı ölkənin yanacaqla fasiləsiz təmin olunması üçün bütün mümkün ssenarilər müzakirə edilib. Rəsmilər vəziyyətin inkişafından asılı olaraq strateji neft ehtiyatlarından istifadə imkanını da nəzərdən keçiriblər.

"Digi24"ün məlumatına görə, alternativ tədarük mənbələri sırasında Azərbaycan xüsusi olaraq qeyd olunur. Rumıniya hakimiyyəti və enerji şirkətləri Azərbaycan neftinin idxalının artırılması imkanlarını, eləcə də Yaxın Şərqdən əlavə xam neft tədarükünü qiymətləndirirlər. Məqsəd Qazaxıstandan tədarükdə yarana biləcək fasilələrin Rumıniya bazarına təsirini minimuma endirməkdir.

Hazırda Rumıniya idxal etdiyi xam neftin böyük hissəsini Qazaxıstandan alır. CPC marşrutunda yaranmış problemlər ölkənin əsas neft emalı müəssisələri olan "Petromidia" və "Petrobrazi" zavodlarının fəaliyyətinə təsir göstərə biləcək əsas risklərdən biri hesab edilir.

Rumıniya hökuməti vəziyyətə tam nəzarət edildiyini bildirir. Energetika Nazirliyi bazarda yanacaq qıtlığının yaranmaması üçün bütün alternativ tədarük marşrutlarının və mənbələrinin qiymətləndirildiyini, zərurət yaranacağı təqdirdə əlavə tədbirlərin görüləcəyini açıqlayıb.

## Samuxda kənd təsərrüfatının inkişafı yolları müzakirə olunub

**Samuxda "2026-2030-cu illərdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair iş planı"nın hazırlanmasına həsr olunmuş müşavirə keçirilmişdir.**

Tədbirdə Prezident İlham Əliyevin aqrar sahənin inkişafı ilə bağlı mayın 25-də keçirdiyi müşavirədə verdiyi tapşırıqların icrası, həmçinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr ətrafında geniş müzakirələr aparılmışdır.

Rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev çıxış edərək bildirmişdir ki, ölkədə aqrar sahənin davamlı inkişafı istiqamətində həyata keçirilən tədbirlər kənd təsərrüfatının müasir tələblər əsasında inkişafına, ərzaq təhlükəsizliyinin daha da möhkəmlənməsinə, istehsalın və emal sənayesinin genişlənməsinə mühüm töhfələr verir: "Qəbul olunmuş dövlət proqramı isə kənd təsərrüfatının bütün istiqamətləri üzrə yeni inkişaf mərhələsinin formalaşmasına xidmət edir. Bu baxımdan Samux rayonunda hazırlanacaq 2026-2030-cu illəri əhatə edən iş planı dövlət proqramında müəyyən edilmiş prioritetlərə uyğun formalaşdırılmalıdır. Odur ki, qəbul ediləcək iş planında rayonun mövcud aqrar potensialı, təbii-iqlim şəraiti, torpaq və su ehtiyatları, istehsal imkanları və statistik göstəricilər əsasında konkret hədəflər əks olunmalıdır. Bunun üçün hər bir istiqamət üzrə görüləcək tədbirlər təsərrüfat subyektlərinin real imkanları nəzərə alınmaqla planlaşdırılmalı, istehsalın səmərəliliyinin yüksəldilməsi, emal müəssisələrinin inkişafı, innovativ texnologiyaların tətbiqi, aqrar sahədə rəqabətqabiliyyətliliyin və ixrac potensialının artırılması, həmçinin kənd




yerlərində məşğulluğun genişləndirilməsi əsas prioritetlər kimi müəyyən edilməlidir".

Müşavirədə qeyd edilmişdir ki, dövlət proqramından irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icrasının təmin olunması, aidiyyəti dövlət qurumları arasında fəaliyyətin əlaqələndirilməsi, yerli icra strukturlarının məsuliyyətinin artırılması, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi, fermerlər və sahibkarlıq subyektləri ilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb. Odur ki, rayon üzrə hazırlanacaq iş planında kənd təsərrüfatı məhsullarının istehsalı və emalının genişləndirilməsi, suvarma infrastrukturunun təkmilləşdirilməsi, torpaq ehtiyatlarından səmərəli istifadə, məhsuldarlığın artırılması, müasir aqrotexniki yanaşmaların tətbiqi, eləcə də heyvandarlıq, bağçılıq, taxılçılıq, balıqçılıq və akvakultura sahələrinin inkişafına dair konkret tədbirlər öz əksini tapmalıdır.

Sonda müzakirə olunan mövzu ətrafında fikir mübadiləsi aparılmış, aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verilmiş, iş planının hazırlanması və qarşıda duran vəzifələrin icrası ilə bağlı müvafiq qərarlar qəbul olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## DOST İmişlidə də fəaliyyətə başlayıb

**DOST xidmətləri şəbəkəsinin regionlarda genişləndirilməsi tədbirlərinin davamı olaraq, İmişli rayonunda yeni DOST filialı fəaliyyətə başlayıb.**



Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev və İmişli Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Mirzə Quliyev burada yaradılmış şəraitlə tanış olub, vətəndaşlara göstərilən xidmətlərin təşkili və iş prosesi ilə maraqlanıblar.

DOST konsepsiyasının dövlət sosial xidmətlərini "bir pəncərə" prinsipi əsasında müasir, operativ və şəffaf formada təqdim etdiyi, bu model üzrə göstərilən xidmətlərdən vətəndaş məmnunluğunun 98,9 faiz olduğu qeyd edilib.

DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov məlumat verib ki, 9 əməkdaşla fəaliyyət göstərəcək filialda gün ərzində orta hesabla 100-ə yaxın vətəndaşa xidmət göstərilməsi planlaşdırılır. İmişli şəhəri, A. Şadlınski küçəsi 8A ünvanında yerləşən filialın 2 mərtəbəli inzibati binası müasir memarlıq həlləri əsasında layihələndirilib. Binanın ümumi sahəsi 698,1 kvadratmetrdir.

A.Əliyev filialda xidmətlərin keyfiyyətlə göstərilməsinin, müraciətlərə operativ baxılmasının, vətəndaş məmnunluğunun daim yüksək səviyyədə saxlanılmasının vacibliyini vurğulayaraq müvafiq tapşırıq və tövsiyələrini çatdırıb. İmişli filialının da istifadəyə verilməsi ilə hazırda ölkə üzrə 7 DOST Mərkəzi, 4 DOST filialı və 3 DOST məntəqəsi vətəndaşlara xidmət göstərir.

## *Sənaye zonaları:* istehsalın çeşidi artır, ixracın coğrafiyası genişlənir

**Məlumdur ki, dünyada baş verən hadisələr üzündən qlobal iqtisadiyyatda müəyyən çətinliklər yaranıb. Davam edən neqativ proseslər idxal-ixrac əməliyyatlarından yan keçməyib. Odur ki, yerli istehsalın inkişafı bu gün daha vacib əhəmiyyət kəsb edir.**

Azərbaycanda qeyri-neft-qaz məhsulları istehsalında önəmli yeri sənaye zonaları tutur. Burada istehsal olunan məhsullar ölkənin idxaldan asılılığını azaltmaqla yanaşı, ixracın artmasına da töhfə verir. Ağdam Sənaye Parkının rezidentinin həyata keçirdiyi ixrac Qarabağda istehsal olunan sənaye məhsullarının beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi istiqamətində atılan növbəti addımdır.

İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkında fəaliyyət göstərən "BAFCO İnvest" MMC 2026-cı ilin ilk 6 ayında Qazaxıstana 8 min cüt xüsusi təyinatlı işçi ayaqqabısı ixrac edib. Müəssisə müxtəlif növ qoruyucu ayaqqabı və poliuretan çəkmələrin istehsalı üzrə ixtisaslaşıb. 2023-cü ilin mart ayında sənaye parkının rezidenti kimi qeydiyyata alınan şirkət Almaniya texnologiyalarının tətbiqi ilə tikinti, sənaye və digər sahələr üçün nəzərdə tutulan geniş çeşidli təhlükəsizlik ayaqqabıları istehsal edir. İnvestisiya dəyəri 10 milyon manatdan çox olan istehsal müəssisəsində 70 nəfərdən çox işçi çalışır ki, onların da əksəriyyəti Ağdam və ətraf rayonların sakinləridir.

Fabrik ildə 510 min cüt ayaqqabı istehsalı gücünə malikdir. Bunun 350 min cütünü təhlükəsizlik ayaqqabıları, 160 min cütünü poliuretan çəkmələr təşkil edir. İstehsal olunan məhsulların 65 faizinin yerli, 35 faizinin xarici bazarlarda satışı nəzərdə tutulur.

Qazaxıstana həyata keçirilən ixrac şirkətin xarici bazarlarda satış coğrafiyasının genişləndirilməsi istiqamətində atdığı addımlardan biridir. İxrac coğrafiyasını genişləndirmək üçün şirkət İtaliya, Portuqaliya, Kanada və Balkan ölkələrinə məhsul nümunələri göndərib. Hazırda potensial tərəfdaşlarla əməkdaşlıq imkanları dəyərləndirilir.

Şirkətin məhsul portfelində yer alan bütün modellər EN ISO 20345 və EN ISO 20347 beynəlxalq standartlarının tələblərinə uyğun sertifikatlaşdırılıb. Bu sertifikatlar məhsulların təhlükəsizlik, keyfiyyət və etibarlılıq göstəricilərinin beynəlxalq tələblərə cavab verdiyini təsdiq edir.



Müəssisənin BAFCO brendi Avropa İttifaqında da əmtəə nişanı kimi rəsmi qeydiyyatdan keçib. Bu, şirkətə Avropa bazarında öz brendi ilə fəaliyyət göstərmək, topdan və pərakəndə satışları həyata keçirmək, eləcə də beynəlxalq marketplace platformalarında məhsullarını təqdim etmək üçün geniş imkanlar yaradır.

Sənaye parklarının müxtəlif sahələr üzrə ixtisaslaşması da vacib məsələdir. Məsələn, Hacıqabul Sənaye Parkı avtomobil istehsalı üzrə ixtisaslaşıb. İndiyədək burada müxtəlif növ avtomobillər istehsal olunub. Sənaye parkının əsas tərəfdaşlarından biri Özbəkistandır. Parkın rezidenti olan "Azərmaş CP" MMC tərəfindən Özbəkistanın "UzAvtoSanoat" SC ilə əməkdaşlıq çərçivəsində bu günədək ümumilikdə 10700-dən çox "Chevrolet" markalı avtomobil istehsal edilib. İstehsal olunan avtomobillər arasında "Labo", "Damas", "Malibu", "Lacetti", "Tracker", "Cobalt", "Nexia", "Spark", "Traverse", "Tahoe", "Equinox", "Onix" və "Captiva" modelləri yer alır.

Bununla yanaşı, sənaye parkında "Azərmaş Park" MMC tərəfindən Özbəkistanın "SamAvto" şirkəti ilə əməkdaşlıq çərçivəsində pikap, yük avtomobili və avtobuslar olmaqla 300-dən artıq "ISUZU" markalı nəqliyyat vasitəsi istehsal olunub.

Sənaye Parkında həyata keçirilən bu cür birgə layihələr ölkədə avtomobil sənayesinin inkişafına, yerli istehsalın genişləndirilməsinə, məşğulluğun və ixrac potensialının artırılmasına töhfə verir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# Mədəniyyət



● “Şəhərsalma və Memarlıq İli”

# İki əsrin dialoqu: Bakıda tarixin və müasirliyin memarlıq harmoniyası





**Dünyada elə şəhərlər var ki, onların şöhrəti yalnız qədimliyi və müasirliyi ilə ölçülmür. Bu şəhərləri fərqləndirən başlıca xüsusiyyət müxtəlif zamanların ruhunu eyni məkanda yaşada bilmələridir. Bakı da məhz belə şəhərlərdəndir. Xəzərin sahilində qərar tutmuş bu qədim şəhər əsrlərin yaddaşını yaşadan daş abidələri ilə müasir memarlığın ən gözəl nümunələrini ahəngdar birləşdirərək keçmişlə gələcək arasında möhtəşəm körpü yaradır.**

Bakı tarixi abidələrin vitrininə çevrilmiş donuq bir şəhər deyil. Burada tarix şəhərin küçələrində yaşayır, qədim daş divarların kölgəsində müasir həyatın ritmi ilə qovuşur. İçərişəhərin əsrlərə meydan oxuyan qala divarları, neft bumu dövrünün möhtəşəm sarayları və şüşə fasadlı müasir tikililər burada birbirinə rəqib deyil, vahid memarlıq düşüncəsinin tamamlayıcı hissələridir. Məhz bu vəhdət Bakıya dünyanın seçilən şəhərləri arasında özünəməxsus sima qazandırır.

"Azneft" meydanından Sahil bağına, Bakı bulvarına və İçərişəhərə qədər uzanan ərazi şəhərin memarlıq salnaməsini əks etdirən böyük tabloya bənzəyir. Xəzərin mavi suları, yaşıllıq zolaqları və müxtəlif dövrlərə məxsus memarlıq inciləri burada bir-birini tamamlayaraq bənzərsiz mənzərə yaradır. Hər addımda zamanın izi duyulur, hər bina isə öz dövrünün ruhunu yaşadır.

Bu harmoniyanın ən parlaq nümunələrindən biri "Azneft" meydanında - Niyazi küçəsinin başlanğıcında üz-üzə dayanan iki möhtəşəm tikilidir. Bir tərəfdə XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakının neft intibahını və milli memarlıq ənənələrini yaşadan Seyid Mirbabayevin sarayı, digər tərəfdə isə müasir Azərbaycanın iqtisadi qüdrətini, beynəlxalq nüfuzunu və qonaqpərvərliyini təcəssüm etdirən Four Seasons Hotel Baku ucalır. Onlar sanki iki müxtəlif əsrin nümayəndələri kimi eyni şəhərin taleyindən söhbət açırlar. Niyazi küçəsi 1 ünvanında yerləşən Seyid Mirbabayevin sarayı XIX əsrin sonlarında Bakının sürətli iqtisadi yüksəlişi dövründə inşa olunmuş ən dəyərli memarlıq abidələrindən biridir. Fransız intibah memarlığı üslubunda tanınmış memar Paul Ştern tərəfindən layihələndirilən bu bina şəhərin memarlıq simasının formalaşmasında mühüm rol oynayıb. Sarayın fasadı daş üzərində zərgər dəqiqliyi ilə işlənmiş incə naxışları, zərif sütunları, plastik həlli və memarlıq elementlərinin mükəmməlliyi ilə seçilir. Bina aradan 100 ildən artıq vaxt keçməsinə baxmayaraq, bu gün də öz əzəmətini qoruyaraq Bakının memarlıq incilərindən biri kimi diqqəti cəlb edir. Bu sarayın dəyəri onun gözəlliyi ilə məhdudlaşmır. Divarlarında Azərbaycanın neft tarixinin yüksəlişi, milli musiqi mədəniyyətinin zənginliyi və insan taleyinin keşməkeşli yolları yaşayır.

Seyid Mirbabayevin həyatı Azərbaycan tarixində nadir rast gəlinən talelərdəndir. O, əvvəlcə ecazkar səsi ilə Bakının ən məşhur xanəndələrindən biri kimi şöhrət qazanmış, sonralar isə təsadüf nəticəsində sahib olduğu neft sahəsinin yüksək məhsuldarlığı sayəsində varlı sənayeçiyə çevrilmişdir. Zamanın siyasi hadisələri onun taleyini də tamamilə dəyişmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra mülkləri müsadirə edilmiş, özü isə doğma vətənini tərk etməyə məcbur qalmışdır. Bir zamanlar şöhrət və firavanlıq içində yaşayan sənətkar ömrünün son illərini Vətən həsrəti ilə keçirməyə məcbur olmuşdur. Elə buna görə də Seyid Mirbabayevin sarayı təkcə zəngin memarlıq nümunəsi deyil, həm də zamanın insan taleyi üzərində buraxdığı silinməz izlərin daş yaddaşıdır. Onun divarları bir dövrün yüksəlişini, digər dövrün isə acı sınaqlarını bu günümüzə səssiz dillə çatdırır.

Azərbaycan Xalq Cümhuriyyəti illərində binanın birinci mərtəbəsində Böyük Britaniya konsulluğunun fəaliyyət göstərməsi də bu tikilinin siyasi və diplomatik tariximizdə mühüm yer tutduğunu göstərir. Sonrakı dövrlərdə müxtəlif dövlət qurumlarının istifadəsində olan saray bu gün dövlət tərəfindən yerli əhəmiyyətli memarlıq abidəsi kimi qorunur və Bakının tarixi simasının ayrılmaz hissəsi olaraq yaşayır.

Seyid Mirbabayevin sarayının düz qarşısında ucalan Four Seasons Hotel Baku müasir Azərbaycanın iqtisadi yüksəlişini, şəhərsalma mədəniyyətini və beynəlxalq turizm potensialını əks etdirən memarlıq nümunələrindəndir. Şüşə fasadı, zərif memarlıq həlli və Xəzər sahilinə açılan möhtəşəm panoramı ilə bu bina XXI əsr Bakısının dinamik inkişafını ifadə edən rəmzlərdən birinə çevrilib.

Buradan bir neçə dəqiqəlik məsafədə yerləşən İçərişəhər, Dənizkənarı Milli Park, Sahil bağı, Milli Xalça Muzeyi, Azərbaycan Milli Musiqi Mərkəzi və digər mədəniyyət ocaqları qonaqlara qədim tarixlə müasir şəhər həyatının eyni məkanda necə təbii şəkildə qovuşduğunu nümayiş etdirir.

Seyid Mirbabayevin sarayı ilə Four Seasons Hotel Baku arasında məsafə cəmi bir neçə addımdır. Amma bu qısa məsafə simvolik baxımdan bir əsrdən artıq zaman yolunu əhatə edir. S.Mirbabayevin sarayı Bakının neft bumu dövrünü, milli memarlıq məktəbinin yüksəlişini və xeyriyyəçilik ənənələrini xatırladır. Hilton Baku isə müstəqil Azərbaycanın iqtisadi inkişafını, beynəlxalq əməkdaşlığını və dünyaya açıqlığını təcəssüm etdirir. Keçmişlə bu gün qarşı-qarşıya dayanmır, bir-birini tamamlayaraq Bakının bütöv memarlıq simasını formalaşdırır.

Elə buna görə də Bakı daşlarda yaşayan yaddaşın, memarlıqda təcəssüm tapan zamanın və nəsilləri bir-birinə bağlayan mədəni irsin canlı salnaməsidir. Onun küçələri tarix danışır, meydanları inkişafı göstərir, memarlığı isə keçmişlə gələcəyin harmoniyasını ifadə edir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Sənət dünyası

**Özünü köklü bakılı sayırdı. "Bakıda doğulub-böyümüşəm, köklü bakılıyam. Atam hərbçi, anam müəllim idi" deyirdi. Hacı Murad Yagizarov 1939-cu il iyulun 18-də Bakıda dünyaya gəlib.**

# 1 teatr, 200 rol

## Səhnəmizin Hacı Muradı Azərbaycan filmlərində çoxsaylı yaddaqalan obrazlar yaradıb



Atası Hacı Əhməd Yagizarov əslən Dağıstanın Buynaksk şəhərindən idi. Varlı ailələrdən olan Yagizarovların 1917-ci il sosialist inqilabından sonra firavanlıq içərisində keçən günlərinə son qoyulub. Sibirə sürgün olunublar. Ailəsi ilə birgə məhrumiyyətlərə düçar edilən Hacı Əhmədin Moskvada rəhbər şəxslərdən birinə müraciəti azadlıqlarına qovuşmaları ilə nəticələnib. Amma Yagizarovlar sürgündən sonra yaşamaq üçün müxtəlif şəhərlərə üz tutmalı olublar. Hacı Əhməd Yagizarov da Bakıya gəlib. Burada Tamara xanımla evlənib. Tamara Əliyeva əslən şamaxılı idi. O, Şamaxı xanı Mahmud ağanın nəticəsi, tanınmış vəkil İsmayıl bəyin nəvəsi idi.

Hacı Murad Yagizarov müsahibələrinin birində ata tərəfinin hamısının ya diş həkimi, ya da zərgər, ana tərəfinin isə dövlət qulluğunda olduqlarını deyib. Onun anası Tamara xanım da öz dövrünün tanınmış ziyalı qadınlarından olub. Tamara Əliyeva qida sənayesi nazirinin müavini vəzifəsinədək yüksəlib.

Ailənin yeganə övladı Hacı Murad uşaqlıqdan aktyorluq sənətinə meyil göstərib. Onun bu istəyi atasının xoşuna gəlməyib. Hacı Əhmədin niyyəti oğlunu ya zərgər, ya da diş həkimi görmək idi. Diplomat dayısı isə Hacı Muradın onun yolu ilə getməsini istəyib. Bu da təsadüfi deyil. Nəsildə incəsənət sahəsini seçən olmamışdı.

Hacı Murad Yagizarov da səhnənin cazibəsinə düşəndə aktyor olacağına birdən-birə qərar verməyib. Sonralar o günləri belə xatırlayıb: "Qonşumuz Ələsgər Ələkbərovun təsiri ilə mən tez-tez Dram Teatrının tamaşalarına gedirdim. İncəsənətlə bir peşə kimi məşğul olmaq ağlıma da gəlmirdi. İdmanla məşğul olurdum, boks üzrə respublika çempionu idim. Ayrı-ayrı vaxtlarda voleybolla, üzgüçülüklə, karate ilə məşğul olmuşam".

Hacı Murad orta məktəbin sonuncu sinfində oxuyanda ilk dəfə səhnəyə çıxıb. Məktəbin dram dərnəyində hazırlanan tamaşada ona görkəminə uyğun idmançı rolunu oynamağı tapşırıblar. Bu rol Hacı Murad Yagizarovun sənət taleyinə mühüm təsir göstərib: "Mühitə düşdüm. Ardınca buraxılış gecəsi üçün bir tamaşa hazırladıq, orada da oynadım. Tamaşaya Ələsgər Ələkbərov gəlmişdi. Ailəm iştirak etmədi, çünki məəttəl qalmışdılar ki, mən neyləyirəm, hansı peşəni seçmək istəyirəm, birdən incəsənəti seçərəm".

Məşhur aktyor Ələsgər Ələkbərov həmin tamaşaya baxdıqdan sonra Hacı Murada tövsiyəsini verib: "Sənin incəsənətə getməyin məsləhətdir, istedadlısan, səndə öz gəncliyimi görürəm".



Öz yolunu müəyyənləşdirən Hacı Murad Yagizarov orta təhsilini başa vurduqdan sonra - 1958-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Aktyorluq fakültəsinə daxil olub. Məhərrəm Haşımovun kursunda oxuyub. İnstitutu 1962-ci ildə bitirib. Hələ tələbəlik illərində bağlandığı Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında aktyor kimi fəaliyyət göstərib. İstedadlı və yaraşıqlı gənc aktyor üçün teatr səhnəsində tanınmaq, rəğbət qazanmaq çətin olmayıb. Qısa zamanda böyük uğurlar qazanıb.

O, sonadək bir teatrda çalışıb. Azərbaycan Dövlət Rus Dram Teatrının səhnəsində Azərbaycan və dünya dramaturqlarının əsərləri əsasında hazırlanan tamaşalarda 200-dən çox rol oynayıb.

Kino sahəsində də gənc yaşlarından aktyorluq bacarığını göstərə bilib. Teatr kimi kinoda da ilk məsləhətçisi, yol göstərəni Ələsgər Ələkbərov olub. İlk dəfə onu sınaq çəkilişlərinə də 1958-ci ildə Ələsgər Ələkbərov aparıb. "Uzaq sahillərdə" filmi ekranlaşdırılırdı. Ələsgər Ələkbərov Hacı Murad Yagizarovu baş rola - Mixaylo roluna çəkilmək üçün aparmışdı. Ancaq çox gənc olduğu üçün onu bu rola təsdiqləməyiblər. Hacı Murad Yagizarov "Uzaq sahillərdə"də partizan olub. Sonra "Ögey ana"da çoban roluna çəkilib.

Hacı Murad Yagizarov illər sonra Ələsgər Ələkbərovu minnətdarlıqla yada salırdı: "O illər ərzində hansı filmə çəkildimsə, Ələsgər Ələkbərovla bir yerdə çəkildik. "Böyük dayaq"da həmçinin. Təhsil aldığım illərdə bir neçə filmə çəkilmişəm. "Böyük dayaq"da Şirzad diplom işim oldu. Ardınca "Ulduz", "Arşın mal alan", "O qızı tapın", "Bir cənub şəhərində". Əsasən Eldar Quliyevin filmlərinə çəkilirdim, çünki uşaqlıq dostum idi. Həyatımda üç dəfə jurnalist obrazını oynamışam - "Həyat öyrədir", "Ən vacib müsahibə", "Bir cənub şəhərində".

Kino sənətində ən böyük uğuru hesab edilən "Arşın mal alan" filmindəki Süleyman roluna çəkilmək aktyorun öz seçimi olub. Əslində, kinorejissor Tofiq Tağızadə onu həmin filmdə Əsgər rolunda çəkilməyə dəvət edib. Amma çəkiliş meydançasında Həsən Məmmədovu görüb. Onun da Əsgərə sınaq çəkilişlərinə çağırıldığını öyrənib. Onunla aktyorluq fakültəsində birlikdə oxumuşdular, dost idilər. Ona görə Hacı Murad kinorejissora deyib ki, ssenarini oxudum, Süleyman rolu daha çox ürəyimə yatır. Tofiq Tağızadə təəccüblə xəbər alıb: "Sən nə danışırsan? Əsgər əsas roldur, baş roldur. Mən səni Əsgərə çəkmək istəyirəm". Onu "Arşın mal alan"ın Süleymanı kimi sınaqdan keçirib təsdiq ediblər. Beləliklə, Hacı Murad Yagizarov özünə ruhən daha yaxın hiss etdiyi Süleyman bəy roluna çəkilib.

Azərbaycanın istər teatr, istərsə də kino sənətində şöhrətli aktyorlarından biri olan Hacı Murad Yagizarovun fəaliyyəti həm sovet, həm də müstəqillik dövründə yüksək dəyərləndirilib. O, 1974-cü ildə "Əməkdar artist", 1982-ci ildə isə "Xalq artisti" fəxri adlarına, 1986-cı ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb. Azərbaycan mədəniyyətinə verdiyi töhfələrə görə, Hacı Murad Yagizarov 2009-cu ildə "Şöhrət" ordeni, 2019-cu ildə isə "Şərəf" ordeni ilə təltif edilib.

Görkəmli aktyor ömrünün son illərini ailəsi ilə birgə Almaniyada yaşayıb. Azərbaycanın unudulmaz sənətkarlarından olan Hacı Murad Yagizarov 2025-ci il sentyabrın 13-də 86 yaşında Almaniyada uzun sürən xəstəlikdən dünyasını dəyişib. Xalq artisti çox sevdiyi vətəni Azərbaycanda İkinci Fəxri xiyabanda dəfn olunub.

Azərbaycan teatr və kino sənətində özünəməxsus dəst-xəti ilə seçilən Hacı Murad Yagizarov yaratdığı bənzərsiz rollar, səhnə mədəniyyəti və peşəkarlığı ilə unudulmazdır. Səhnədə və ekranda canlandırdığı, lent yazılarında əbədiləşmiş obrazlar aktyoru tamaşaçıların yaddaşında hələ çox yaşadacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# "Kapitan və Xəzər dənizi" sənədli filmi beynəlxalq festivalda




**Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) katibi, rejissor, prodüser Türkan Hüseynin "Kapitan və Xəzər dənizi" sənədli filmi Sarayevo Film Festivalının müsabiqə proqramına seçilib.**

Bu barədə AZƏRTAC-a AKİ-dən məlumat verilib.

Bildirilib ki, Mədəniyyət Nazirliyi tabeliyində Kino Agentliyinin (ARKA) dəstəyi ilə ərsəyə gələn "Kapitan və Xəzər dənizi" qısametrajlı sənədli filmi Avropanın ən nüfuzlu kino tədbirlərindən biri olan Sarayevo Film Festivalının sənədli filmlər bölməsinin rəsmi proqramına seçilib və mükafat uğrunda mübarizə aparacaq.

Sarayevo Film Festivalı (SFF) Avropa və dünya kinosunun mühüm platformalarından biri hesab olunur. Festivalın sənədli filmlər bölməsi Amerika Kino Akademiyasının mükafatlarına ("Oskar") birbaşa kvalifikasiya hüququ verir. Bu bölmədə qalib gələn tammetrajlı sənədli film növbəti mərhələdə "Oskar" mükafatının müvafiq kateqoriyası üzrə iddialılar siyahısına daxil olmaq imkanı əldə edir.

"Rental Azərbaycan" MMC tərəfindən istehsal olunan filmin ssenari müəllifi və rejissoru Türkan Hüseyn, prodüseri isə Emil Nəcəfovdur. 2023-cü ildə ARKA tərəfindən keçirilmiş "Dövlət sifarişi və dəstəyi ilə istehsal olunan film layihələrinə dəstək müsabiqəsi"nin qaliblərindən olan bu layihə, animasiya və arxiv materiallarının hibrid formasında işlənməsi ilə fərqlənir. Filmin animasiya hissəsi "Harmony of Chaos" studiyasında istehsal olunub.

Ekran əsəri 1990-cı ilin 20 Yanvar faciəsindən, həmin dövrdə Xəzər Dəniz Neft Donanmasının kapitanlarının, eləcə də tarixi hadisələri lentə alan jurnalist və operatorların fədakarlığından bəhs edir.

# "Operetta inciləri" konsert proqramı ilə mövsümə yekun vurulub

**Teatrlar yay mövsümünə çıxır. Azərbaycan Dövlət Akademik Musiqili Teatrı da ötən mövsümü uğurla başa vurub. Teatrdan verilən məlumata görə, iyulun 18-də 116-cı teatr mövsümünün bağlanışı münasibətilə tamaşaçılara "Operetta inciləri" konsert proqramı təqdim olunub. Konsert proqramı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.**



Proqramda Azərbaycanın görkəmli bəstəkarları Üzeyir bəy Hacıbəyli, Tofiq Quliyev, Fikrət Əmirov, Süleyman Ələsgərov, Ramiz Mustafayev, Rauf Hacıyev, Vasif Adıgözəlov, Emin Sabitoğlu, Oqtay Kazımi və Sərdar Fərəcovun, eləcə də xarici ölkə bəstəkarları İohann Ştraus, Frans Leqar, İmre Kalman, Alice Dona və Rikardo Koçantenin məşhur əsərlərindən seçilmiş ariya və duetlər səsləndirilib.

Dirijor, Əməkdar incəsənət xadimi Fəxrəddin Atayevin rəhbərlik etdiyi teatrın simfonik orkestrinin müşayiəti ilə keçirilən konsertdə Əməkdar artistlər Nadir Xasiyev, Nərgiz Kərimova, Səidə Şərifəliyeva, Prezident mükafatçısı Ülviyyə Əliyeva, Firus Məmmədov, Mehriban Zaliyeva, Şaban Cəfərov, Eleonora Mustafayeva, Səmədzadə Xasiyev, Emin Zeynallı, Nərmin Əliyeva, Gültac Əlili, Əli Kərimov, Olqa Giorgiyeva, İlahə Rüstəmova və Orxan Hüseynli, solo tar ifaçısı Əməkdar artist Elxan Mansurov, eləcə də xor artistləri çıxış ediblər.

Bağlanış mərasiminin quruluşçu rejissoru Cavid İmamverdiyev, xormeysteri Əməkdar artist Vaqif Məstanov, rejissor assistenti Sevinc Məmmədovadır.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının yaradıcı kollektivi 117-ci teatr mövsümündə də yeni və maraqlı tamaşalarla tamaşaçılarını sevindirəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# "DREAM FEST-2026" möhtəşəm konsertlə açıldı

**Xəzər dənizi sahilindəki "Sea Breeze Resort"da "DREAM FEST-2026" III Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub. Ölkənin ən yaxşı yay musiqi məkanlarından biri dörd gün ərzində dünyanın müxtəlif ölkələrindən tanınmış ifaçıları və minlərlə müasir estrada pərəstişkarını bir araya gətirəcək.**






AZƏRTAC xəbər verir ki, festival Azərbaycanın Xalq artisti Emin Ağalarov (EMIN), Endryu Donalds, Çeb Xaled, Stas Mixaylov, Alsu, Yeqor Krid, Ani Lorak, Tomas Neverqrin, Brendon Stoun, Basta Rayms, Barbara Berta, Zülfiyyə Xanbabayeva, Roza Zərgərli, "Rozovıe rozı" qrupu və digər ifaçıların iştirakı ilə keçirilən möhtəşəm qala-konsertlə başlayıb.

İlk musiqi axşamının aparıcıları qismində Reqina Todorenko və Murad Dadaşov çıxış ediblər.

Musiqi marafonunu "Bakıya qaçaq" mahnısı ilə Emin Ağalarov açıb. Tamaşaçılar artıq ilk akkordlardan onlara tanış olan melodiyanı zümzümə edərək bütün axşama xoş ovqat qatıblar. Sonradan artistə Endryu Donalds qoşulub və onlar ikilikdə "About Love" kompozisiyasını ifa ediblər. Mahnını təqdim edən EMIN bildirib ki, onun müəllifi Maksim Fadeyevdir.

Proqram EMIN-in solo kompozisiyaları ilə davam edib, bundan sonra Rusiyanın Əməkdar artisti Alsu səhnəyə çıxıb. Onların "Raznıe" dueti Alsunun "Vçera", "Çujaya" və "İnoqda" hitlərinin axıcı şəkildə solo ifasına çevrilib.

Gecənin ən yaddaqalan məqamlarından biri əfsanəvi Əlcəzair müğənnisi Çeb Xaledin çıxışı olub. Müğənni məşhur "Aicha" mahnısını ifa edərkən tamaşaçılar da ona qoşulublar və bir neçə dəqiqə ərzində konsert məkanı nəhəng açıq hava rəqs meydançasına çevrilib. Brendon Stoun proqrama yeni bir dinamika qatıb. Onun Azərbaycanın Xalq artisti Eyyub Yaqubovun "Moskva-Bakı təyyarəsi" mahnısına verdiyi interpretasiya tamaşaçılarda böyük əks-səda doğurub və ayaq üstə alqışlara səbəb olub.

Endryu Donalds səhnəyə əfsanəvi "Enigma" və "Mishale" kompozisiyaları ilə qayıdaraq tamaşaçılara nostalji hisslər və xatirələr bəxş edib.

Xalq artisti Təranə Muradovanın rəhbərlik etdiyi Azərbaycan Dövlət Rəqs Ansamblının çıxışları festivalın ilk axşamına fərqli milli kolorit əlavə edib. Ölkənin zəngin mədəni irsindən ilhamlanan canlı xoreoqrafik nömrələr konsert proqramını mükəmməl şəkildə tamamlayıb və tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılanıb.

Xalq artisti Zülfiyyə Xanbabayeva və müğənni Roza Zərgərli Azərbaycan musiqisini parlaq şəkildə təmsil ediblər. Roza Zərgərli "İstədim" hitini oxuyub, Zülfiyyə Xanbabayeva isə ən məşhur mahnılarından ibarət kompozisiyanı təqdim edib. Tamaşaçılar müğənni ilə birlikdə oxuduqları "Hərdən" mahnısını böyük həvəslə qarşılayıblar.

"DREAM FEST"də ilk dəfə çıxış edən Belarusun "Rozovıe rozı" qrupunun və isveçrəli müğənni Barbara Bertanın ifaları da tamaşaçı auditoriyası tərəfindən hərarətlə qarşılanıb.

Stas Mixaylov tamaşaçılara "Privet, qostepriimnaya zemlya!" ("Salam, qonaqpərvər diyar!") sözləri ilə müraciət edib. Onun konserti tamaşaçıların birgə müşayiəti ilə davam edib və ən yaddaqalan anlardan biri Roza Zərgərlinin onunla birlikdə "Ya pyu tebya do dna" mahnısını ifa etməsi olub.

Ani Lorak, Tomas Neverqrin və festivalın digər iştirakçıları da öz proqramlarını təqdim ediblər.

Yeqor Kridin çıxışı gənc tamaşaçıların diqqətini cəlb edib. Müğənninin konsert proqramı tamaşaçıların da onunla birlikdə oxuduqları möhtəşəm setlə başa çatıb.

"DREAM FEST-2026" festivalının ilk gününün son akkordu Xəzər dənizi sahili üzərində gecə səmasını işıqlandıran və tədbirin açılışını parlaq şəkildə başa vuran ənənəvi bayram atəşfəşanlığı olub.

# İran ABŞ-nin atəşkəs təklifini rədd etdi

## Donald TRAMP: "Onların heç vaxt nüvə silahı olmayacaq"

**Ötən həftə İraqın ABŞ-yə səfər etmiş Baş naziri Əli Zeydi cümə axşamı Tehrana atəşkəs təklifi təqdim edib, lakin rədd cavabı alıb. Bu barədə "The New York Times" qəzeti mənbələrə istinadən məlumat verib.**





"İran cümə axşamı ABŞ Prezidenti Donald Trampın İraqın Baş naziri tərəfindən Tehrana təqdim edilən atəşkəs təklifini rədd edib", - deyə məlumatda bildirilir.

Zeydi ötən həftənin əvvəlində Ağ Evdə Trampla görüşəndən sonra iyulun 23-də İrana səfər edib. Nəşr qeyd edir ki, Tehrana təqdim olunan atəşkəs təklifinin təfərrüatları məlum deyil. "The New York Times" izah edir: "Lakin İran rəsmiləri bunun masada olan yeganə təklif olduğunu və hökumətlərinin Hörmüz boğazına nəzarəti həll edilməmiş qoyacaq müvəqqəti razılaşmada maraqlı olmadığını bildiriblər".

Bu arada ABŞ hərbi qüvvələri İrana qarşı iki saatdan çox davam edən ardıcıl 13-cü gecə hücumlarını başa çatdırıblar. Məlumat ABŞ Silahlı Qüvvələri Mərkəzi Komandanlığının (CENTCOM) Yaxın Şərqdəki açıqlamasında yayılıb. Açıqlamada deyilir: "CENTCOM qüvvələri İranın Hörmüz boğazından keçən mülki dənizçilər və kommersiya gəmiləri üçün yaratdığı təhlükəni daha da azaltmaq üçün İran hərbi komandanlıq mərkəzlərini, dron saxlama obyektlərini, rabitə şəbəkələrini, sahil müşahidə məntəqələrini və dəniz obyektlərini hədəfə alıb". Həmçinin qeyd olunub ki, ABŞ qüvvələri Hörmüz boğazından keçən kommersiya gəmilərinə kömək etməyə davam edir. "İran İslam İnqilabı Keşikçiləri Korpusunun son hücumlarına baxmayaraq, beynəlxalq su yolu tranzit üçün açıq olaraq qalır. Ticarət gəmiləri ABŞ qüvvələrinin dəstəyi ilə boğazdan sərbəst şəkildə keçməyə davam edir", - deyə komandanlıq bildirib.

ABŞ Prezidenti Donald Tramp İrana təzyiqlərin davam etməli olduğunu vurğulayıb və Amerika hücumlarının dayanmayacağını deyib. Qeyd edib ki, islam respublikasının hakimiyyəti ilə "bundan sonra da eyni cür davranmaq lazımdır".

Vaşinqtonda Ətraf Mühitin Mühafizəsi Agentliyinin (EPA) qərargahında məlumat mərkəzlərinə həsr olunmuş tədbirdə çıxış edən D.Tramp İranla bağlı vəziyyətə də toxunub. "İran İslam Respublikası ilə bağlı vəziyyət bizim üçün çox yaxşı gedir" deyən Amerika lideri əlavə edib ki, onun fikrincə, İran "nəsə planlaşdırır, amma hələ hazır deyil". İran rəhbərliyini "pis niyyətlərdə" günahlandıran D.Tramp deyib: "Onlarla eyni cür davranılmağa davam edilməlidir. Onlar hələ hazır deyillər. Onların pis niyyətləri var idi. Biz onların nüvə silahına sahib olmasına icazə verə bilmərik".

ABŞ-də yüksəktexnologiyalı infrastrukturun inkişafından danışan D.Tramp zaldakı investorlara və yerli hökumət nümayəndələrinə sualla müraciət edib: "İran və müttəfiqləri icmaları bir-bir məhv etməyə başlayanda bütün bu məlumat mərkəzi layihələrini davam etdirməyimiz vacib deyilmi?" ABŞ Prezidenti bir daha təkrarlayıb ki, Vaşinqton İranın nüvə silahı əldə etməsini düşünməsinə belə "heç vaxt icazə verməyəcək". "İndi baş verənlər də məhz budur. Onların heç vaxt nüvə silahı olmayacaq", - deyə Donald Tramp bildirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bilmək istəyirəm

***- Dövlət qurumunda sürücü işləyirəm. Müdir ezamiyyətə gedəndə məni də ezamiyyətə göndərirlər. Amma xidməti avtomobilə əlavə yanacaq ayrılmır, əsas gətirilir ki, aylıq yanacaq limiti artıq ayrılıb. Bu qanunidirmi?***

***Lətif ƏLİZADƏ,***
***Sumqayıt şəhəri***

- Sualınıza cavab olaraq bildiririk ki, qarşılaşdığınız vəziyyət əmək münasibətləri zamanı rast gəlinən mövcud mübahisələrdən biridir. Sözügedən vəziyyətin yaranmasını daha çox maliyyə-təsərrüfat münasibətlərinin düzgün qurulmaması ilə əlaqələndirmək olar.

Başlıcası, bu istiqamətdə mövcud və qüvvədə olan normativ-hüquqi aktlara istinad etsək görərik ki, idarənizin bu hərəkəti və gətirdiyi bəhanə əsaslı deyildir. Sizin ezamiyyət zamanı xidməti avtomobillə qət etdiyiniz yola sərf olunan yanacaq aylıq limitə aid edilməməli və əlavə olaraq ödənilməlidir. Belə ki, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda xidməti avtomobillərin aylıq yanacaq limitləri və ezamiyyə xərcləri fərqli müddəalarla tənzimlənir.

İdarənizin istinad etdiyi "aylıq limit" gündəlik xidməti fəaliyyət üçün nəzərdə tutulan bir istifadə qaydasıdır. Sizin ezamiyyətiniz isə xüsusi tapşırıqdır və onun xərcləri tamamilə fərqli bir mənbədən - ezamiyyə xərclərindən ödənilməlidir.

Əmək Məcəlləsinin 3-cü maddəsinin 9-1-ci hissəsinə görə, ezamiyyət - işəgötürənin əmri (sərəncamı, qərarı) ilə işçinin müəyyən olunmuş müddətə iş yerindən başqa yerə işəgötürənin qanunauyğun tapşırığını yerinə yetirmək üçün getməsidir.

Həmçinin əmək müqaviləsi üzrə işçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş ezamiyyə xərcləri normalarından az olmayan məbləğdə ezamiyyə xərclərini almaq kimi əsas hüququ vardır (Əmək Məcəlləsinin 9-cu maddəsinin "ö" bəndi).

Eyni zamanda Əmək Məcəlləsinin 181-ci maddəsinin tələbinə görə, ixtiraçı və səmərələşdirmə təkliflərinin müəllifləri olan, qan və qan komponentləri verən, ezamiyyətə göndərilən işçilərin iş yeri və orta əməkhaqqı saxlanılmaqla onlıara digər müvafiq təminatların verilməsi qüvvədə olan normativ-hüquqi aktlarla tənzim edilir.

Sualınızla bağlı konkret olaraq bu məsələni tənzimləyən əsas normativ-hüquqi akt kimi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 18 yanvar 2012-ci il tarixli Q-01 nömrəli qərarı ilə təsdiq edilmiş "İşçilərin ezamiyyə Qaydaları"nı qeyd etməliyik.

Qaydaların 1-ci hissəsinin 5-ci bəndinə əsasən, ezam olunan işçiyə ezamiyyətə getməzdən əvvəl ezamiyyətin müddətinə uyğun olaraq pul avansı verilir. Pul avansı ezamiyyə xərclərinin 1 günlük normasına uyğun ezamiyyət günləri üçün tələb olunan xərclərdən və nəqliyyat xərclərindən ibarətdir. Ezamiyyə xərclərinin 1 günlük normasına mehmanxana xərcləri və gündəlik xərclər (yemək, şəhərdaxili nəqliyyat, rabitə və digər xidmətlər ilə bağlı xərclər) daxildir.

Nəqliyyat xərclərinə - ezam olunma yerinə getmək və qayıtmaq, ölkədaxili nəqliyyat xərcləri (taksidən istifadə istisna olmaqla yaşayış məntəqələrindən kənarda yerləşən vağzala, limana (bərəyə), təyyarə meydanına və ölkə ərazisində digər məntəqələrə getmək) daxildir və bu xərclər təqdim edilən sənədlər əsasında ödənilir.

Qaydaların 2-ci hissəsinin 5-ci bəndinə əsasən, büdcədən maliyyələşdirilən dövlət orqanlarında işin xüsusiyyətləri ilə əlaqədar olaraq respublika ərazisi daxilində xidməti minik avtomobilləri ilə xidməti ezamiyyətə gedilməsi zəruri olan hallarda nəqliyyat vasitələri üçün müəyyən edilmiş aylıq yürüş həddindən artıq yol qət edildiyi təqdirdə sərf edilən yanacağın dəyəri təsdiqedici sənədlər əsasında ezamiyyə xərcləri üçün nəzərdə tutulmuş vəsaitlər hesabına nəqliyyat xərci kimi ödənilir.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Günəşli hava, yüksək temperatur

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi proqnozlaşdırılır. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 22-26, gündüz 33-38 dərəcə isti olacaq. Atmosfer təzyiqi 754 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 22-27, gündüz 35-39, dağlarda gecə 15-20, gündüz 25-30 dərəcə isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 35-39 dərəcə isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq



ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20, gündüz 23-28, bəzi yerlərdə 32-37 dərəcə isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20, gündüz 23-28, bəzi yerlərdə 31-36 dərəcə isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-25, gündüz 34-39 dərəcə isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22, gündüz 32-37, dağlarda gecə 15-20, gündüz 25-30 dərəcə isti olacağı ehtimal edilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava günəşli keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-27, gündüz 35-39 dərəcə isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava yağmursuz keçəcək. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-25, gündüz 33-38, dağlarda gecə 20-22, gündüz 27-31 dərəcə isti olacağı gözlənilir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3204**
**Sifariş 925**

**Qiyməti 60 qəpik**